

MAYKL S. HEYSER

# FÖVQƏLTƏBİİ ALƏM

Müqəddəs Kitab fövqəltəbii
aləm barədə nə öyrədir və bu,
nə üçün vacibdir?

«Allah oğulları» kimlərdir? «Nefilimlər» kimlərdir? Mələklər fövqəltəbii ruhani aləmdə hansı yeri tuturlar? Nə üçün Allah bəzən israillilərə əmr etmişdi ki, bəzi şəhərləri və orada yaşayan əhalini tamamilə qırıb məhv etsinlər? Fövqəltəbii aləmdə İsa Məsihin hansı rolu var? Dr. Heyser bu kimi sualların cavabını daha dərin fikirlərlə «Fövqəltəbii aləm» kitabında açıqlayır.

Bu kitabı oxuyandan sonra siz Müqəddəs Kitabı tamamilə başqa dünyagörüşü ilə dərk edəcəksiniz. Dr. Heyserin «Fövqəltəbii aləm» kitabı p seminarlar, pastorlar və Müqəddəs Kitabı daha dərindən oxuyub öyrənən tələbələr üçün gözəl ruhani vəsait ola bilər.

AZ

ISBN: 978-1-57-799558-6

9 781577 995586

MAYKL S. HEYSER

# FÖVQƏLTƏBİİ ALƏM

**Müqəddəs Kitab fövqəltəbii aləm barədə nə öyrədir və bu, nə üçün vacibdir?**

**Fövqəltəbii Aləm**

Originally published in English under the title
*Supernatural: What the Bible Teaches About the Unseen World and Why it Matters* by Michael S. Heiser
Copyright © 2015 by Michael S. Heiser

© 2020 for Azeri edition.
Translated by permission. All rights reserved.
ISBN: 978-1-57-799558-6

© 2015 Bütün müəlliflik hüququ Maykl S. Heyserə məxsusdur.
Fövqəltəbii Aləm

Azərbaycan dilinə tərcümə
© 2020, Miqlat

Bu tərcümə ümumilikdə müəllifin və çapa vermək hüququ olanın icazəsi ilə köçürülə və yayıla bilər. İcazə isə yalnız *Miqlat.org* tərəfindən nəşr olunmuş tərcüməyə aiddir. *Miqlat.org* ABŞ-da gəlir gətirməyən 501(c)(3) təşkilatıdır. Bu icazə *Lexham Press* tərəfindən nəşr olunmuş eyni və ya başqa dildə olan hər hansı tərcüməyə aid deyil.

Müqəddəs Kəlama əsaslanmış sitatlar Müqəddəs Kitabdan (Əhdi-Ətiq və Əhdi-Cədid) götürülmüşdür.
Əhdi-Ətiq © Müqəddəs Kitab şirkəti 2004, 2006, 2009
Əhdi-Cədid © Müqəddəs Kitab şirkəti 2009
Bütün müəlliflik hüquqları qorunur.

*Atama və anama,*
*Ed və Cen Sperrouya həsr olunur.*

Kimin ağlına gələrdi ki, bu, baş verəcək?
Məncə, biz bunun cavabını bilirik.
*1 Şamuel 1:1–28*

# MİNNƏTDARLIQLAR

«Fövqəltəbii Aləm» kitabı *Unseen Realm* («Gözəgörünməz Aləm») kitabının əsasında yazılıb. Orada bildirdiyim minnətdarlıqlar bura da aiddir.

İnternet müzakirə qrupuna təşəkkürümü bildirirəm. Allahın səmavi toplantısı və gözəgörünməz aləmin Müqəddəs Kitaba əsaslanmış teologiyası elmi işimin mərkəzi olacaq deyə qərar verəndən sonra bu qrup təşkil olundu. Bu qrupu «Allahın Səmavi Toplantısı barədə öyrənmək qrupu» adlandırmağım da təsadüfi deyil. Mən doktorluq elmi işimi bitirib 2004-cü ildə *Logos Bible Software* proqramında çalışmağa başladıqdan sonra bu qrup ləğv olundu. Amma buradakı müzakirələr mənim iki kitab yazmağıma təkan verdi.

«Gözəgörünməz Aləm» kitabı *The Myth That is True* («Həqiqət olan Mif») adlı əlyazmadan başladı. Mən bunu internet saytımın izləyiciləri və *The Facade* («Fasad») romanımın oxucuları üçün yazmışam. Əlyazmaların çoxu əvvəlcə aylıq xəbər bülletenində, sonra isə bloqda çıxdı. Mən hər ay nəsə hazırlamağı qarşıma məqsəd qoymuşdum. *The Myth Book* («Mif kitabı») kitabının birinci qaralaması 2012-ci ildə tamamlandı. Oxucuların rəylərinə əsasən əlyazma üzərində yenidən işləyib onu təkmilləşdirdim. Bu işdə mənə kömək edənlərin adları «Gözəgörünməz Aləm» kitabının minnətdarlıqlar bölməsində qeyd olunub.

«Gözəgörünməz Aləm» və «Fövqəltəbii Aləm» kitablarının nəşrinə yardımçı olan əsas insanlar *Faithlife Corporation/Logos*

*Bible Software* şirkətinin rəhbərləri — Bob Pritçet, Deyl Pritçet və Bill Ninhusdur. Onlar nəinki əlyazmamın keyfiyyətini artırdılar, həm də bu kitabın qısaldılmış formada nəşrinə kömək etdilər. Ona görə də «Fövqəltəbii Aləm» kitabı onların kəşfi sayıla bilər.

«Gözəgörünməz Aləm» və «Fövqəltəbii Aləm» kitabının redaktoru Deyv Lambertdir. Onun peşəkarlığı və həyat təcrübəsi bütün səhifələrdə görünür.

Nəhayət, mən həyat yoldaşım Drennaya təşəkkürümü bildirirəm. Onun sayəsində mənim gördüyüm hər bir iş uğurlu olur.

## Bu tərcüməyə görə minnətdarlıq

Mən *miqlat.org* şirkətinin sponsorlarına təşəkkürümü bildirirəm. Sizin səxavətiniz olmadan bu layihə işıq üzü görməzdi.

## BİRİNCİ FƏSİL

# MÜQƏDDƏS KİTABA ETİBAR ETMƏK

Müqəddəs Kitabın dediklərinə, həqiqətən, inanırsınızmı?

Xüsusilə məsihçilərin oxuyacağı kitabda bu sual bəziləri üçün qəribə səslənə bilər. Şəxsən mənə bu sual qəribə gəlmir. Müqəddəs Kitabda qəribə, xüsusilə müasir dünyada ağlasığmaz məqamlar çoxdur.

Mən İsanın Allah olub yer üzünə gəlməsi, çarmıxda ölməsi və ölülərdən dirilməsi kimi əsaslardan danışmıram. Mən Allahın İsraili Qırmızı dənizin içərisindən yol açaraq Misirdən xilas etdiyi möcüzəli hekayələri belə nəzərdə tutmuram. Məsihçilərin əksəriyyəti həmin möcüzələrə inandıqlarını söyləyəcək. Əgər siz Allaha və İsaya iman etmirsinizsə, yaxud Onun möcüzələr yaratdığına inanmırsınızsa, onda özünüzü məsihçi adlandırmağınızın nə mənası var?

Mən Müqəddəs Kitabı oxuyarkən hərdənbir rastlaşdığınız, amma imanlı cəmiyyətlərində nadir hallarda eşitdiyiniz fövqəltəbii aləmdən danışıram.

Gəlin sizə bir nümunə göstərim. Yəqin ki, 1 Padşahlar 22-ci fəsildə İsrailin zalım padşahı Axav barədə oxumusunuz. O, Ramot-Gilead adlanan şəhərdə düşmənə hücum etmək üçün Yəhuda padşahının qoşunları ilə öz qoşunlarını birləşdirmək fikrinə düşür. Yəhuda padşahı isə gələcəyə nəzər salmaq, hücuma keçdikləri halda nə baş verəcəyini öyrənmək istəyir. Bu məqsədlə hər iki padşah Axavın peyğəmbərlərinə müraciət edir və müsbət cavab alırlar. Lakin həmin peyğəmbərlər Axava onun eşitmək istədiyi sözləri deyirlər. Hər iki padşah da bunu yaxşı bilir. Ona görə qərara

gəlirlər ki, Allahın peyğəmbəri Mikeyadan soruşsunlar. Mikeyanın dilindən çıxanlar isə heç də Axav üçün xoş olmur:

> Mikeya dedi: «Onda Rəbbin sözünü eşit. Mən Rəbbi Öz taxtında oturmuş və bütün göylər ordusunu Onun sağında və solunda durmuş gördüm. Rəbb dedi: "Ramot-Gileada gedib həlak olması üçün Axavı kim tovlayacaq?" Biri elə dedi, o biri belə. Bir ruh irəli çıxıb Rəbbin önündə dayandı və dedi: "Mən onu tovlayaram". Rəbb ona dedi: "Necə?" O dedi: "Mən çıxıb bütün peyğəmbərlərin ağzında yalançı bir ruh olaram". Rəbb dedi: "Sən onu tovlayacaqsan, bunu bacarırsan, get və belə et"». Mikeya davam etdi: «İndi, budur, Rəbb sənin bütün bu peyğəmbərlərinin ağzına yalançı bir ruh qoymuşdur. Beləcə Rəbb sənin başına bəla gətirməyi qərara aldı».
>
> *1 Padşahlar 22:19–23*

Müqəddəs Kitab sizdən nəyə inanmağınızı istəyir? Yəni doğrudanmı Allah yer üzündə baş verənləri həyata keçirtmək üçün bir qrup ruhani varlıqlarla görüşür?

Daha bir misalı Yəhudanın məktubunda görürük:

> Öz başçılıqlarını saxlamayan, məskunlaşdığı yerləri tərk edən mələkləri də böyük qiyamət günü üçün əbədi zəncirlərlə bağlayaraq zülmətdə saxlamışdı.
>
> *Yəhuda 1:6*

Allah bir qrup mələyi yer altındakı zindanda zəncirləyib? Bu, doğrudan belədir?

Dediyim kimi, Müqəddəs Kitabda qəribə məqamlar çoxdur, xüsusilə gözəgörünməz ruhani aləm barədə. Müşahidələrimə görə, məsihçilərin əksəriyyəti Müqəddəs Kitabın az mübahisəli təlimlərini (ən azı məsihçilər arasında), yəni İsanın kim olduğunu, nə işlər gördüyünü qəbul etməkdə çətinlik çəkmirlər. Amma söhbət

yuxarıda nümunə göstərdiyimiz fövqəltəbii aləmdən düşəndə, onlar bunu rədd edirlər. Mən bunun dəfələrlə şahidi olmuşam. Bir dəfə həyat yoldaşımla imanlı cəmiyyətlərindən birində pastorun Peterin 1-ci məktubu əsasında hazırladığı vəzə qulaq asdıq. O, 1 Peter 3:18–22-ci ayələrə çatanda dedi: «Biz bu ayələrin üstündən keçəcəyik. Çünki onlar çox qəribə ayələrdir». O, «qəribə ayələrdir» deməklə fövqəltəbii elementləri nəzərdə tuturdu. Bu, onun ilahi fikirlərinə zidd idi. Məsələn:

> Çünki saleh olan Məsih də saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Allahın hüzuruna gətirsin. O, cismən edam edilmiş, amma ruhən həyata qovuşmuşdur. O, ruhən gedib zindandakı ruhlara da vəz etdi. Bunlar bir vaxtlar, Allah Nuhun gəmi düzəltdiyi dövrdə səbirlə gözlədiyi vaxt itaətsiz idi. O gəmidə isə az adam, başqa sözlə, səkkiz nəfər sudan sağ-salamat çıxdı.
>
> *1 Peter 3:18–20*

Bu nə ruhlardır? Onlar harada idi? Hansı zindanda? Həmin pastor cavabı ya bilmirdi, ya da sadəcə bu ayələri rədd edirdi.

Müqəddəs Kitab üzrə mütəxəssis olduğum üçün belə qənaətə gəlmişəm ki, Kəlamda rast gəlinən qəribə ayələr (Kəlamın az tanınmış və az başa düşülən bir çox hissəsi) əslində çox vacib ayələrdir. Onlar Allah haqqında çox vacib fikirləri çatdırır, fövqəltəbii aləm barədə gözlərimizi açır, həmçinin bizə həyat dərsi verir. Bəli, bu ayələr çətindir. Bəzən bizi çaşdırır. Amma inansaq da, inanmasaq da, əgər biz onlar üzərində düşünsək, mənasını dərk etsək, onlar bizim Allah, bir-birimiz, hansı məqsədlə yer üzündə yaşamağımız və çağırışımız barədə düşüncələrimizi dəyişər.

Həvari Paul korinflilərə yazdığı birinci məktubunda həmin cəmiyyətdəki imanlıların münaqişələrini həll etmək üçün bir-birini məhkəməyə verdiyini görüb məyus olmuşdu. Onun fikrincə, bu, vaxt və emosional enerjinin itkisi, eləcə də məsihçi imanına xələl

gətirən bir şey idi. Paul ah çəkərək demişdi: «Məgər bilmirsiniz ki, siz dünyanı mühakimə edəcəksiniz? Məgər bilmirsiniz ki, mələklər üzərində hökmranlıq edəcəksiniz?» (1 Korinflilərə 6:3, bu ayəni mən belə ifadə edirəm).

Dünyanı mühakimə etmək? Mələklər üzərində hökmranlıq etmək?

Paulun bu ayədə dedikləri bir tərəfdən çaşdırıcı, digər tərəfdən həyatı kökündən dəyişdirə bilər. Müqəddəs Kitab fövqəltəbii varlıqların fəaliyyətlərini bizim həyatımız və taleyimizlə əlaqələndirir. Biz bir gün dünyanı mühakimə *edəcəyik*. Biz Paulun dediyi kimi, mələklər üzərində hökmranlıq *edəcəyik*. Bu haqda sonra danışacağıq.

Paul korinflilərə və bizə nə üçün belə söyləmişdi? Müqəddəs Kitabda yazılır ki, bizi yaradan Allah bizim Onun səmavi ailəsinin bir üzvü olmağımızı istəyir. Təsadüfi deyil ki, Müqəddəs Kitab ailə ünsiyyətlərindən irəli gələn bir evdə yaşamaq, birlikdə işləmək kimi terminlərdən istifadə etməklə Allahı, İsanı, gözəgörünməyən aləmin varlıqlarını, imanlıları, *məni* və *sizi* müştərək halda təsvir edir. Allah bəşəriyyətin Onun ailəsinin bir üzvü olmasını və yaradılış üzərində Onun hökmranlığında iştirak etməsini istəyir.

«Göydə olduğu kimi, yerdə də olsun» ifadəsi hamımıza yaxşı tanışdır. Bu sözlər Rəbbin duasından götürülüb (Matta 6:10). Başlanğıcdan Allah kamil dünyada Öz insan ailəsinin Onunla birgə yaşamasını istəyib, necə ki, gözəgörünməz dünyada mövcud olan ailəsi — səmavi ordusu Onunla birgə yaşayır. Bu kitab, eləcə də Müqəddəs Kitab həmin hekayə — Allahın məqsədi, qaranlıq qüvvələrin bu məqsədə qarşı çıxaraq onu puç etməsi kimi görünməsi və sonda Allahın qələbə çalması haqqındadır. Baxmayaraq ki, Müqəddəs Kitabı öyrədən müəllimlərin çoxu bu varlıqları rədd edir, biz Kəlamdakı hadisələrin tam səhnəsini burada vacib rol alan aktyorları, yəni epik əsərin fövqəltəbii surətləri olmadan təsvir edə bilmərik.

Allahın səmavi ordusunun üzvləri Müqəddəs Kitabda heç də ikinci dərəcəli və ya əhəmiyyətsiz rol oynamır. Onlar əsas rollardan

birini oynayır və bu rol bəşər tarixi ilə birbaşa əlaqədardır. Amma Müqəddəs Kitabın müasir oxucuları Kəlamın bir çox məşhur epizodlarında rastlaşdıqları fövqəltəbii aləmin fərqinə varmırlar. Müqəddəs Kitabda indi aydın gördüklərimi görmək üçün mənə onilliklər lazım oldu. Həmin illərdə apardığım araşdırmanın bəhrəsini sizinlə bölüşmək istəyirəm.

Amma gəlin kitabın əvvəlində sizə verdiyim sualdan uzaqlaşmayaq. *Müqəddəs Kitabın dediklərinə həqiqətən inanırsınızmı?* Hər şey bununla əlaqədardır. Əgər buna inanmasanız, gözəgörünməyən aləm barədə Müqəddəs Kitabın həqiqətən nə söylədiyini və həyatınızla necə kəsişdiyini öyrənmək sizə heç bir fayda verməz.

2 Padşahlar 6:8–23-cü ayələrdə Elişa peyğəmbər yenə də çətinliklə üzləşir. Qəzəbli padşah öz qoşunlarını göndərir ki, Elişanın evini dövrəyə alsınlar. Qulluqçusu qorxuya düşəndə Elişa ona deyir: «Qorxma, çünki bizimlə olanlar onlarla olanlardan çoxdur». Qulluqçusu öz fikrini bildirməmiş Elişa dua edir: «Ya Rəbb, onun gözlərini aç ki, görsün». Allah dərhal cavab verir: «Rəbb nökərin gözlərini açdı və o gördü ki, dağ odlu atlar və döyüş arabaları ilə doludur. Onlar Elişanı əhatəyə almışdı».

Mən sizin üçün Elişa dua etdiyi kimi dua edirəm. Qoy Allah sizin gözlərinizi açsın. Dua edirəm ki, Müqəddəs Kitab sizin üçün adi hekayələr toplusu olmasın.

İKİNCİ FƏSİL

# GÖZƏGÖRÜNMƏZ ALƏM: ALLAH VƏ ALLAHLAR

İnsanlar fövqəltəbii aləm və fövqəlbəşəri qabiliyyətlərlə çox maraqlanırlar. Əyləncə sənayesinin gördüyü işləri göz önünə gətirin. Son onillik ərzində mələklər, yadplanetlilər, əjdahalar, cinlər, ruhlar, cadugərlər, sehrbazlar, vampirlər, qulyabanılar və qeyri-adi gücə malik olan supermenlər barədə minlərlə kitab yazılıb, televiziya tamaşası və filmlər çəkilib. Bir çox məşhur böyük büdcəli Hollivud filmləri fövqəltəbii aləmə həsr olunub: «X-adamlar», «Qisasçılar», «Harri Potter», «Supermen» və «Alatoran». «Sərhəddən kənar», «Fövqəltəbii aləm» və «Məxfi materiallar» kimi teleseriallar üçün yeni seriyalar çəkilməsə də, onların sadiq pərəstişkar ordusu hələ də var. Məgər bu mövzu nağıllarda, kitablarda, incəsənətdə *həmişə* məşhur olmayıbmı?

Görəsən, niyə belədir?

Birincisi, bütün bunlar bizim gündəlik həyatdan və gerçəklikdən uzaq qalmağımıza kömək edir. Bizə öz dünyamızdan daha maraqlı və cəlbedici bir dünya təqdim olunur. Kosmik miqyasda şərə qarşı vuruşan xeyirin döyüşü bizi çox həyəcanlandırır. «Üzüklərin Hökmdarı» trilogiyasında qəhrəmanların (Qandalf, Frodo və dostları) fantastik kainatda zülmət ağası Saurona qarşı epik müharibəsi oxucuları (indi tamaşaçıları) yarım əsrdən çoxdur ki, özünə cəlb edir. Mənfi obraz nə qədər qəddar olursa, qələbə də bir o qədər möhtəşəm olur.

İkincisi, insanları başqa aləmlər cəzb edir. Vaiz kitabında belə deyilir: Allah «əbədiyyəti də insanların ürəklərinə (bizim ürəklərimizə) qoydu» (Vaiz 3:11).

İnsan təbiəti elədir ki, o, təcrübəsi xaricində olanlara can atır. Biz ilahi aləmi dərk etməyə ehtiyac duyuruq. Həvari Paul da bu ehtiyac barədə yazırdı. O öyrədirdi ki, Allahın yaratdığı dünyada yaşadığımız üçün bu hiss bizdə var. Bütün yaradılış Yaradan barədə, o cümlədən bizim aləmdən kənar aləmə şahidlik edir (Romalılara 1:18–23). Əslində Paul deyirdi ki, bu istək çox güclü olduğundan qarşısı alındı (18-ci ayə).

Amma biz Müqəddəs Kitabın epik hekayələrini fövqəltəbii aləm barədə olan kitablar, filmlər və ya əfsanələrdəki kimi eyni həyəcanla qəbul etmirik. Bunun səbəbi təkcə filmdəki xüsusi dramatizmlə əlaqədar deyil. Səbəblər çoxdur. Bəziləri üçün Müqəddəs Kitabın qəhrəmanları adidir. Onlarda xüsusi cəsurluq və dinamika görünmür. Onlar bizim uşaqlıqdan haqqında eşitdiyimiz adamlar və onların hekayələridir. Bundan əlavə, burada bizim üçün mədəniyyətlə bağlı maneələr var. Milad səhnəciklərində təsvir olunduğu kimi, qədim dövrdəki çobanların və uzun libas geyinən kişilərin həyatı ilə öz həyat tərzimizi uyğunlaşdırmaq bizim üçün çox çətindir.

Amma mənə elə gəlir ki, fantastika və ya fövqəltəbii fantaziyanın bizim təsəvvürümüzü daha asanlıqla əsir etməsinin böyük səbəbi Müqəddəs Kitabdakı ruhani aləmin bizə necə öyrədilməsidir. İllərlə imanlı cəmiyyətlərində eşitdiklərim təkcə onların əsas məğzini tuta bilməməklə yox, eləcə də fövqəltəbii aləmi çox maraqsız etməsi ilə nəticələnib. Ən pis olanı isə budur ki, gözəgörünməz, fövqəltəbii aləm gücsüz və zəif tərzdə qələmə verilir.

Məsihçilərin gözəgörünməz aləm barədə təsəvvürləri reallıqdan qat-qat uzaqdır. Məsələn, mələklərin qanadları yoxdur. (Keruvlar heç vaxt mələk adlandırılmayıb, ona görə mələk sayılmır. Onlar yaradılmış varlıqdır. Mələklər isə həmişə insan cildindədir). Cinlərin buynuzları və quyruğu yoxdur. Həm də onların varlığının səbəbi yalnız bizi günaha salmaqdan ibarət deyil (biz onlarsız da günah edə bilərik). Müqəddəs Kitab cinə tutulmanın dəhşətli olduğunu təsvir edir. Hiyləgər şər qüvvələrin isə insanları əldə oyuncaq kimi istifadə etməkdən daha pis niyyətləri var. Bundan əlavə, mələklər və cinlər əsas rolları oynayan oyunçular deyil. Lakin təəssüf ki,

imanlı cəmiyyəti «əsas oyunçulardan», onların niyyətlərindən və məqsədlərindən tam agah deyil.

## Allahlar Həqiqətən Var

Mən birinci fəsildə sizə sual verdim ki, Müqəddəs Kitabın dediklərinə *həqiqətən* inanırsınızmı? Gəlin cavabınızı yoxlayaq.

Müqəddəs Kitabda deyilir ki, Allahın qərarlarını həyata keçirən ilahi qüvvələrdən ibarət xüsusi təyinatlı dəstəsi var. Bu, Allahın «müqəddəslər camaatı», «müqəddəslər məclisi» və ya «məhkəmə iclası» kimi qeyd olunur (Zəbur 89:5–7, Daniel 7:10). Bu barədə ən aydın qeyd olunan hissə Zəbur 82:1-ci ayədir: «Allah Öz toplantısında durub, hökmünü verərək allahlar arasında deyir».

Bu, heyranedici ayədir! Mən birinci dəfə buna diqqət yetirəndə, o, mənə çox təsir etdi. Ayənin mənası sadə və aydın şəkildə verilir. Əlbəttə, Müqəddəs Kitabın başqa ayələrində olduğu kimi, Zəbur 82:1-ci ayədə də *allahlar* haqqında nə deyildiyini başa düşmək üçün həmin kontekstə nəzər salmaq lazımdır. Eləcə də Kəlamda «allahlar» termininə necə tərif verildiyini dərk etmək vacibdir.

Əslində «allahlar» kimi tərcümə olunmuş ibrani sözü *elohim*dir. Bizim çoxumuz *elohim* sözünü yalnız bir mənada — Ata Allahın adlarından biri kimi düşünmüşük. Onu daha geniş mənada düşünmək bizim üçün çətindir. Amma bu söz gözəgörünməz ruhani aləmin *istənilən* sakininə aiddir. Ona görə də həmin söz Allahın Özünü (Yaradılış 1:1), cinləri (Qanunun Təkrarı 32:17) və ölən adamı təsvir etmək üçün (1 Şamuel 28:13) istifadə olunur. Müqəddəs Kitaba əsasən yaşadığı məkan ruhani aləm olan istənilən bədənsiz varlıqlar *elohimdir*, yəni allahlardır.

İbrani sözü yalnız Allaha məxsus olan xüsusi qabiliyyətlər toplusuna aid deyil. Müqəddəs Kitab Allahı o biri allahlardan *elohim* sözündən istifadə etməklə deyil, başqa üsullarla fərqləndirir. Məsələn, Müqəddəs Kitabda ilahi varlıqlara əmr edilir ki, Rəbbə ibadət etsinlər (Zəbur 29:1). O, onların Yaradanı və Padşahıdır

(Zəbur 95:3, 148:1–5). Zəbur 89:6–7-ci ayələrdə deyilir: «Göydə Rəbbin tayı-bərabəri varmı? İlahi varlıqlar arasında Rəbbin bənzəri varmı? Müqəddəslər məclisində Allah çox zəhmlidir» (1 Padşahlar 8:23, Zəbur 97:9). Müqəddəs Kitabı yazanlar İsrailin Allahının tayı-bərabəri olmadığını aydın şəkildə bildirir — O, «allahların Allahıdır» (Qanunun Təkrarı 10:17, Zəbur 136:2).

«Müqəddəslər məclisində» olan bu varlıqlar gerçəkdir. Birinci fəsildə sizə Kəlamdan sitat gətirdim: Allah Axav padşahın öldürmək qərarını vermək üçün səmavi varlıqlarla görüşür. Həmin fəsildə bu səmavi qrupun üzvləri ruhlar adlanır. Əgər biz ruhani aləmin gerçək olduğuna, orada Allahın və Onun yaratdığı ruhani varlıqların (məsələn, mələklər) yaşadığına inansaq, onda sitat gətirdiyim bu ayələrdə və başqalarında Allahın fövqəltəbii «xüsusi təyinatlı dəstələrinin» gerçəkliyini də etiraf etməliyik. Əks halda, bizim ruhani gerçəklik barədə söhbətlərimiz mənasızdır.

Müqəddəs Kitab bu ilahi toplantının üzvlərini ruhlar adlandırdığı üçün biz belə qənaətə gələ bilərik ki, allahlar — sadəcə daş və ya taxta bütlər deyil. Qədim dövrdə yad allahlara ibadət edən insanlar bütlər düzəldirdilər. Amma onlar yaxşı bilirdilər ki, əlləri ilə düzəltdikləri bütlər ilahi gücə malik deyil. Həmin bütlər sadəcə ruhların istifadə etdiyi obyektlər idi. Ruhlar qurbanları qəbul etmək və davamçılarına bilik vermək üçün həmin bütlərdə məskunlaşırdı. Müxtəlif ayinlərin mənası da məhz bundan ibarət idi: insanlar allahlardan xahiş edirdilər ki, onların yanlarına gəlib bütlərdə yaşasınlar.

## Allahın Toplantısının Quruluşu və İşi

Zəbur 82:1-ci ayədə haqqında danışılan allahlar 6-cı ayədə «Haqq-Taala övladları» adlanır. «Haqq-Taala övladları» ifadəsinə Müqəddəs Kitabda bir neçə dəfə rast gəlinir. Onlar, adətən, Allahın hüzuruna qalxırlar (Əyyub 1:6, 2:1-ci ayələrdə ilahi varlıqlar kimi tərcümə edilib). Əyyub 38:7-ci ayədə deyilir ki, Allah yer

üzünü qurmağa və bəşəriyyəti yaratmağa başlamazdan əvvəl onlar artıq var idi.

Bütün bunlar çox maraqlıdır. Allah bu ruhani varlıqları öz oğulları adlandırır. Siz öz övladlarınıza oğlunuz və ya qızınız kimi müraciət edirsiniz, çünki onların yaranmasında iştirak etmisiniz. Eləcə də Allah varlıqları yaratdığı üçün «ailə» sözündən istifadə edir. Lakin Allah onların təkcə Atası deyil, həm də Padşahıdır. Qədim dövrlərdə padşahlar çox vaxt qohum-əqrəbaları ilə birlikdə hökmranlıq edirdilər. Padşahlıq onların varislərinə ötürülürdü. Hakimiyyət ailəyə məxsus idi. Allah da Öz məclisinin Rəbbidir. Onun oğulları Allahla qohumluğun sayəsində Ondan sonra ən yüksək rütbəyə malikdir. Biz müzakirə etdikcə daha sonra nələrin baş verdiyini görəcəyik. Belə ki, oğullardan bəziləri Allaha itaətsizlik edərək sadiq qalmadılar.

Allahın oğulları da qərar vermək səlahiyyətinə malikdirlər. Biz 1 Padşahlar 22-ci fəsildə və bir çox başqa yerdə görürük ki, Allahın işi birbaşa bəşəriyyətin tarixi ilə bağlıdır. Allah zalım padşah Axavı cəzalandırmağa qərar verəndə, bunun necə baş verəcəyini Öz ilahi toplantısına tapşırdı.

Müqəddəs Kitabda Allahın toplantısının görüşləri barədə təkcə Zəbur 82-də və 1 Padşahlar 22-ci fəsildə yazılmayıb. Allahın toplantısının belə görüşlərində böyük imperiyaların taleyi həll olunurdu.

Daniel peyğəmbərin kitabının 4-cü fəslində Babil padşahı Navuxodonosorun Allah tərəfindən müvəqqəti ruhi xəstəliklə cəzalandırılmasından söz açılır. Bu cəza «Allah-Taalanın hökmü» (Daniel 4:24) və «qoruyucu mələklərin əmri ilə» verilmişdi (Daniel 4:17). «Qoruyucu mələklər» termini Allahın toplantısının üzvləri — ilahi varlıqlar üçün istifadə edilir. Onlar heç vaxt yatmır. Onlar insan işlərinə həmişə nəzarət edir.

Mələklər də Allahın toplantısında iştirak edirlər. Müqəddəs Kitabın orijinal variantında *mələk* termini *elçilər* mənasını verir.

*Mələk* sözü əsasən hansısa tapşırığın yerinə yetirilməsinin təsviridir. Mələklər insanlara xəbər çatdırır. Biz mələklər və onların vəzifələri, eləcə də Allahın göylər ordusunun başqa vəzifələri barədə bir qədər sonra danışacağıq.

## Bu Niyə Vacibdir?

Kitabın bu hissəsinə qədər oxuduqlarınız barədə nə düşünürsünüz? Siz deyə bilərsiniz: «Çox maraqlıdır! Mən bunu Müqəddəs Kitabda əvvəllər heç vaxt görməmişəm. Amma bu məlumatların gündəlik həyatıma və imanlı cəmiyyətimin işinə nə təsiri ola bilər ki?» Cavab budur: «Bu kitabda təqdim olunan həqiqətlər Allahın Kim olduğunu, Onunla necə ünsiyyət qurmağımızı və bizim yer üzündə mövcudluğumuzun məqsədini anlamağa çox böyük təsir edir». Bu fəsildə müzakirə olunan həqiqətlərin praktik tətbiqini göstərmək üçün hər fəsli belə bir bölmə ilə yekunlaşdıracağam.

Bu fəsildə biz Müqəddəs Kitabın Allahın «kosmik idarəçiliyini» necə təsvir etdiyini, həmçinin bu təsvirdən Allah və Onun bizə münasibəti barədə hansı nəticələr çıxardığımızı müzakirə etdik.

Birincisi, Allahın səmavi ailəsinin işi bir nümunədir. O, yerdəki ailəsi ilə bu nümunəyə əsasən ünsiyyət qurur. Biz bunu növbəti fəsildə müzakirə edəcəyik. Amma hələlik sizə bir misal göstərəcəyəm. Ola bilsin ki, siz düşünürsünüz: «Allaha belə bir toplantı nə üçün lazımdır? Hətta ruhani aləmdə belə, nəsə iş görməkdən ötrü Onun köməyə *ehtiyacı* yoxdur. Axı O, Allahdır!» Lakin Müqəddəs Kitab açıq-aydın vurğulayır ki, O, işlərini görmək üçün kiçik rütbəli varlıqlardan istifadə edir.

Onun ilahi toplantıya *ehtiyacı* yoxdur, amma onlardan istifadə etmək istəyir. Onun bizə də ehtiyacı yoxdur. Əgər O istəsə, Müjdəyə ehtiyacı olan bütün insanları ucadan səsləyərək çağıra bilər. O, Özü istənilən insana təkan verə bilər ki, həmin insan Ona tərəf dönsün. O, həm də insanların düşüncələrinə səslə danışmaqla

onları bir-birilərini sevməyə inandıra bilər. Lakin O, bunu etmək istəmir. Əksinə, sənin və mənim kimi adamlardan istifadə edir ki, Onun vacib işlərini həyata keçirək.

İkincisi, Allah hər bir şeyin Öz istədiyi kimi olması üçün hadisələri əvvəlcədən təyin edə bilər. Amma O, bunu etmir. Padşah Axavın hekayəsində Allah iradəsini yerinə yetirməyi Öz səmavi köməkçilərinə həvalə edir. Başqa sözlə, O, onlara imkan verir ki, öz sərbəst seçimlərini etsinlər. Deməli, heç də hər şey əvvəlcədən təyin olunmayıb. Bu, təkcə ruhani aləmdə deyil, eləcə də real həyatda belədir.

Müqəddəs Kitabda gözəgörünməz aləmin müəyyən quruluşu var. Allah Prezidentdir. Onun üçün işləyənlər isə ailəsidir. Onlar hakimiyyəti bölüşürlər. Onlar Allahın şirkətində işlərin idarə olunmasında iştirak edirlər.

Maraqlısı da budur ki, Müqəddəs Kitab bəşəriyyət barədə danışanda eynilə bu cür təsvir verir. Allah başlanğıcdan Eden bağında bəşəriyyəti bir məqsədlə yaratdı: insanlar yer üzünə Onunla birlikdə hökmranlıq etsinlər. Allah Adəm və Həvvaya dedi: «Törəyib çoxalın və yer üzünü bürüyüb ona sahib olun» (Yaradılış 1:28). Adəm və Həvva Allahın övladları idi, yəni Allahın yerdəki ailəsi idi. Allah istəyirdi ki, onlarla birgə yaşasın və bütün dünyanı Edenə çevirməkdə onlar da iştirak etsin.

Bu fikir oxucuların çoxuna yaxşı tanışdır. Lakin çox az adam bilir ki, Adəm və Həvva Eden bağında Allahın ailəsinin yeganə üzvləri deyildilər. Onun ilahi ailəsi də orada idi. Eden Allahın, eləcə də Onun ailəsinin əvvəllər və indi yaşadığı yerdir. Biz cənnət barədə düşünəndə Allah və Onun mələkləri, yəni Onun ilahi ailəsi ilə birgə yaşayacağımız yeri təsəvvür edirik. Əzəldən belə nəzərdə tutulmuşdu və belə də *olacaq*. Təsadüfi deyil ki, Müqəddəs Kitab göylərin — yeni Edenin yerə enməsinin təsviri ilə bitir (Vəhy 21–22).

Biz yer üzündəki mövcudluğumuzun məqsədini başa düşmək üçün Allahın iki ailəsinin — yerdəki ilə göydəki ailəsinin eyni ərazidə yaşadığı dövrə qayıtmalıyıq. Biz Eden bağına qayıtmalıyıq.

ÜÇÜNCÜ FƏSİL

# KEÇMİŞ VƏ GƏLƏCƏK PADŞAHLAR

Biz Allahın ilahi toplantısı — Onun gözəgörünməz ailəsi və «xüsusi təyinatlı dəstəsi» barədə qısaca izahat verdik. Təbii ki, araşdırmalı çox şey var. Xüsusilə İsa və şeytan kimi əsas iştirakçıların hansı rolu oynadığını aydınlaşdırmalıyıq. Amma gözəgörünməz aləmdə baş verənlərə qayıtmazdan öncə, özümüz barədə yeni bir tərzdə düşünməliyik. Allahın ruhani aləmdə Öz ilahi toplantısı ilə hökmranlıq etməsi Onun yer üzündə hökmranlığı üçün bir nümunədir. İlahiyyatçılar bunu Allahın padşahlığı adlandırırlar. Bütün bunlar Yaradılışda, Eden bağında başladı.

## Eden bağı — Allahın İş Yeri

«Eden bağı» deyəndə sizin ilk ağlınıza nə gəlir? Bir çoxu deyir ki, onlar dərhal Adəm və Həvva haqqında düşünürlər. Axı Allah onları ora yerləşdirmişdi (Yaradılış 2:15–25).

Amma Eden həm də *Allahın evi* idi. Yezekel peyğəmbər Edeni «Allahın bağı» kimi təqdim edir (Yezekel 28:13, 31:8–9). Əslində bu, təəccüblü deyil. Maraqlısı budur ki, o, Edeni «Allahın bağçası» adlandırdıqdan dərhal sonra ona «Allahın müqəddəs dağı» deyir (28:14). Bir çox qədim dinlərdə təmtəraqlı bağlar və əlçatmaz dağlar allahların evləri hesab olunurdu. Müqəddəs Kitab Eden üçün hər iki təsvirdən istifadə edir. Eden Allahın evi idi, o cümlədən Onun Öz işlərini idarə etdiyi məkan, baş qərargah və ya mərkəzi idarə idi.

Allah olan yerdə Onun Öz toplantısı da Onunladır.

## Allahın Surətinə Bənzəyənlər

Müqəddəs Kitabda ən vacib ayələrdən birində göstərilir ki, həm Allah, həm də Onun ilahi toplantısı Edendə idi. Yaradılış 1:26-cı ayədə Allah deyir: «Öz *surətimizə* və bənzərimizə görə insanı yaradaq». Allah Öz niyyətini hansısa bir qrupa bildirir. O, kiminlə danışır? O, bu sözləri deməklə Öz toplantısına, səmavi qüvvələrinə müraciət edir. Allah Üçlüyün o biri üzvləri ilə danışmır, çünki Onun (Ata, Oğul və Müqəddəs Ruh) bilmədiyi elə bir şey yoxdur! Burada Allahın müraciət etdiyi qrup Onun qərarından həmin vaxt xəbər tutur.

Bu elanı başa düşmək asandır. Bu, sanki mənim öz dostlarıma: «Gəlin gedək, pitsa yeyək!» deməyimə oxşayır. Mahiyyət etibarilə hər şey aydındır. Lakin burada daha maraqlı bir məqam var ki, onu diqqətdən qaçırmaq olmaz. Allahın müraciət etdiyi qrup Onun qərarının həyata keçməsində iştirak etmir.

İlahi toplantının başqa görüşlərindən fərqli olaraq, Allahın bu qərarının icrasında üzvlər iştirak etmirlər. Növbəti ayədən görürük ki, Allah bəşəriyyətin tək Yaradanıdır (Yaradılış 1:27). Allah insanı kənardan heç bir kömək olmadan yaradıb. Bu, Onun Öz işi idi. Mənim pitsa misalıma baxaq. Əgər mən dəvətdən sonra hamını restorana maşınımla aparsam və hesabı ödəsəm, onda bütün işləri görən mən özüm oluram. İnsanın yaradılması da məhz belə baş verir.

Allah insanı Özü tək yaratdı və bunun da səbəbləri var. Onun toplantısının ilahi varlıqları belə gücə və ya qabiliyyətə malik deyil. Amma burada daha bir qəribəlik var. Yaradılış 1:27-ci ayədə deyilir ki, insanlar *Allahın* surətində yaradıldı (Allah insanları Öz surətində yaratdı). Bəs onda 26-cı ayədəki «Öz surətimizə» qərarında nə baş verdi?

Əslində heç nə baş vermədi. Yaradılış 1:26–27-ci ayələrdə «öz surətimizə» və «Onun (Öz) surətində» ifadələri arasındakı

mübadilə maraqlı məqamı aşkara çıxarır. Allahın «Öz surətimizə və bənzərimizə görə insanı yaradaq» deməsi o anlama gəlir ki, Onda və bu sözləri eşidənlərdə nəsə ortaq bir şey var. Bu ortaq xüsusiyyət hər nədirsə, insanlar da Allah onları yaradan kimi həmin xüsusiyyətə malik olurlar. Biz hansısa mənada təkcə Allaha bənzəmirik, həmçinin Onun toplantısındakı varlıqlara oxşayırıq.

Bu «ortaq» xüsusiyyət mətndə «Allahın surəti» ilə ifadə olunur. Yaradılış 1:26-cı ayənin daha yaxşı tərcüməsi belə ola bilər ki, «Allah insanları Öz surəti kimi yaradıb». İnsan olmaq — Allahın surətinə bənzər *olmaq* deməkdir. Başqa sözlə desək, biz Allahın nümayəndələriyik.

Allahın surəti bizə Onun tərəfindən verilən qabiliyyət, məsələn, şüur deyil. Biz qabiliyyətlərimizi itirə bilərik, amma Allahın surətinə bənzər olmağın statusunu itirə bilmərik. Bu statusu itirmək artıq insan olmamaq anlamına gəlir! Hər bir insan ana bətninə düşəndən ölənədək həmişə insan olaraq qalacaq və Allahın surətinə bənzər olacaq. Məhz buna görə insan həyatı müqəddəsdir.

Biz Allahın təmsilçiləriyik. Bəs Allahı necə təmsil edirik? Biz əvvəlki fəsildə Allahın Öz səlahiyyətini «xüsusi təyinatlı dəstəsində» olan ilahi varlıqlarla bölüşdüyünü gördük. O, eyni işi yer üzündə insanlarla da edir. Allah gözlə görünən və görünməyən hər şeyin üzərində ali Padşahdır. O, hökmranlıq edir. O, həmin səlahiyyəti ruhani aləmdə və yer üzündə Öz ailəsi ilə bölüşür. Allahın dünyanı görmək istədiyi bir şəkildə bərpa etməsi üçün biz Onun planında iştirak etməliyik. Bundan sonra O istəyir ki, biz Onunla həmin dünyadan zövq alaq.

Allah bunu necə edəcəyimizi bizə göstərdi. İsa Məsih Allahın kamil nümayəndəsidir. O, «görünməz Allahın surəti» (Kolosselilərə 1:15) və «Allahın izzətinin əksi» (İbranilərə 1:3) adlanır. Bu səbəbdən də biz İsaya bənzəməliyik (Romalılara 8:29, 2 Korinflilərə 3:18).

## İki Toplantı — Bir Məqsəd

Ümid edirəm ki, siz bu ideyanı başa düşürsünüz. Allahın idarəçiliyi insanlardan ibarətdir. İnsanlar Onun yer üzündə toplantısıdır. Biz Allahın hüzurunda Onun səmavi ailəsi ilə birgə yaşamaq üçün yaradılmışıq. Biz Ondan zövq almaq və əbədi olaraq Ona xidmət etmək üçün yaradılmışıq. Başlanğıcdan bu, həm də yer üzündə olmalı idi. Eden bağı cənnətlə yer üzünün kəsişmə nöqtəsi idi. Allah və Onun toplantısı insanlarla eyni ərazidə yaşayırdı.

Hansı məqsədlə?

Allah Adəm və Həvvaya dedi: «Törəyib çoxalın və yer üzünü bürüyüb ona sahib olun: dənizdəki heyvanlar, göydəki quşlar, yerdə sürünən bütün canlılar üzərində hökmranlıq edin» (Yaradılış 1:28). Bu, Allahın surətinə bənzəyənlər üçün bir tapşırıq idi. Onlar yaradılış üzərində idarəçi-padşahlar kimi Allaha xidmət etməli idilər. İnsanın işi yer üzünü bürümək və Edeni planetin hər tərəfinə yaymaq idi. Başqa sözlə, insan Allahın Padşahlığını yerin bütün ucqar nöqtələrinədək genişləndirməli idi. Bu iş iki nəfər üçün çox böyük idi. Ona görə Allah istəyirdi ki, Adəmlə Həvvanın övladları olsun.

Bildiyimiz kimi, Adəmlə Həvva və onların nəsli bu tapşırığın öhdəsindən gələ bilmədi. Bəşəriyyət günah etdi. Əgər bu, baş verməsəydi, yer üzü tədricən böyük bir Edenə çevrilərdi. Biz də kamil planetdə Allah və Onun ruhani ailəsi ilə birgə yaşayaraq əbədi həyata malik olardıq.

Allah bəşəriyyəti sevdi, ona görə də Adəm və Həvvanı bağışladı. Amma həmin andan etibarən bütün bəşəriyyət Adəm və Həvvanın izi ilə getməyə məcbur oldu. Biz hamımız günah edirik və Allahın müdaxiləsi (Romalılara 6:23) olmadan ölümə layiqik. Biz faniyik, ona görə də günahkarlarıq. Bizə mütləq xilas lazımdır.

Allah istəyir ki, biz Onun toplantısının üzvü olaq və hüzurunda yaşamaq üçün ilahi ailəsinə qoşulaq. Bu həqiqətlər Müqəddəs Kitabın təsdiqlədiyi bəzi məqamları başa düşməkdə bizə kömək edir.

İndi aydın olur ki, Müqəddəs Kitab imanlıları niyə «Allahın övladları» (Yəhya 1:12, 11:52, Qalatiyalılara 3:26, 1 Yəhya 3:1–3) adlandırır. İndi aydın olur ki, imanlılar nə üçün Allahın ailəsinə «övladlığa» götürülür (Qalatiyalılara 4:5–6, Romalılara 8:14–6); nəyə görə imanlılara Allahın və Onun padşahlığının «varisləri» (Qalatiyalılara 4:7, Titə 3:7, Yaqub 2:5) və «ilahi təbiətin şərikləri» (2 Peter 1:4, 1 Yəhya 3:2) deyirlər. İndi aydın olur ki, nə üçün İsa yenidən qayıdandan sonra imanlılara «Allahın cənnətində olan həyat ağacından yeməyə imkan» verəcək (Vəhy 2:7); nəyə görə O, millətlər üzərində səlahiyyəti (Vəhy 2:26–28), hətta Öz taxtını bizimlə bölüşəcəyini vəd edir (Vəhy 3:21). Biz *Edenə qayıdırıq*, beləcə həyatda *irəliləyirik*. *Cənnət yenidən yer üzünə qayıdacaq*.

Bizim əbədiyyətdəki işimiz yeni möhtəşəm Edendə hökmranlıq etmək olacaq. Biz başlanğıcdan bəri Adəm və Həvvaya həvalə olunmuş işləri görməkdən zövq alacağıq. Əbədi həyat gecə-gündüz lirada çalıb-oxumaqdan ibarət deyil. Oradakı həyatımızın məqsədi Allah və dirilmiş İsanın hüzurunda Onun surətinə bənzəyən səmavi və dünyəvi varlıqlarla birgə nöqsansız yaradılışın mükəmməlliyini kəşf etmək, əbədi olaraq bundan zövq almaqdır.

## Bu Nə üçün Vacibdir?

Bəlkə bunlar indi sizə aydın görünmür. Amma bu fəsildə müzakirə etdiklərimizdən həyatı dəyişdirən çoxlu ideyalar əldə etmək olar. Allahın nümayəndələri olduğumuzu, Onun planlarını (hətta bu planlar tamlığı ilə bizə aydın olmasa da) həyata keçirmək üçün yaradıldığımızı dərk edib yaşayanda, bizim hər günə münasibətimiz kökündən dəyişir.

Allahın ilkin planı bütün yer üzünü Edenə çevirmək idi. Allah istəyirdi ki, insanlar Onun hökmranlığını bütün yer üzünə yaymaqda iştirak etsinlər. O, Adəm və Həvvaya dedi ki, övladlar dünyaya gətirib yaradılışın ağası və idarəçisi olsunlar (Yaradılış 1:26–28). Bu əmr günah dünyaya gəldikdən sonra da təsirini itirmədi.

Xatırlayırsınızsa, dəhşətli daşqından sonra da bu əmr təkrarlandı (Yaradılış 8:17, 9:1). Edenin itirilməsinə baxmayaraq, Allah onu yenidən bərpa etmək istəyirdi. Əvvəl-axır Onun hökmranlığı — Onun Padşahlığı bütün səlahiyyəti ilə qayıdacaq. İsa geri qayıdanda Allah yeni göylər və yeni yer yaradacaq (Vəhy 21 və 22-ci fəsillərdə olan göylər Edenə çox oxşayır). O vaxta kimi biz Allahın həqiqətini və İsanın Müjdəsini hər yerə yaymalıyıq. Biz həm də hər yerdə qarşılaşdığımız hər insana Allahı tanıda bilərik. Biz Edeni bərpa etmək üçün Allahın yer üzündəki nümayəndələriyik və İsanın bu planı tamamlayacağı günü ümidlə gözləyirik.

Biz özümüz barədə Allahın nümayəndələri, Onun surətinə bənzəyənlər olduğumuzu düşünəndə, *çıxardığımız qərarların vacib olduğunu* yaxşı başa düşürük. Günahlı həyat yaşamayan məsihçilər Allahın planını Müqəddəs Ruhun köməyi ilə həyata keçirə bilərlər. Biz Allahdakı həyatın yaxşılığını yaymaq və Müjdəyə ehtiyacı olanlara bu həyatdan zövq ala biləcəklərini söyləmək üçün yer üzündəyik. Həyatımızda çoxlu insanlar ilə üzləşirik. Bizimlə olan görüşlərin təəssüratları təkcə onlara deyil, zəncirvari reaksiya kimi onların da qarşılaşdığı insanlara təsir göstərməlidir. Biz ya Allahla həyatı, ya da Allahsız həyatı əks etdiririk. Burada üçüncü variant yoxdur.

Bütün insanların Allahın surətinə bənzər olduğunu dərk etməyimiz bizi insan həyatına müqəddəs yanaşmağa səsləyir. Bu, təkcə ölüm və həyatla əlaqəli mühüm qərarlara aid deyil. Bu fəsildə öyrəndiklərimiz bir-birimizə necə yanaşmağımıza və bir-birimizlə necə rəftar etməyimizə təsir göstərir. Allahın dünyasında irqçiliyə yer yoxdur. Biz Allahın nümayəndələriyik. Bu isə ədalətsizliklə bir araya sığmır. Evdə, işdə və ya hakimiyyətdə səlahiyyətdən sui-istifadə etmək yolverilməzdir. Allah Edendə Öz övladları ilə belə rəftar etməyib. Ona görə də Allahın surətinə bənzər yoldaşlarımızla biz də bu cür davranmamalıyıq.

Sonda vurğulamaq istədiyim budur ki, biz Allahı təmsil etdyimizə görə Onun izzəti naminə etdiyimiz istənilən iş bizim üçün *ruhani*

çağırışdır. Hər tapşırıq dünyamızı Edenə doğru aparmaqda və insanlara xeyir-dua verməkdə ya iştirak edə, ya da etməyə bilər. Allah xidmət edən insanlara müqəddəs və ya xüsusi insanlar kimi baxmır. Allah bizim olduğumuz yerdə Onu necə təmsil etdiyimizə baxır. Biz qaranlığa qarşı duraraq ya Allahın hər bir kəsə vermək istədiyi əbədi həyatı başqaları ilə bölüşürük, ya da tamamilə bu işi görmürük. İnsanlara Müjdəni bölüşmək imkanımız adi görünə bilər. Əsas odur ki, qarşımızda açılan imkandan necə istifadə edirik.

Məsələn, Allahın Edendə olan planı çox gözəl idi. Amma biz hər şeyin necə qurtardığını bilirik. Kamil olan yalnız Allahdır. Ona görə də azadlığın ilahi, amma qeyri-kamil varlıqların əlində olması dəhşətli nəticələr törədə bilər.

DÖRDÜNCÜ FƏSİL

# İLAHİ ALƏMDƏ ÜSYAN

Mən əvvəlki fəsli bu fikirlə bitirdim: qeyri-kamil varlıqların (istər insan, istərsə də ilahi varlıq) azadlığı dəhşətli nəticələr törədə bilər. Elə bir dəhşətli nəticə ki, onu sözlə ifadə etmək belə mümkün deyil. Müqəddəs Kitabın əvvəlki fəsillərində həm insan, həm də fövqəltəbii varlıqların iştirakı ilə baş verən fəlakətlər buna yaxşı misaldır.

Xatırlayırsınızsa, Allah Öz səlahiyyətini həm fövqəltəbii aləmdə ilahi varlıqlarla, həm də yer üzündə insanlarla bölüşmək qərarına gəldi. Məhz bu barədə Allah dedi: «Öz surətimizə və bənzərimizə görə insanı *yaradaq*» (Yaradılış 1:26) və sonra *Öz* surətinə bənzər insanları yaratdı. Ruhani varlıqlar və insanlar Allahın surətinə bənzərdirlər. Allah bizə səlahiyyətindən verdi ki, Onu təmsil edək və Onunla birlikdə hökmranlıq edək.

Bir tərəfdən bu, gözəl qərar idi. Azad iradə Allah kimi olmağın bir hissəsidir. Əgər bizim azad iradəmiz olmasaydı, biz Onun kimi ola bilməzdik. Azad iradə olmadan məhəbbət və özünü qurbanvermə kimi anlayışlar mənasını itirir. Əgər siz «sevmək» üçün proqramlaşdırılsaydınız, onda burada sizin heç bir qərarınız olmazdı. Belə sevgi gerçək deyil. Ssenari üzrə yazılmış sözlər və hərəkətlər saxtadır. Bu barədə düşünərkən orijinal «Ulduz Müharibələri» filminin sonuncu seriyası — «Cedayın qayıdışı» yadıma düşür. Obi-Van Kenobinin ruhu Lyuka deyir ki, onun atası Dart Veyder — «indi insandan daha çox maşındır». Amma sonda biz görürük ki, bu, doğru deyil. Veyder Lyuku öz həyatı bahasına

imperatordan xilas edir. O, sadəcə proqramlaşmış maşın deyildi. Onun qərarı ürəkdən, insanlığından, azad iradəsindən irəli gəldi.

Amma Allahın iradəsinin qaranlıq tərəfi var. Zəkalı varlıqlar azadlığa malikdirsə, deməli, onlar səhv seçim və ya bilərəkdən üsyan edə bilər və edəcək. Yeganə həqiqi kamil varlıq Allah olduğu üçün bu, mütləq baş verəcək. Yeganə və tamamilə etibar edilə biləcək varlıq Allah Özüdür. Ona görə də Edendə işlər uğursuzluqla tamamlandı.

## Cənnətdə Problem

Gəlin Edendə hər şeyin necə baş verdiyi barədə düşünək. Adəm və Həvva tək deyildilər. Allah Öz toplantısı ilə birlikdə orada idi. Eden ilahi və insan varlıqlarının qərargahı idi. Orada bütün yer kürəsinə hökmranlıq etmək (Yaradılış 1:26–28) və Eden həyatını planetin qalan yerlərinə yaymaq məsələləri həll olunurdu. Amma toplantının bir üzvü Allahın planları ilə razı deyildi.

Yaradılış kitabının 1-ci fəslində olduğu kimi 3-cü fəslində də bir eyham var: Edendə başqa ilahi varlıqlar da yaşayırdı. 22-ci ayədə Adəm və Həvva günah etdikdən sonra Allah deyir: «Budur, insan xeyirlə şərin nə olduğunu bilərək *bizlərdən biri* kimi oldu». Həmin ifadə bizim Yaradılış 1:26-cı ayədə («surətimizə və bənzərimizə») gördüyümüz ifadəyə çox oxşayır.

Biz bilirik ki, Yaradılış 3-cü fəslin əsas qəhrəmanı — ilan əslində ilan deyil. O, heyvan deyildi. Onu zooparkda şüşənin arxasına qoymaq fayda verməzdi və o, bundan məmnun qalmazdı. O, ilahi varlıq idi. Vəhy 12:9-cu ayə onu iblis və şeytan kimi təsvir edir.

Bəzi məsihçilər belə düşünürlər ki, Vəhy 12:7–12-ci ayəyə əsasən yaradılışdan dərhal sonra mələklərin üsyanı baş verdi:

> Göydə döyüş oldu. Mikael və onun mələkləri əjdaha ilə döyüşdü. Əjdaha və onun mələkləri də onlarla döyüşdü, amma gücləri çatmadı. Göydə artıq onlara yer qalmadı. O

> böyük əjdaha — iblis və Şeytan deyilən, bütün dünyanı aldadan qədim ilan yer üzünə atıldı. Mələkləri də onunla birgə yerə atıldı.
>
> *Vəhy 12:7–12*

Amma orada təsvir olunan göydəki döyüş Məsihin doğulması ilə əlaqəlidir.

> «Əjdaha doğmağa hazırlaşan qadının önündə dayandı ki, qadın doğan kimi onun uşağını udsun. Qadın bir oğlan uşağı doğdu ki, "dəmir əsa ilə bütün millətlərə ağalıq edəcək". Bu uşaq Allahın və Onun taxtının yanına qapılıb götürüldü...
>
> Mən göydə uca bir səsin belə dediyini eşitdim:
>
> "İndi Allahımızın xilası, gücü, Padşahlığı və Onun
> Məsihinin hakimiyyəti həyata keçdi.
> Çünki bacı-qardaşlarımızı Allahımızın önündə gecə-
> gündüz təqsirləndirən ittihamçı kənara atıldı"».
>
> *Yaradılış 12:4–5,10*

Müqəddəs Kitabda heç yerdə yazılmır ki, Edendə baş verən hadisələrdən əvvəl Allahın surətinə bənzər hansısa bir varlıq (istər insan, istərsə də ilahi varlıq olsun) Allahın iradəsinə qarşı çıxıb və ya üsyan edib. Amma Yaradılış 3-cü fəsildə hadisələr kəskin surətdə dəyişir.

İlanın cinayəti bu idi ki, o, bilərəkdən Allahın səlahiyyətini rədd etdi. Allah Adəm və Həvvanı Onun ailə işinə qoşulmağa təyin etmişdi. Onlar Edeni yer kürəsinin dörd bir tərəfinə yayacaqdılar. Amma düşmən onların orada olmasını istəmirdi. O, özünü Allahın yerinə qoyub ürəyində dedi: «Göylərə qalxacağam, taxtımı Allahın ulduzları üzərində ucaldacağam, şimaldakı yüksək yerdə, toplantı dağında oturacağam» (Yeşaya 14:13).

Amma onun bu hərəkəti pis nəticələndi. İlan Adəm və Həvvanı aldadaraq günaha batırdığı üçün Allahın evindən qovuldu (Yezekel 28:14–16) və Müqəddəs Kitabın dili ilə desək, «yıxıldı və ya göydən yerə düşdü» (Yeşaya 14:12). O, həyatın əbədi olmadığı, ölümün hökmranlıq etdiyi yerə — yer üzünə sürgün olundu. Həyatın ağası olmaq əvəzinə ölümün ağası oldu. Edendə baş verənlərə görə yer üzündə əbədi həyat itdi. Beləliklə, böyük düşmən bütün bəşəriyyətin ağasına çevrildi. İndi bəşəriyyət Allahla yeni Edendə əbədi həyata malik olmaq üçün satın alınmalıdır.

Günahın nəticəsi dünyaya çoxlu lənət gətirdi. İlanın lənətlənməsi, həm də gələcək barədə peyğəmbərlik idi. Allah Həvvanın övladı ilə ilanın övladı arasında qarşıdurma olacağını söylədi: «Rəbb Allah ilana dedi: ... "Mən səninlə qadın arasına, sənin balanla onun övladı arasına düşmənçilik salıram"» (Yaradılış 3:14–15). Həvvanın övladı kimdir? Bəşəriyyət. İlanın övladı kimdir? Bu cavab çox mücərrəddir. Həvari Yəhya bu cavab üçün bizə nümunələr verir. Məsələn, İsaya nifrət edən yəhudi rəhbərlər. İsa onlara dedi: «Siz atanız iblisdənsiniz» (Yəhya 8:44). İsa Ona xəyanət edən Yəhudanı iblis adlandırdı (Yəhya 6:70). İlanın övladı özü kimi Allahın planına qarşı dayanan hər kəsdir.

## Pis Toxum

Çox keçmədən münaqişələr yarandı. Adəm və Həvvanın övladlarından biri qatil oldu. Qabil «şərdən olduğunu» göstərərək Habili öldürdü (1 Yəhya 3:12). Müqəddəs Kitabın hekayəsinə əsasən insanlar dünyada artdıqca şər də artmağa başladı (Yaradılış 6:5).

Sonra daha bir günah ortaya çıxdı. Bu mövzu bazar günü toplantılarında çox müzakirə olunmasa da, onun yer üzündə şərin artmasında böyük rolu var. Bu dəfə üsyan edənlər çox idi. Bəşəriyyətə yoluxucu xəstəlik kimi yayılan şər Yaradılış 6:1–4-cü ayələrdəki hekayə ilə izah olunur. Burada nəql edilir ki, Allah oğulları yer üzündə insan qızları ilə yaxınlıq etdilər və

onların övladları oldu. Bu övladlar nəhənglər idi və nefilimlər kimi tanınmışdılar.

Müqəddəs Kitabda bizə nə baş verdiyi barədə ətraflı məlumat verilmir. Amma bu qəribə hekayənin təfərrüatlarına Müqəddəs Kitabın bəzi ayələrində və yəhudi əlyazmalarında rast gəlinir. Bundan başqa, Əhdi-Cədidin müəllifləri bu barədə yaxşı bilirdilər və öz yazılarında həmin hekayədən sitat gətirirdilər.

Məsələn, Peter və Yəhuda öz məktublarında daşqından əvvəl günah edən mələklər barədə yazırlar (2 Peter 2:4–6, Yəhuda 5–6). Onların qeyd etdikləri bəzi faktlar Müqəddəs Kitabdan kənar yəhudi mənbələrindən qaynaqlanır. Peter və Yəhuda yazırlar ki, bu günahı törədən Allahın oğulları yerin altında həbs olunublar. Başqa sözlə, onlar son günədək cəhənnəmdə qalacaqlar. Onlar Allahın məhkəməsində mühakimə olunacaqlar. Müqəddəs Kitab bu günü «Rəbbin Günü» adlandırır.

Peter və Yəhudanın istifadə etdiyi mənbələr Müqəddəs Kitab alimlərinin yaxşı tanıdıqları mənbələrdir. Onlardan biri Xanokun birinci kitabı adlanır. Bu, müqəddəs və ya Allahdan ilhamlanmış kitab hesab olunmasa da, İsanın dövründə yaşayan yəhudilər və ilk məsihçilər arasında yaxşı tanınırdı. Görünür, Peter və Yəhuda həmin kitablardakı bəzi məlumatları yazdıqları məktublara daxil ediblər.

Bu mənbələrdən birinə əsasən deyilir ki, Allahın oğulları bəşəriyyətə ilahi bilik verməklə «kömək etmək» istəyirdilər, amma sonra yoldan azdılar. Başqa bir mənbəyə əsasən bildirilir ki, onlar öz surətlərinə bənzərlər yaratmaqla Allahı təqlid etmək istəyirdilər. Bu mənbələrdə həm də cinlərin haradan gəldiyi izah olunur. Cinlər daşqından əvvəl və daşqın zamanı məhv olmuş ölü nefilimlərdən çıxan ruhlardır. Onlar insanları incitmək və yenidən daxil olmaq üçün bədən axtarışında yer üzündə gəzib dolaşırlar. Yaradılış 6:1–4-cü ayələrdə nefilimlərin nəsli sonrakı kitablarda anaqlı və rafalı adlanır (Saylar 13:32–33, Qanunun Təkrarı 2:10–11). Bu rafalıların bəzilərinin yerin altındakı ölülər diyarında, ilanın atıldığı

yerdə olduğu qeyd edilir (Yeşaya 14:9–11). Əhdi-Cədidi yazanlar sonralar bu yeri cəhənnəm adlandırmışdılar.

Bu fikirlər bizə göstərir ki, qədim yəhudi yazıçıları Yaradılış 6:1–4-cü ayələrdə qeyd olunan təhlükədən agah idilər. Allah oğulları ilahi və insan varlıqlarının birlikdə mövcud olduğu Edeni öz istədikləri tərzdə yenidən yaratmağa çalışırdılar. Onlar güman edirdilər ki, ilk düşmən kimi yer üzündə nə etmək lazım olduğunu Allahdan daha yaxşı bilirlər. Allahın yer üzündə hökmranlığını bərpa etmək planını dəyişmək vəziyyəti daha da pisləşdirdi.

Yaradılış 6:1–4-cü ayələrdəki epizod təkcə ilanın törəməsi olmağın dəhşətli nümunəsi deyil. Bu, Allaha qarşı açıq-aşkar üsyan da deyil. Bu, gələcəkdə baş verəcək pis hadisələrin başlanğıcı idi. Musa və Yeşuanın dövründə Vəd olunmuş torpağı ələ keçirməyə çalışarkən onların qarşılaşdığı əleyhdarlar nəhənglərin səpələnmiş qəbilələri idi (Qanunun Təkrarı 2–3). Bu nəhənglərin müxtəlif adları var idi. Onlar Saylar 13:32–33-cü ayələrdə anaqlı adlanır. Burada xüsusilə qeyd olunur ki, nefilimlərin sağ qalan nəsli — Yaradılış 6:1–4-cü ayələrdəki Allah oğullarının nəslidir. Əhdi-Ətiqdə deyilir ki, israillilər Davudun dövrünədək bu nəhəng düşmənlərlə vuruşublar. Davud özü Qolyatı öldürdü (1 Şamuel 17). Davudun döyüşçüləri isə Qolyatın qardaşlarını öldürdülər və bununla da onların İsrail üçün olan təhlükəsinə son qoydular (2 Şamuel 21:15–22).

## Bu Nə Üçün Vacibdir?

İlanın üzərində olan peyğəmbərlik lənəti və ondan sonra gələn Allah oğullarının əməlləri qaranlıq qüvvələrin Allah və Onun xalqına qarşı apardığı uzunmüddətli müharibənin erkən mərhələsi idi. İlahiyyatçılar xeyirlə şər arasında baş verən bu döyüşü ruhani döyüş adlandırırdılar. Bu, gözə görünən və gözə görünməyən iki dünyanın döyüş meydanlarında gedən müharibədir.

Bu hekayələr nə qədər qəribə görünsə də, onlar bizə vacib dərs öyrədir: insan taleyi ilə əlaqəli məsələlərdə başlanğıcdan ilahi varlıqlar Allaha qarşı dururdular. Bu qarşıdurma indi də var. Allahın yer üzü və insan üçün olan iradəsinə həm ruhani, həm də bəşəri aləmdə düşmən münasibət davam edir. Amma Allahın göy və yeri yenidən necə birləşdirmək barədə Öz planı var. Düşmənin qarşıdurması cəzasız qalmayacaq. Bəşəriyyət olduqca dəyərlidir. Allahın insan ailəsi üçün planı dəyişməyəcək və ya ləğv olunmayacaq.

Kəlamın bu hissəsi həm də müsbət dərslər öyrədir. Allaha qarşı uzunmüddətli döyüş Onun insan və ilahi varlıqları yaratmaq qərarından irəli gəlsə də (Onun kimi azad seçimə malik olan varlıqları), şərin *səbəbkarı* Allah deyil.

Müqəddəs Kitabda heç bir yerdə deyilmir ki, Allah Öz surətinə bənzər yaratdıqlarını itaətsizliyə sürükləyir və ya onların itaətsizliyi əvvəlcədən müəyyən olunub. Allahın gələcəyi bilməsi o demək deyil ki, hər şey əvvəlcədən təyin olunub. Biz bunu 1 Şamuel 23:1–14 kimi ayələrdən dəqiq bilirik. Burada Davudun Qeila adlı şəhəri filiştlilərdən xilas etməsindən danışılır. Davudun filiştlilərlə döyüşündən sonra Şaul eşidir ki, Davud şəhərdədir. Şaul çoxdan Davudu öldürmək istəyirdi, çünki padşahlığı onun əlindən alacağından qorxurdu. Şaul Davudu tutmağa ümid edərək ordusunu Qeilaya göndərdi. Davud Şaulun planı barədə eşidəndə Allahdan soruşdu:

> «Qeila sakinləri məni ona təslim edəcəklərmi? Ey İsrailin Allahı Rəbb, yalvarıram, bunu quluna agah et. Şaul da Sənin qulun eşitdiyi kimi bura enəcəkmi?»
>
> Rəbb «o enəcək» dedi... Rəbb «təslim edəcəklər» dedi.
>
> *1 Şamuel 23:11–12*

Bəs Davud nə etdi? Davud hər birimizin belə vəziyyətdə edəcəyi işi gördü: o, cəld şəhərdən çıxdı. *Bu, bizə bildirir ki, Allahın hadisələri əvvəlcədən bilməsi onların öncədən təyin*

*olunması demək deyil*. 1 Şamuel 23-cü fəsildə baş verənlər Allahın əvvəlcədən bildiyi, amma heç vaxt həyata keçməyən hadisədir. Allahın ilahi qüvvələrin üsyan edəcəyini və insanın günaha düşəcəyini əvvəlcədən bilməsi o demək deyil ki, O, bu şeylərin baş verməsinə *səbəb olub*. Əvvəlcədən bilmək öncədən təyin etmək deyil.

Biz insanın günaha batması ilə əlaqədar hadisələrə bu nöqteyi-nəzərdən yanaşmalıyıq. Allah Adəm və Həvvanın günah edəcəyini bilirdi. O, buna təəccüblənmədi. O, bütün hadisələr barədə hər şeyi bilir. Amma O, həm insanın günahına, həm də bəşəriyyəti üsyana yuvarlayan ilahi üsyankara görə şərin və itaətsizliyin dünyaya gələcəyini əvvəlcədən bilirdi. Amma bu, o demək deyil ki, O, buna səbəb olub.

Biz həyatımızda qarşılaşdığımız şərə də eyni gözlə baxa bilərik. Allah günahın dünyaya girəcəyini əvvəlcədən görmüşdü və onu aradan qaldırmaq üçün artıq planı hazır idi. O, həm də bilirdi ki, biz günahkar kimi doğulacağıq və günah edəcəyik (gəlin səmimi olaq, dəfələrlə günah edəcəyik). Amma O, həmin uğursuzluqları və günahları əvvəlcədən təyin etməmişdi. Biz günah edəndə buna görə məsuliyyət daşıdığımızı dərk etməliyik. Biz günahı seçdiyimiz üçün ona yol veririk. Biz bunun Allahın iradəsi və ya tale tərəfindən müəyyən olunduğu üçün başqa seçimimiz olmadığını deyərək özümüzə haqq qazandıra bilmərik.

Lakin Allah bizi elə sevdi ki, «biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü» (Romalılara 5:6–8). O, bizim nə edəcəyimizi bilsə də, bizi sevdi. Allah təkcə günah etməkdə bizə azadlıq vermədi, eyni zamanda Müjdəyə inanmaq və İsaya görə yaşamaq seçimi verdi.

Allah bilir, biz isə həyat təcrübəmizdən görmüşük ki, pis hadisələr insanların, hətta məsihçilərin də başına gəlir. Şər dünyada hökmranlıq edir, çünki insanların (və ilahi varlıqların) pislik etməkdə azadlıqları var. Bizim Allahımız böyük planını həyata keçirtsin deyə pis şeyləri əvvəlcədən təyin edən, dəhşətli cinayətlərə və günahlara

ehtiyacı olan qəddar ilahi varlıq deyil. Allahın şərə ehtiyacı yoxdur, vəssalam! Pisliklərə baxmayaraq, Onun planları yerinə yetəcək. Allah şərə qalib gələcək və sonda onu mühakimə edəcək.

Onda belə bir sual yaranır: «Bəs Allah şəri niyə məhv etmir?» Bunun səbəbi var: Allahın şəri məhv etməsi üçün gərək O, kamil olmayan, surətinə bənzər bütün insan və ilahi varlıqları məhv etsin. Pisliyin məhv olunması məsələni həll edə bilərdi. Amma o halda Allahın ilkin planı olan ilahi varlıqları və insanları Onunla birgə yaşaması və hökmranlıq etməsi üçün yaratması böyük səhv sayılardı. Bildiyimiz kimi, Allah səhv etmir.

Biz düşünə bilərik ki, kaş Allah insanlara heç vaxt azadlıq verməyəydi. Bəs onda biz harada olardıq? Bizə azadlıq verməklə Allah bizi ağılsız qul və ya robot olaraq yaratmadı. Azad iradəyə malik olmaq bir seçimdir. Lakin azadlıq bizim Allahla bölüşdüyümüz xüsusiyyət olduğu üçün o olmadan biz Allahın surətinə bənzər ola bilməzdik. Allah robot deyil. O, bizi Özünə oxşar yaradıb. Bu, bir səhv deyildi. Allah bəşəriyyəti o qədər sevdi ki, başqa qərar çıxardı. Ona görə də şər dünyaya girən kimi O, bəşəriyyəti xilas etmək, Edeni yeniləşdirmək və bütün göz yaşlarını silmək üçün yol hazırladı (Vəhy 7:17, 21:4).

Biz sizinlə Allaha qarşı yönələn uzunmüddətli döyüşü araşdırırıq. Allahın Öz döyüş strategiyası var. Amma O, birinci addımı atmazdan qabaq hər şey daha da pisləşəcək.

BEŞİNCİ FƏSİL

# KOSMİK COĞRAFİYA

Müzakirə etdiyimiz ilahi varlıqların bütün qanunsuzluqlarında oxşarlıqlar var. Bütün bu qanunsuzluqlar fövqəltəbii üsyanlar idi. Onların məqsədi Allahın bəşəriyyət üçün planına və yer üzündə hökmranlığının bərpasına mane olmaq idi. Bu fəsildə biz daha bir üsyana nəzər salacağıq. Bu üsyanın təşəbbüskarı insanlar idi.

Bu üsyan hamımıza aid olan xoşagəlməz vəziyyət yaratdı. Əlbəttə, burada fövqəltəbii varlıqlar iştirak edirdilər. Allahın bərpa strategiyası üçün böyük mübarizə elə pisləşdi ki, yalnız İsanın qayıdışı buna son qoyacaq.

## Babil qülləsi

Babil qülləsinin hekayəsi Müqəddəs Kitabda ən çox tanınmış və eyni zamanda ən çətin başa düşülən bir hekayədir (Yaradılış 11:1–9). Bazar günlərində uşaqlara keçirilən Müqəddəs Kitab dərslərində, adətən, Allahın yer üzündə insan dillərini necə qarışdırdığından danışırlar.

Daşqından sonra Allah bir vaxtlar Adəm və Həvvaya verdiyi «çoxalıb yer üzünü bürümək» əmrini yenidən təkrar etdi. O, bəşəriyyət vasitəsilə hökmranlığını yaymaq istəyirdi. Bu, yenə mümkün olmadı. İnsanlar əmri rədd etdilər. Ürəklərində itaətsizlik olduğu üçün onlara elə gəlirdi ki, nə etmək lazım olduğunu daha yaxşı bilirlər. Onlar yer üzünə *yayılmamaq üçün* qüllə tikmək qərarına gəldilər (Yaradılış 11:4). Bizim

üçün bu məntiq qəribə səslənir. Düzdür, möhtəşəm qüllə onları məşhurlaşdıracaqdı (Yaradılış 11:4). Bəs bütün yer üzünə yayılmağın qarşısını necə alacaqdı?

Cavab qüllədədir. Müqəddəs Kitab alimlərinə və arxeoloqlara məlum idi ki, qədim Babildə və ətraf şəhərlərdə zikkurat adlanan qüllələr tikirdilər. Zikkurat insanların allahlarla görüşə biləcəyi yer idi. *Onlar məbəd ərazilərinin bir hissəsi idi*. Bütün dünyanı Edenə çevirməkdənsə, Allahın hökmranlığını və biliyini yaymaqdansa insanlar Allahı kiçik bir yerə gətirmək istəyirdilər.

Bu, Allahın planı deyildi. Ona görə O, bundan narazı idi. Elə bu səbəbdən O, Öz toplantısının üzvlərinə dedi: «Gəlin aşağı enib orada onların dilini qarışdıraq ki, bir-birlərinin dilini başa düşməsinlər» (Yaradılış 11:7). Allah belə də etdi, bəşəriyyət bir-birindən ayrıldı və ətrafa yayıldı. Bu hadisə Yaradılış 10-cu fəsildə sadalanmış xalqların necə yarandığını izah edir.

Bu hekayəni məsihçilərin çoxu bilir. İndi isə onların bilmədiyi bir məqama nəzər salaq.

## Allahlar və Onların Xalqları

Yaradılış 11-ci fəsil Babil qülləsində baş verənləri təsvir edən yeganə hissə deyil. Qanunun Təkrarı 32:8–9-cu ayələrdə bu hadisə belə təsvir edilir:

> Haqq-Taala millətlərə torpağı bölərkən, bəşər övladlarını ayırarkən İsrail övladlarının sayına görə xalqlara sərhəd qoydu. Çünki Rəbbin payı Öz xalqıdır! Yaqub Onun payına düşən irsidir.
>
> *Qanunun Təkrarı 32:8–9*

Bəzi Müqəddəs Kitab tərcümələrində birinci cümlədə «İsrail oğulları», bəzilərində «Allah oğulları» yazılıb. *Amma Babil qülləsinin dövründə hələ İsrail mövcud deyildi*. Allah İbrahimi

Babildən sonra çağırdı (Yaradılış 12). Buna görə də «İsrail oğulları» ifadəsi düzgün tərcümə ola bilməz. «Allah Oğulları» ifadəsi Müqəddəs Kitabın ən qədim əlyazmalarından olan Ölü dənizin əlyazmalarında tapılan termindir.

Bu ifadə çox vacibdir. Allah xalqlarını ayıranda *onları Allahın oğulları arasında bölmüşdü.* Allah xalqları Öz ilahi toplantısının üzvlərinə tapşırdı. Müqəddəs Kitaba görə, digər xalqların başqa allahlara ibadət etməsinin səbəbi də elə budur. Babilə qədər Allah bəşəriyyətlə ünsiyyət qurmaq istəyirdi. Babildəki üsyan bunu dəyişdi. Allah qərara gəldi ki, başqa xalqlar üzərində hökmranlığı ilahi toplantısının üzvlərinə həvalə etsin.

Allah bəşəriyyəti mühakimə etdi. Hətta daşqından sonra insanlar Allahın Edendə başladığı padşahlıq planını davam etdirmək istəmirdilər. Ona görə də Allah yeni xalq — Öz «irsini» yaratmaq qərarına gəldi. Qanunun Təkrarı 32:9-cu ayədə deyilir ki, bu, İsrail idi. Babil qülləsinin hekayəsindən sonra növbəti fəsildə — Yaradılış 12-ci fəsildə Allah İbrahimi çağırmaqla yeni xalqını yaratmağa başladı.

Tanrının xalqları başqa allahlara həvalə etməsi bütün Əhdi-Ətiq hekayəsini aydınlaşdırır. Nə üçün? Çünki Əhdi-Ətiq İsrailin Allahı və Onun xalqının başqa xalqlar və onların allahları ilə daim münaqişədə olmasından danışır.

Təbii ki, bu, Allahın ilkin planı deyildi. Düzdür, Onun Babildə xalqları ayrı salmağı bir cəza idi. Amma Allah heç vaxt istəmirdi ki, xalqlar əbədi ayrı qalsın. Allah İbrahimlə əhd bağlayanda aydın bildirdi ki, İbrahim və onun nəsli vasitəsilə «yer üzünün bütün tayfaları ... xeyir-dua alacaq» (Yaradılış 12:3). Allah istəyirdi ki, müəyyən olunmuş vaxtda xalqları yenidən Öz ailəsinə qovuşdursun.

Paul bütün bunları bilirdi. O, Afinada bütpərəst filosofçulara vəz edərkən dedi:

> Allah bütün bəşəriyyətin millətlərini bir insandan yaratdı ki, bütün yer üzərində yaşasınlar. Yaşamaq üçün onlara zaman

və məkan təyin etdi ki, Onu axtarsınlar, yəni kor əllərini sürtə-sürtə yol axtardığı kimi axtarıb Onu tapa bilsinlər. Əslində Allah heç birimizdən uzaq deyil.

*Həvarilərin İşləri 17:26–27*

Musa vasitəsilə Allah Öz xalqına xəbərdarlıq etmişdi ki, «səma cisimlərinə» sitayiş etməsinlər (Qanunun Təkrarı 4:19–20). Kəlamın başqa yerlərində bu ifadə «göylər ordusunu» təsvir etmək üçün işlənir (1 Padşahlar 22:19). Həvarilərin İşləri 17:26–27-ci ayələr açıq-aydın bildirir ki, Allahın məqsədi xalqların Onu axtarması idi.

Amma xalqlara hökmranlıq edən allahlar bu plana iki yolla mane oldu.

Biz az əvvəl Zəbur 82:1-ci ayədə gördük ki, Allah Öz toplantısında allahları bir yerə yığdı. Burada məqsəd nə idi? Bu, Zəburun növbəti ayələrində izah olunur. Xalqların allahları həmin xalqlar üzərində ədalətsizcəsinə hökmranlıq edirdi. Onların hökmranlığı Allahın istəyinə və ədalət prinsiplərinə zidd idi. Allah toplantıya başlayan kimi onları ifşa etdi: «Nə vaxtadək nahaq hökm verəcəksiniz, pislərə tərəfkeşlik edəcəksiniz?» (Zəbur 82:2) Allah onları daha iki ayədə ədalətsizlikdə mühakimə edir. Bundan sonra Rəbb qaranlıqda yaşayan xalqların həqiqi Allaha qayıtması üçün allahların kömək etmədiklərini belə təsvir edir: «Nə bilirsiniz, nə də ki anlayırsınız! Yerin təməlləri sarsılır, qaranlıqda dolanırsınız» (Zəbur 82:5).

Təəssüf ki, israillilər həqiqi Allahı axtarmaq əvəzinə «Rəbbin onlara bəxş etmədiyi yad allahlara» sitayiş etməyə başladılar (Qanunun Təkrarı 29:26, eləcə də 32:17-ci ayəyə baxın). Allah bunu görəndə allahlara qarşı sərt şəkildə fikrini bildirir (Zəbur 82:6–7): «Demişəm: “Siz allahlarsınız, hər biriniz Haqq-Taala övladlarısınız. Lakin insan kimi öləcəksiniz, adi bir hökmdar kimi torpağa düşəcəksiniz”».

Allahlar ölməzliklərini itirəcək və insanlar kimi öləcəklər (Zəbur 82:7). Biz Kəlamın başqa yerlərindən bilirik ki, hökm cəzası axirət

günləri ilə əlaqəlidir (Yeşaya 34:1–4). 82-ci Zəburun müəllifi ümid edir ki, bir gün Allah xalqları Öz mirası kimi geri tələb edəcək. Əhdi-Cədiddə gördüyümüz kimi, Onun arzusu yerinə yetir.

## Qanunun Təkrarı 32-ci Fəslin İdeyası

Qanunun Təkrarı 32-ci fəslin ideyasına görə *Müqəddəs Kitabın coğrafiyası kosmikdir*. Torpaq ya müqəddəsdir (yəni Yahveyə həsr olunub), ya da başqa allahın ağalıq etdiyi yerdir. Bu ideya Müqəddəs Kitabda bir çox yerdə özünü göstərir. Məsələn, Əhdi-Ətiqdə Daniel peyğəmbərin kitabında yad xalqların «ölkənin hamisi olan mələk» tərəfindən idarə olunmasından danışılır (Daniel 10:13, 20–21). Başqa bir misal: Davud Şaul padşahdan qaçarkən filiştlilərin ərazisinə getməli oldu. 1 Şamuel 26:19-cu ayədə Davud ağlaya-ağlaya fəryad edir: «"get özgə allahlara qulluq et" deyərək Rəbbin irsindən pay almayım deyə məni qovdular». Davud başqa allahlara sitayiş etmək fikrində deyildi. O, Allahın hər yerdə olması faktını inkar etmirdi. Amma İsrail həqiqi Allaha məxsus olan bir yer, müqəddəs torpaq idi. Davud başqa allahın hökmranlıq etdiyi ərazidə qalmışdı.

Bununla bağlı 2 Padşahlar 5-ci fəsildə sevdiyim bir hekayə var. Naaman Aram ordusunun başçısı idi. O, cüzama yoluxmuşdu. Naaman Elişanın dediyi sözlərə əməl edib İordan çayında yeddi dəfə yuyunduqdan sonra möcüzəli şəkildə sağalır. O, Elişaya deyir: «Bax indi bildim ki, İsraildən başqa, dünyanın heç bir yerində Allah yoxdur» (5:15). Peyğəmbər hədiyyə qəbul etmək istəməyəndə, Naaman xahiş edir ki, iki qatır yükü torpaq götürüb özü ilə aparsın. Torpaq? Torpaq onun nəyinə lazım idi? Çünki həmin torpaq İsrailin Allahına məxsus idi. Bu torpaq müqəddəs idi.

Biz Əhdi-Cədiddə də eyni düşüncə tərzi ilə rastlaşırıq. Bu da təsadüfi deyil. Paul düşmən ilahi varlıqları təsvir etmək üçün müxtəlif terminlərdən istifadə edir (Efeslilərə 1:20–21, 3:10, 6:12,

Kolosselilərə 1:16, 2:15): başçılar, hakimlər, qüvvələr və ağalar. Onları birləşdirən ümumi xüsusiyyət nədir? Onların hamısı coğrafi hökmranlığı təsvir etmək üçün yaxşı tanınmış terminlər idi.

Həvari Paul Korinfdəki imanlı cəmiyyəti haqqında eşitdiyi bəzi problemlərlə əlaqədar onlara iki məktub yazır. Birinci məktubunda o, imanlı cəmiyyətin rəhbərlərinə israrla tövsiyə edir ki, cinsi əxlaqsızlıq günahında yaşayan və tövbə etməyən adamı aralarından qovsunlar (1 Korinflilərə 5:1–13). Maraqlıdır ki, Paul onlara həmin adamı «şeytana təslim etməyi» tapşırır (1 Korinflilərə 5:5). Bu nə deməkdir?

Paulun sözləri yalnız Əhdi-Ətiqin kosmik coğrafiyası nöqteyi-nəzərindən başa düşülür. Əhdi-Ətiqə görə Yahvenin «irsi» İsrail və israillilərə verdiyi torpaq, Kənan torpaqları idi. Onun hüzuru torpağı paklaşdırır, bir sözlə, müqəddəsləşdirirdi. Əvvəlcə Yahvenin hüzuru Hüzur çadırında məskən salmışdı. İsraillilər dincələndə, düşərgə salanda Əhd sandığını mərkəzdə qoyurdular. Beləcə həmin yer müqəddəs sayılırdı. Sonralar İsrail Kənan torpaqlarında yaşayanda Yahvenin hüzuru artıq məbəddə idi. Bu hüzur vəd olunmuş torpağı müqəddəsləşdirərək Yahve və Onun xalqının evinə çevirirdi. İndi Yahvenin hüzuru imanlılarda yaşayır, yəni biz Allahın məbədiyik (1 Korinflilərə 6:19, 2 Korinflilərə 6:16, Romalılara 8:9). Bu isə o deməkdir ki, Məsihin bədəni Allahın yeni xalqı, yeni İsraildir. Paul bunu Qalatiyalılara 3-cü fəsildə aydın şəkildə bildirir:

> İndi isə İbrahimin övladları iman edənlər hesab olunur...
> Siz hamınız Məsih İsaya olan iman vasitəsilə Allahın övladlarısınız. Çünki vəftizdə Məsihlə birləşən hamınız Məsihə bürünmüsünüz. Artıq Yəhudi ilə Yunan, qulla azad, kişi ilə qadın arasında fərq yoxdur. Çünki hamınız Məsih İsada birsiniz. Əgər Məsihə aidsinizsə, deməli, İbrahimin nəslindənsiniz və vədə görə varissiniz.
>
> *Qalatiyalılara 3:7, 26–29*

Bütün imanlılar və onların toplaşdıqları yer müqəddəs olduğu üçün günah oradan uzaqlaşdırılmalıdır. İsraillilərin düşərgəsindən kənarda, başqa allahların hökmranlığında olan xalqların torpaqları qeyri-müqəddəs hesab edildiyinə görə Əhdi-Cədid dövründə və indi də dünya qeyri-müqəddəs torpaq sayılır. Bu səbəbdən də Paul tövbə etməyən imanlını yenidən şeytanın hökmranlıq etdiyi dünyaya qovmağı əmr edir. İmanlı cəmiyyətindən qovulmaq qeyri-müqəddəs torpağa geri qayıtmaq deməkdir. Günahın yeri elə oradır.

## Bu Nə üçün Vacibdir?

Kosmik coğrafiya Allahın Babildəki xalqlara qarşı çıxardığı hökmdən yarandı. İsrailin mübarizəsinə bu tərəfdən yanaşmaq lazımdır. Kosmik coğrafiya, həm də Müjdə üçün səhnə yaradır. İsanın Xoş Xəbəri budur ki, Allahın xalqı artıq təkcə yəhudilər deyil, eləcə də İsaya iman edənlərdir (Qalatiyalılara 3-cü fəsil). Həvarilər dünyaya Müjdəni yaydıqca şeytanın hökmranlıq etdiyi yerlər Allahın ərazisinə çevrilir. Allahın Padşahlığı xalqlar üzərində hökmranlığı geri almaqla yayılır.

Birincisi, biz bilməliyik ki, bu dünya bizim evimiz deyil. Qaranlıq bütün yer üzünü bürüyüb. İmansızlar ruhani qüvvələrin əsiridir. Onlara azad olmaq üçün Müjdə lazımdır. Unutmayın ki, *Müjdə* — bizim silahımızdır. Bizə dünyanın hökmdarlarına və səmadakı ruhani şər qüvvələrə qarşı birbaşa vuruşmaq üçün səlahiyyət verilməyib. Belə bir ruhani ənam yoxdur, həvarilər bizə belə bir ənamdan bəhs etməyiblər. Lakin Müjdəni sadiqliklə yaymaq hadisələrin gedişini dəyişəcək. İsanın bizə verdiyi Böyük Tapşırıq ruhani döyüş planıdır. Biz bu barədə növbəti fəsillərdə öyrənəcəyik.

İkincisi, biz həqiqi imanlılardan ibarət olan hər bir toplantıya müqəddəs yer kimi baxmalıyıq. Allah zahiri görkəmlər, binalar və imanlı cəmiyyətlərinin ölçüsü ilə maraqlanmır. Onu maraqlandıran budur ki, iki və ya üç nəfər harada yığışıbsa, İsa onların arasındadır (Matta 18:20). Həmin yer müqəddəsdir. Hər bir imanlı cəmiyyəti

böyük və ya kiçik olmasından asılı olmayaraq, ruhani döyüşün ön cəbhəsindədir. Bütün imanlı cəmiyyətlərinin bir tapşırığı var. Qaranlıq qüvvələr ona qalib gələ bilməyəcək.

Biz İsanın xidmətindən danışanda kosmik coğrafiya ideyasına bir daha qayıdacağıq. Hələlik isə biz sizinlə cəbhə xəttini işarə etmişik. Allah dünyanın xalqlarını mühakimə etdi və onlar öz hüquqlarından məhrum oldular. İndi Allah üçün hər şeyi yenidən yaratmaq və Öz «irsini» seçmək, yəni xalq yaratmaq vaxtıdır.

ALTINCI FƏSİL

# KƏLAM, AD VƏ MƏLƏK

Sonuncu fəsildə biz Müqəddəs Kitabın kosmik coğrafiyası haqqında öyrəndik. Babil qülləsində insanın üsyankarlığına cavab olaraq Allah xalqlardan üz döndərdi, onları Öz ilahi toplantısının üzvlərinə, Allah oğullarına həvalə etdi (Qanunun Təkrarı 32:8–9). Allah onların əvəzinə yeni xalq, Öz xalqını yaratmalı idi. Bu xalq Onun yer üzündə Padşahlığını bərpa etmək üçün nümayəndələr olacaqdı. Amma başqa allahlar və onların hökmranlığı altında yaşayan xalqlar İsrailin və Allahın azğın düşmənlərinə çevrildiyinə görə bu tapşırıq böyük bir mübarizə oldu.

Allahın yeni xalqı İbram adlı bir kişi ilə başladı. O, sonralar onun adını İbrahim qoydu. Babildə hökm verdikdən dərhal sonra Allah onun yanına gəldi.

## İbrahim Kəlamla Görüşür

Məsihçilərin əksəriyyəti Yaradılış 12-ci fəsildə Allahın İbrahimlə görüşü barədə olan hekayəni bilir. Allah İbrahimə əmr edir ki, öz ata evini tərk edib heç vaxt görmədiyi bir yerə getsin. Allah vəd edir ki, ona yol göstərəcək. O, İbrahimlə əhd bağlayaraq onun Allahı olacağını deyir. O, İbrahim və Saraya hər ikisi qoca yaşlarında olsa belə, oğul verəcəyini vəd edir. Həmin oğuldan isə böyük nəsil — Allahın yer üzündə yeni ailəsi olacaq xalq törənəcək. Onlar vasitəsilə bütün xalqlar xeyir-dua alacaq.

Biz İbrahimin Allahla görüşünü necə təsəvvür edirik? Yəqin ki, biz bunun göydən gələn və ya İbrahimin ürəyinə gələn səs

olduğunu düşünürük. Ya da Allah ona yuxuda görünmüşdü. Əslində Müqəddəs Kitabda aydın deyilir ki, Allah peyğəmbərlər və başqa insanlarla bu tərzdə danışıb. Amma İbrahimlə belə olmayıb. Allah daha dramatik tərzdə bunu etmişdi. O, insan kimi gəlmişdi. O, İbrahimlə üzbəüz söhbət etmişdi.

Biz bu barədə Yaradılış 12:6–7-ci ayələrdə görə bilərik. Müqəddəs Kitabda deyilir ki, Allah İbrahimə göründü. Üç fəsil sonra Allah yenidən ona göründü (Yaradılış 15:1–6). Bu dəfə Allah İbrahimin yanına «Rəbbin Sözü» kimi *görüntüdə* gəldi. Bu, ürəyinə gələn səs deyildi. Çünki «Rəbbin Sözü» İbrahimi bayıra çıxarıb ulduzları göstərdi və onun nəslinin belə saysız-hesabsız olacağını bildirdi (Yaradılış 15:5).

Allah İbrahimə başqa vəziyyətlərdə Özünü insan cildində göstərdi (Yaradılış 18). O, beləcə İbrahimin vəd olunmuş oğlu İshaqa (Yaradılış 26:1–5) və onun oğlu Yaquba göründü (Yaradılış 28:10–22, 31:11–12, 32:24–30).

«Kəlam» və ya Allahın səsi gözlənilməz yerlərdə Allahı insan surətində göstərərək zühur edir. Mənim xoşladığım nümunələrdən biri 1 Şamuel 3-cü fəsildədir. Balaca Şamuel gecə yatmağa hazırlaşarkən onu çağıran səs eşidirdi. Nəhayət, kahin Eli bunun Allah olduğunu bildi, o vaxt Şamuel onun yanında yaşayırdı və onun üçün işləyirdi. 10-cu fəsildə Allah Şamuelin yanına yenə qayıtdı: «Rəbb gəlib orada durdu və əvvəlki kimi "Şamuel! Şamuel!" deyə çağırdı». Biz bilirik ki, bu, insan cildində olan Allah idi. Çünki Kəlamda Onun orada durduğu təsvir olunur. Bundan başqa, fəslin sonunda deyilir ki, «Rəbbin kəlamı» Şamuelə tez-tez görünməyə başladı (1 Şamuel 3:19).

Yeremya peyğəmbərə də «Rəbbin Sözü» insan surətində gəlmişdi. Yeremya peyğəmbərin kitabının 1-ci fəslində yazılır ki, Yeremya peyğəmbər olmağa çağırılanda ona «söz» nazil oldu. Yeremya «Söz»ü Allahın Özü kimi təqdim edir. Rəbb ona *Öz əli ilə* toxundu (Yeremya 1:1–9).

## Allah İnsan Surətində

Allahın Nazaretli İsa kimi gəlməsindən çox-çox əvvəl O, Əhdi-Ətiqdə əsasən insan surətində görünür. Bu barədə düşünəndə, həqiqi mənanı dərk edirik. Allah tamamilə bizdən fərqlidir. Müqəddəs Kitab bildirir ki, heç bir insan Allahı, həqiqi izzətli hüzurunu görüb sağ qala bilməz. Müqəddəs Kitabın qəhrəmanları fiziki olaraq Allahla görüşəndə onlar düşünürdülər ki, ölməlidirlər (Yaradılış 32:30, Qanunun Təkrarı 5:24, Hakimlər 6:22–24). Amma onlar ölmədilər, çünki Allah Öz hüzurunu insan ağlının qəbul edə biləcəyi bir tərzdə, sanki süzgəcdən keçirmişdi. O, bunu od, bulud və daha çox insan surəti ilə göstərmişdi.

Bir çox hallarda Allahın insan surətində Özünü göstərməsi «Rəbbin Mələyi» ilə görüş kimi təsvir olunur. Bu Mələk tanınmış simadır. Məsələn, O, Özünü Musaya yanar kolda göstərir (Çıxış 3:1–3). Allah yanar kolda vəd edir ki, Öz xalqını Misirdən çıxarmaq üçün Musadan istifadə edəcək. Allah Yaquba açıq-aydın Bet-Eldə yuxuda görünür (Yaradılış 28:10–22). Burada Allah Özünü Rəbb (Yahve) kimi təqdim edir. Sonra Allahın Mələyi Yaquba başqa bir yuxuda görünüb dedi ki, O, əvvəl Bet-Eldə onunla görüşən həmin Allahdır (Yaradılış 31:11–12).

Müqəddəs Kitabın tədqiqatçıları bu Mələyi Allahın Özü ilə eyniləşdirməkdə tərəddüd edirlər. Amma Onun Allah olduğunu təsdiq edən bir neçə aydın sübut var. Ola bilsin ki, Allah Musaya Qanunu verəndən dərhal sonra ən mühüm şey baş verir. İsraillilər vəd olunmuş torpağa yollananda Allah Musaya deyir:

> Budur, Mən yolda sizi qorumaq və hazırladığım yerə gətirmək üçün qarşınızda bir Mələk göndərirəm. Onun hüzurunda ehtiyatlı olun və səsinə qulaq asın. Ona qarşı üsyan qaldırmayın, O, itaətsizliyinizi bağışlamaz, çünki Mənim adım onun üzərindədir.

Əgər Onun səsinə qulaq asıb dediyimə əməl etsəniz, onda Mən sizin düşmənlərinizə düşmən, yağılarınıza isə yağı olacağam.

*Çıxış 23:20–22*

Bu, adi mələk deyil. Bu Mələk günahları bağışlaya bilər (və ya bağışlaya bilməz). Bu Mələkdə Allahın adı var. Bu ifadə qəribədir, amma çox əhəmiyyətlidir. Əhdi-Ətiq Allahın Özünü, həqiqi hüzurunu və ya mahiyyətini «ad» kimi göstərir. Məsələn, Yeşaya 30:27–28-ci ayələrdə Rəbbin adı insan adı kimi — Allahın Özü kimi qeyd olunur:

Budur, Rəbbin adı uzaqdan gəlir,
qızğın qeyzlə qara bulud içində ağzı qəzəbli
sözlərlə doludur,
dili sanki hər şeyi məhv edən alovdur.
Onun nəfəsi insan boğazına çatmış daşan sel kimidir,
millətləri ələkdən keçirəcək ki, məhv olsunlar,
xalqların ağzına yüyən taxacaq ki, yolunu azsınlar.

*Yeşaya 30:27–28*

Hətta indi dindar yəhudilər Allaha *ha-shem* («ad») deyə müraciət edirlər.

Bu Mələyin insan surətində Allah olduğunu sübuta yetirmək üçün Çıxış 23:20–22-ci ayələri başqa yerlərlə müqayisə etmək lazımdır. Musa ilə yanar kolda danışan, daxilində Allahın adı olan həmin Mələk israilliləri Misirdən çıxardı və vəd olunmuş torpağa apardı (Hakimlər 2:1–3). Eyni şeyi Rəbb (Yeşua 24:17–18) və Onun hüzuru da etdi (Qanunun Təkrarı 4:37–38). Rəbb, Onun hüzuru və Mələyi eyni surəti, yəni Allahı göstərən müxtəlif vasitələrdir. Amma Mələk insan cildində gəlir.

Bu fikri Müqəddəs Kitabda inandırıcı tərzdə göstərən yerlərdən biri eyni zamanda çox anlaşılmazdır. Çox az adam ona diqqət

yetirir. Bu, ölüm yatağında olan səhnədir. Yaqub ölməzdən qabaq Yusifin uşaqlarına xeyir-dua vermək istəyir. O, öz xeyir-duasında həyatında baş verən hadisələri — Allah ilə olan bəzi görüşləri xatırladır. O, xeyir-duasına bu cür başlayır:

> Atalarım İbrahimin, İshaqın xidmət etdiyi Allah, bu
> günə qədər mənim qayğıma qalan Allah,
> məni bütün pisliklərdən xilas edən Mələk...
> *Yaradılış 48:15–16*

Sonra 16-cı ayədə o, belə dua edir: «*Mələk* qoy bu uşaqlara da xeyir-dua versin». O, «Qoy *onlar* bu uşaqlara xeyir-dua versin» demir. Yəni sanki iki fərqli şəxsdən — Allah və Mələkdən danışmır. Yaqub Mələyin timsalında Allahı nəzərdə tutaraq deyir: «Qoy bu uşaqlara da xeyir-dua versin» (Yaradılış 48:16).

Başa düşülməsi çətin olan daha bir yer Hakimlər kitabı 6-cı fəsildə Gideonun çağırılmasıdır. Rəbb və Rəbbin Mələyi *hər ikisi* eyni səhnədə görünür (Hakimlər 6:22–23). Hətta Əhdi-Ətiqdə Allahın təkcə bir deyil, daha çox simalarda gəldiyi təsvir olunur. Həmin təsvirlərdən biri insan simasında gəlməsidir.

## İsa: Kəlam, Ad və Mələk

İndiyə qədər Allahın təsvirləri barədə müzakirə etdiklərimiz sizə tanış gəlməlidir. Onların hamısı Əhdi-Cədidin İsa haqqında necə danışdığını göstərən variantlardır.

İbrahim Kəlamla, insan surətində Allahla görüşdü. Həvari Yəhya yazır: «Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi» (Yəhya 1:1). 14-cü ayədə Yəhya deyir ki, bu Kəlam «bəşər olub ... aramızda məskən saldı». Birinci əsrin yəhudiləri Yəhyanın Müjdəsini oxuyanda Kəlam kimi zühur edən Allah yadlarına düşür. İsa hətta demişdi ki, İbrahim onun (Yəhya 8:56–58) «gününü görüb» və O, İbrahimdən qabaq var olub.

Musa Rəbbin Mələyi ilə əvvəlcə yanar kolda, sonra isə insan surətində görüşdü. Mələk İsraili Misirdən vəd olunmuş torpağa apardı. Lakin Yəhuda öz qısa məktubunda yazır: «Bütün bunları bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, ilk və son dəfə xalqı Misirdən xilas edən Rəbb (yəni İsa)[1] sonra iman etməyənləri məhv etdi» (Yəhuda 1:5). Həmin Mələk insan surətində olan Allah idi. Mələk Üçlüyün ikinci Şəxsi — sonralar bakirə Məryəmdən doğulacaq Şəxs idi.

Allahın hüzuru, eləcə də Adı bu Mələyi başqalarından fərqləndirir. Bəzi yerlərdə Əhdi-Cədiddə İsa Ata Allah haqqında danışanda Ad sözündən istifadə edir. O, çarmıxa çəkilməzdən bir az əvvəl Getsemani bağında belə dua etdi: «Ey Ata, dünya yaranmazdan əvvəl Mən Sənin yanında olarkən malik olduğum izzəti indi Mənə Öz yanında ver. Dünyadan Mənə verdiyin adamlara Sənin adını aşkar etdim... Sənin adını onlara bildirdim» (Yəhya 17:5–6, 26). O, bununla nə demək istəyirdi? O demirdi ki, insanlara Allahın adının nə olduğunu bildirdi. Yəhudilər onsuz da Allahın Yahve adlandırıldığını bilirdilər. Onların əlində Əhdi-Ətiq var idi. Onlar Allahın adını minlərlə ayələrdə tapa bilərdilər. İsa Allahın adını insanlara bildirdiyini söyləyəndə, *Allahın Özünü* insanlara tanıtdığını nəzərdə tuturdu. O, onların gözləri önündə Allah idi. *O, bəşər olan Ad idi.*

## Bu Nə üçün Vacibdir?

Biz indiyə qədər olan müzakirələrimizdə Müqəddəs Kitaba əsasən ümumi mənzərəni yaratmışıq. Sizin bildiyiniz bütün Müqəddəs Kitab hekayələri gözəgörünməz dünyadakı böyük ruhani münaqişə şəraitində baş verib. Bu, allahların birincilik uğrunda yarışıdır.

---

1 Müqəddəs Kitabın bir çox tərcümələrində «Rəbb» sözü istifadə olunur. Ancaq yunan mətnində, eləcə də ingilis dilinə edilən bir çox müasir tərcümələrdə İsa adı istifadə olunur.

Müqəddəs Kitaba əsasən gözəgörünməz dünyada Allahın ciddi düşmənləri var. Onlar bir vaxtlar Allaha sadiq olan, amma sonra öz istədikləri yolla gedən Tanrının yaratdığı başqa allahlardır. Bu üsyankar allahları Paul gözəgörünməz dünyanın «şər başçıları, hakim olanlar, bu qaranlıq dünyanın hökmranları, səmadakı ruhani şər qüvvələr» kimi təsvir edir (Efeslilərə 6:12, Kolosselilərə 1:16). Onlar hələ də buradadırlar. Əhdi-Cədiddə heç bir yerdə deyilməyib ki, onlar yox olublar. Onlar Allahın Padşahlığına qarşı durmaq üçün yaşayırlar. Onlar Müjdə vasitəsilə Onun sevimli insan ailəsinə əbədi qovuşmasına imkan vermirlər.

Bu qaranlıq qüvvələrdən biri ölülər ağasıdır (yəni, ölülər diyarı — cəhənnəmin ağası, *tərcüməçininn qeydi*). Onun Adəm və Həvvanı aldatması ölməzliyi itirməklə nəticələndiyi üçün bəşəriyyət üzərində qanuni ixtiyarı var. Onun məqsədi Yahvenin xalqını məhv etmək idi. İsraillilər Kənan torpağına girəndə üsyankar Allah oğullarının «törəmələrinin» fikri belə idi: «öldür, yoxsa öldürüləcəksən». Onlar bütün var-qüvvələri ilə çalışırdılar ki, Allahın xalqı torpağa sahib olmasın. İsrail Kənan torpaqlarına daxil olandan sonra qaranlıq qüvvələrin məqsədi eyni qaldı, amma strategiya dəyişdi. İndi onlar Allahın xalqını başqa allahlara ibadət etməklə yoldan çıxarmaq və sonda Yahvenin onları məhv edəcəyinə nail olmaq fikrində idi. Belə də oldu. Allah Öz xalqını sürgünə göndərdi.

Amma qaranlıq qüvvələr başqa bir şeyi də bilirdi: Yahve Öz planından əl çəkməyəcəkdi. Üsyankarın lənətlənməsinə görə bir gün Edendə insanın etdiyi günahın nəticəsini aradan qaldıracaq biri — Həvvanın övladı gələcəkdi. Paulun bizə dediyi kimi onlar Allahın nə planlaşdırdığını dəqiq bilməsələr də, nə vaxtsa Vəd olunmuş Şəxsin gələcəyini bilirdilər (1 Korinflilərə 2:6–8, Efeslilərə 3:10, 6:12). Çünki bu, bilərəkdən Küll-İxtiyarın hamıdan gizli saxladığı bir sirr idi.

YEDDİNCİ FƏSİL

# DÖYÜŞ QAYDALARI

Bizim indiyə qədər olan hekayəmiz budur: Allah Babildə xalqları rədd etdi. Kiçik rütbəli allahlara onlar üzərində hökmranlıq etməyi tapşırdı (Qanunun Təkrarı 32:8–9). Allahın İbrahimlə görüşməsi aydın göstərirdi ki, O, bir gün xalqları İsrailin təsiri sayəsində yenidən Özü ilə barışdırmaq istəyir. Amma başqa xalqların allahları məcbur ediləcək ki, öz səlahiyyətlərini və ibadətlərini təslim etsinlər (Zəbur 82:6–8). Bu, həm gözə görünən, həm də gözə görünməyən aləmlərdə münaqişə demək idi. Ona görə də İsrail yaranan kimi allahların hədəfinə çevrildi.

## Yahve kimdir?

Müqəddəs Kitaba əsasən İsrail çox qısa vaxtda təhlükəli vəziyyətlə üzləşir. Yusifin həyatı İsrailin niyə Misirə getdiyini izah edir (Yaradılış 37–50). Allah Yusifin qardaşlarının pisliyini İsrail xalqının aclıqdan xilas olmasına gətirib çıxardı (Yaradılış 46:3–4, 50:20). Allahın İsrailə Misirdən dərhal çıxmağı söyləməməsi də məqsədli idi. Allah bilirdi ki, Yusifə hörmət edən firon öləcək və yerinə ona düşmən olan başqası gələcək (Çıxış 1). Allaha əvvəlcədən məlum idi ki, Misir israilliləri ağır işlər görməyə məcbur edəcək (Yaradılış 15:13–16). O, həm də bilirdi ki, İsraili öz vaxtında xilas edəcək (Yaradılış 46:4).

Bəs gözləmək nə üçün lazım idi? Allahın əzablara görə həmişə kifayət qədər səbəbi var. Təbii ki, biz bunu həmişə görə bilmirik. Burada Kəlam bizə səbəbi aydınlaşdırır.

Musa Misirdən qaçandan sonra səhrada yaşayarkən Allah onu Misirə göndərmək üçün yanar kolda çağırdı (Çıxış 3:1–14). Onun göstərişləri sadə idi: «Firona de ki, Mənim xalqımı buraxsın» (Çıxış 5:1). Amma firon başqa fikirdə idi. O, Misirin izzət və güc rəmzi olaraq bədəndə allah sayılırdı. Firon imkan verməzdi ki, ibrani çobanlarının gözəgörünməz Allahı ona nə etmək lazım olduğunu desin. O, Musanın Allahının həqiqi olduğuna da şübhə edirdi. Ona görə Musanı ələ salaraq cavab verdi: «Rəbb kimdir ki, Onun səsinə qulaq asıb İsrail övladlarını buraxım?» (Çıxış 5:2).

Tezliklə firon onu çox incidəcək cavab alacaqdı. Allah onun üçün tələ qurmuşdu. Allah Musaya dedi: «Mən onun ürəyini inadkarlaşdıracağam və o, xalqı buraxmayacaq» (Çıxış 4:21). Allah döyüşə başladı. İndi Misirin və onun allahlarının əsrlər boyu İsrail xalqına verdiyi əzablara görə cəzalanmaq vaxtı idi. Fironun ürəyinin daşlaşması da bu cəzanın bir hissəsi idi. Müqəddəs Kitab bildirir ki, bütün cəzalar Misirin allahlarına qarşı yönəlmişdi. Xüsusilə axırıncı cəza — ilk doğulanların ölümü (Çıxış 12:12, Saylar 33:4). Bu cəza fironun ailəsinə birbaşa hücum idi: «Gecəyarısı Rəbb Misir torpağında olan bütün ilk oğulları öldürdü; taxtda oturan fironun ilk oğlundan tutmuş zindanda olan əsirin ilk oğluna qədər hər ilk oğul, heyvanların hər ilk balası da öldü» (Çıxış 12:29).

Firon Allahı ələ saldı. Bununla da hər şey dəyişdi. Paul sonralar belə demişdi: «Aldanmayın: Allaha istehza edilməz. Çünki insan nəyi əkərsə, onu da biçəcək» (Qalatiyalılara 6:7). İsraillilərin Misirdən azad olması və Misirin cəzalanması öz təsirini göstərdi. Uzaq Kənan torpaqlarında yaşayanlar İsrailin Allahının Misir və onun allahlarının başına gətirdiklərini eşitdilər (Yeşua 2:8–10-ci ayələri Çıxış 15:16–18, Yeşua 9:9 müqayisə edin). Musanın midyanlı qayınatası Yetro Musa qayıtdıqdan sonra belə nəticəyə gəldi: «İndi bildim ki, Rəbb bütün allahlardan böyükdür, çünki onların öyündüklərindən də üstün oldu» (Çıxış 18:11).

Təəccüblü deyil ki, Qırmızı Dənizin o tayında Musa fironu və onun suda batmış ordusunu ələ salaraq özünə ritorik bir sual verir: «Ya Rəbb, allahlar arasında Sənin kimisi varmı?» (Çıxış 15:11)

Misirdən çıxıb Qırmızı dənizdən keçdikdən sonra israillilər haraya getdiklərini bilirdilər. Onlar öz Allahları ilə Onun yerdəki evi və qərargahı olan Sina dağında görüşəcəkdilər.

Əslində israillilər Allah haqqında çox şey bilmirdilər. Misirdən çıxanda hələ Müqəddəs Kitab yox idi. İsraillilərin Allah haqqında yeganə bilikləri öz valideynlərindən eşitdikləri, nəsildən-nəslə ötürülmüş hekayələrdən toplanmışdı. İndi biz Müqəddəs Kitabda hekayəni oxuyanda aydın görə bilirik ki, Allah nə etmək istəyirdi. İsraillilər çox şey öyrənməli idilər. Sina dağı onlar üçün sinif otağı idi.

## İsrail — Allahın ailəsi və Yer üzündəki Nümayəndələri

Misirdən çıxmazdan əvvəl Musa fironun qarşısında dayandı və dedi ki, Allahın ona sözü var: «İsrail Mənim oğlum, Mənim ilkimdir... Mənə ibadət etmək üçün oğlumu burax!» (Çıxış 4:22–23) Burada Allahın oğlunun olması ideyası çox vacibdir. Allah belə deməklə İbrahimin bütün nəslini nəzərdə tuturdu. Bu, bizi Allahın Adəmi və Həvvanı yaratdığı vaxta aparır.

Allah insan ailəsi istəyirdi. O istəyirdi ki, yaratdığı insanlarla yer üzərində birlikdə yaşasın. O, ruhani ailəsi ilə insan ailəsinin Onunla birgə yaşamasını və Ona xidmət etməsini istəyirdi. O istəyirdi ki, insanlar artsınlar və bütün yer üzü Edenə çevrilsin. Allah Babil qülləsində bəşəriyyəti tərk edəndən İbrahimi çağırana qədər Onun övladları yox idi. İsrail Allahın yeni ailəsi idi. İlkin plana qayıtmaq vaxtı idi. Adəm və Həvva yer üzündə Allahın surətinə bənzər olduğu üçün indi həmin rolu İsrail oynayacaqdı.

Sina dağına getmək evə qayıtmaq idi. İlahi varlıqların toplantısı da orada idi. Onlar Allahın planının yenindən necə həyata keçməsinə tamaşa edirdilər. Onlar Allah və Onun xalqı arasında qurulan yeni əhdə — Qanun əhdinə şahid idilər.

## Allahın Qanunu — Allahın Toplantısı tərəfindən Çatdırıldı

Allah Sinada On Əmri verəndə, səmavi toplantının orada olduğunu deyəndə, təəccübləndinizmi? Əgər siz Misirdən Çıxış və israillilərin Sinaya gəlişi haqqında filmə baxmısınızsa, yəqin ki, orada mələkləri görməmisiniz. Amma Müqəddəs Kitab deyir ki, mələklər orada idi. Hətta deyilir ki, Allahın qanununu çatdıran onlar idi (Həvarilərin İşləri 7:52–53, İbranilərə 2:1–2).

Burada həm də deyilir ki, Qanun «Allahın Öz barmağı ilə» yazılmışdı (Qanunun Təkrarı 9:9–10). Bu fikir artıq bizə tanışdır: Allah insan surətində idi. Rəbbin Mələyi haqqında Yaradılışda olan hekayələr kimi Allah Sina dağında Özünü insan cildində göstərdi. O və Onun səmavi toplantısı Qanunu Musaya və İsrailə verdi.

Qanunu verəndən sonra Musa, Harun, Harunun oğulları və İsrailin yetmiş ağsaqqalı İsrailin Allahını insan surətində yenidən gördü. Bu dəfə onlar birlikdə süfrə başında görüşdülər (Çıxış 24:9–11). İsanın Son Şam yeməyində Öz qanı ilə yeni Əhdi möhürlədiyi kimi, bu yemək də Allahın Sinada İsraillə yeni əhdini — Qanunu qeyd etmək rəmzi idi.

Allah İsrailə Qanunu verdi ki, onlar müqəddəs olsunlar (Levililər 19:2). O istəyirdi ki, İsrail başqa xalqlardan ayrılsın və hamı İsraili Onun ailəsi kimi tanısın. Allah başqa allahlardan və dünyəvi hər şeydən tamamilə fərqləndiyi üçün Allahın xalqı da başqa xalqlardan seçilməlidir.

Müqəddəslik nə deməkdir? Bunun arxasında hansı məfhum durur? Müqəddəslik qəribə olmaq demək deyildi. Müqəddəslik — Rəbbə uyğunlaşmaq, Allaha həsr olunmaq və həyatda Allahla düzgün münasibətdən yaranan bütün yaxşı şeylərdən zövq almaqdır. Allah istəyirdi ki, İsrail başqa xalqları Onun yanına qaytarsın (Qanunun Təkrarı 4:6–8, 28:9–10). Buna görə də Müqəddəs Kitab İsraili «kahinlər padşahlığı» (Çıxış 19:6) və «millətlərə nur» adlandırır (Yeşaya 42:6, 49:6, eləcə də 51:4,

60:3). Bütün xalq İbrahimin bütün millətlərə xeyir-dua olmaq çağırışını irs aldı (Yaradılış 12:3).

## Etibarlılıq və Sadiqlik

Xilasımızı təsvir etmək üçün işlətdiyimiz vasitələrindən biri Allah ilə düzgün ünsiyyətdə olmaqdır. İsraillilər qayda və qanunlara əməl etməklə xilas olmadılar, baxmayaraq ki, bazar günlərində Müqəddəs Kitab dərslərində bunun əksini öyrədirlər. İstər Əhdi-Ətiq, istərsə də Əhdi-Cədiddə olsun, xilas heç vaxt qazanılmayıb və ya layiq görülməyib. Bu, imana cavab olaraq Allahın lütfüdür.

Məsihin ölümündən və dirilməsindən sonra doğulan biz imanlılar kimi israillilər də iman etməli idilər. Onlar inanmalı idilər ki, Tanrı allahların Allahıdır və onları Öz xalqı edib. Yalnız onların allahların Allahının hüzuruna girmək imkanı var idi. İsraillilər xilası Qanun vasitəsilə əldə etmədilər. Onlar Qanuna əməl etməklə inandıqları Allaha necə sadiq olduqlarını göstərirdilər. İsrailli üçün xilas allahların Allahının vədlərinə və xasiyyətinə iman etmək və başqa allaha ibadəti rədd etmək idi. Bu, ürəkdən *iman* və *sadiqlikdir*, Allahdan yaxşı əməllərə görə mükafat qazanmaq deyil.

Davud padşah dəhşətli günahlar işlətmişdi: zina etmiş və adam öldürməyi təşkil etmişdi (2 Şamuel 11). Qanuna əsasən o, günahkar idi və etdiyi cinayətlərə görə ölümə layiq idi. Amma buna baxmayaraq, o, heç vaxt Yahveyə Küll-İxtiyar Allah kimi iman etməkdə tərəddüd etmədi. O, həmişə sadiq qaldı, heç vaxt başqa allaha üz tutmadı. Allah da ona qarşı mərhəmətli oldu.

Əhdi-Cədiddə də belədir. Müjdəyə iman etmək İsrailin Allahının yer üzünə insan kimi gəlməsinə, günahlarımızın qurbanı olaraq çarmıxda könüllü ölməsinə və üçüncü gün ölülərdən dirilməsinə inanmaqdır. Biz bunu imanla qəbul etməliyik və bütün başqa allahlardan üz döndərib İsaya sadiq qalmalıyıq. Başqa allahlar xilas barədə nə söyləsələr də, Müqəddəs Kitab bizə deyir ki, xilas olmaq üçün İsadan başqa heç bir ad yoxdur (Həvarilərin İşləri

4:12) və insan bu imanında sona qədər qalmalıdır (Romalılara 11:17–24, İbranilərə 3:19, 10:22, 38–39). Həyatda üzləşdiyimiz uğursuzluğumuz İsanı başqa allahla əvəz etmək demək deyil. Allah bu iki şeydə fərqi görür.

## Bu Nə üçün Vacibdir?

Misirdən çıxışda və Sina dağında baş verənlərdə çoxlu maraqlı rəmzi mənalar var. Musanın və başqalarının insan surətində olan Allah ilə Sina dağında yeyib-içməyi bizim diqqətimizi dərhal cəlb edir. Musa ilə birlikdə yetmiş ağsaqqal da var idi. Əgər siz Yaradılış 10-cu fəsildə Babil qülləsindən sonra Allahın tərk etdiyi xalqları saysanız, görəcəksiniz ki, Allah yetmiş xalqı rədd etdi. İsrailin Allahı xalqları mühakimə etdi və onları Allah oğullarına — başqa kiçik rütbəli allahlara tapşırdı (Qanunun Təkrarı 4:19–20, 32:8–9). Niyə yetmiş ağsaqqal, yetmiş Allah oğlu və irsdən məhrum olmuş yetmiş xalq?

Bu, heç də təsadüfi deyil. İsa yer üzündə xidmətinə başlayanda O, yetmiş şagirdini seçib göndərdi (Luka 10:1). Bu, Böyük Tapşırıqdan xəbər verirdi. «Yetmiş» rəqəmi bildirirdi ki, İsanın şagirdləri Allahın Padşahlığı üçün xalqları geriyə tələb edəcəklər. Həmin Padşahlıq son günlərdə yeni möhtəşəm Edendə tam formalaşacaq (Vəhy 21–22). Yetmiş rəqəminin təkrarlanması bizə xəbər verir ki, Allahın yer üzündəki yeni ailəsi — İsrail, yəni İbrahimin övladları itmişləri tapmaq üçün bir alət olacaq.

Amma hər şey bununla bitmir. Həvari Paul Qalatiyalılara 3-cü fəsildə yazmışdı ki, imanlılar İbrahimə verilmiş vədləri irs olaraq alıblar. İsaya iman edən hər kəs iman vasitəsilə İbrahimin övladıdır (Qalatiyalılara 3:26–29). Bu o deməkdir ki, sizə və mənə xalqları allahların əlindən geri almaq tapşırılıb. Başqa allahların ruhani hökmranlığı altında olan insanları İsaya iman etməyə yönəltmək bizim tapşırığımızdır. Biz Allahın yer üzündə yeni toplantısıyıq. Biz göylərə gedəndə Onun yeni Edendəki ilahi ailəsinə qoşulacağıq.

Müqəddəs Kitab bu ideyaları bir çox yerdə ifadə edir. Vəhy kitabı bildirir ki, imanlılar son günlərdə İsa ilə xalqlara hökmranlıq etməyi irs olaraq alacaqlar (Vəhy 3:21). Bu o deməkdir ki, biz Babildən sonra həmin xalqlara hökmranlıq edən Allah oğullarını əvəz edəcəyik. Məhz buna görə Yəhya deyir ki, imanlılara Allahın övladları olmaq səlahiyyəti verilib (Yəhya 1:12-ci ayəni 1 Yəhya 3:1–3-cü ayələr ilə müqayisə edin). Biz son günlərdə Ona düşmən olan Allah oğullarını əvəz edəcəyik.

Ona görə də Paul imanlılara yazırdı ki, öz münaqişələrini həll etmək üçün məhkəmələrə getməsinlər, «Mələkləri bizim mühakimə edəcəyimizi bilmirsinizmi?» (1 Korinflilərə 6:3). Biz yeni yer üzündə ilahiləşəndə (izzətlənəndə) *mələklərdən üstün olacağıq*. Biz bir gün İsa kimi olacağıq (1 Yəhya 3:1–3, 1 Korinflilərə 15:35–49) və indi düşmən allahlar tərəfindən idarə olunan xalqlar üzərində Onunla birlikdə hökmranlıq edəcəyik (Vəhy 2:26). İbrahimin ruhani nəsli olan imanlılar sonda xalqları geri qaytaracaq və Edendəki süqutdan yaranmış ölüm lənətini ləğv edəcəklər.

Biz bu sonluğa inanaraq yaşamalıyıq. Əhdi-Ətiqin planında olan hər bir şey bizə gəlib çıxır. Eden barədə düşünün. Allah istəyirdi ki, ilahi və insan ailəsi ilə birlikdə Edendə yaşasın və hökmranlıq etsin. Bu plan üsyankarlığa görə alt-üst oldu, amma İsrailin Misirdən qurtuluşu ilə yeniləndi. İbrahimin övladlarından Məsih dünyaya gələcəkdi, Edendəki süqutu ləğv edəcəkdi (Yaradılış 3:15). İsrailsiz bizim heç bir taleyimiz olmazdı.

Məhz bu səbəbdən allahlar və onların davamçıları yenidən İsraili yox etməyə çalışacaqdı.

SƏKKİZİNCİ FƏSİL

# MÜQƏDDƏS ƏRAZİ

İsraillilər Sina dağında bir ildən çox vaxt keçirdilər. Nə üçün belə çox? Axı onlar artıq Allahla əhd bağlamış və On Əmri əldə etmişdilər. Amma buna baxmayaraq, onlar hələ çox şey öyrənməli idilər. Ulu babaları İbrahim, İshaq və Yaqubun Allahına inanmaq və Ona sadiq olacağına söz vermək bir tapşırıq idi, Allahın onlardan nə gözlədiyini və Onun xasiyyətinin necə olduğunu bilmək isə başqa bir tapşırıq idi.

## Müqəddəslik Anlayışı

Əhdi-Ətiqdə verilmiş bir çox qəribə qanun və qaydanın əsas məqsədi bu idi ki, xalq Allahın heç kimə *bənzəmədiyin*i öyrənsin. Onun təbiəti və xasiyyəti özünəməxsusdur. O, bəşəriyyətdən və başqa hər şeydən tamamilə *fərqlidir*. İsraillilərə bu həqiqət hər dəfə xatırlanmalı idi. Yoxsa Allah onların gözündə adiləşəcəkdi.

Allahın özünəməxsus fərqliliyi Müqəddəs Kitabda *müqəddəslik* adlanır. Bu, «ayrı olmaq» və ya «başqalarından fərqli olmaq» deməkdir. Burada anlayış təkcə mənəvi normalara aid deyil. Əlbəttə ki, bu da nəzərə alınır. Bu, Allahın fərqli mənəvi standartlarını əks etdirmək üçün bizim müəyyən qaydada özümüzü aparmağımıza aiddir (Levililər 19:2).

Allah sadəcə israillilərə müqəddəsliyin əqli izahatını verməklə kifayətlənmirdi. O istəyirdi ki, Onun fərqliliyi qədim İsraildə insanların həyatlarına daxil olsun. Müqəddəs Kitab bizə bildirir ki,

Allah bu anlayışı adətlər (rəmzi hərəkətlər) və müqəddəs yerlərə yaxınlaşmaq üçün qaydalar vasitəsilə həyata keçirirdi.

## Allah Hansı Mənada «Fərqlidir»?

Bu sualın qısa cavabı belədir: «O, hər cəhətdən fərqlidir». Amma bunu başa düşmək çətindir. Müqəddəs Kitab nisbətən daha aydın, başadüşüləndir. İsrail xalqının yaşayışı üçün qoyulan adət və qaydalar bunun göstəricisidir.

Məsələn, Müqəddəs Kitab bizə öyrədir ki, Allah təkcə İsrailin həyatının mənbəyi deyildi. O, həyatın *Özü idi*. Bu dünyada, ölüm, xəstəlik və natamamlıq var. Allah bu dünyadan deyil. Onun hökm sürdüyü yer fövqəltəbiidir. Bizim yaşadığımız yer isə dünyadır. Onun yer kürəsində tutduğu yer Onun hüzuru ilə müqəddəsləşib və *bu dünyadan fərqlidir*. Bizim yerləşdiyimiz ərazi adidir. Allah isə adiliyin tamamilə əksidir.

Qədim İsraildə bu ideyalar insanlara belə çatdırılırdı: onlar Allahın olduğu yerə girmək üçün əvvəlcə dəvət olunmalı və paklanmalı idilər. Əhdi-Ətiqdə qanunların çoxu bu paklanma adətini nizamlayır.

İsraillilər əgər bu şərtlərə əməl etməsəydilər, müqəddəs yerə daxil olmaqdan məhrum olunurdular («natəmiz» sayılırdılar). Cinsi əlaqə, qan axıntısı, bəzi fiziki qüsurlar və ölü bədənə toxunmaq (heyvan və ya insan) — bütün bunlar hamısı israilliləri murdar edirdi. İsraillilərə ölü heyvanların ətini yeyən bəzi yırtıcı quşların (məsələn, kərkəslər, qırğılar, Levililər 11:13–19) və ölü heyvanların üstündə tapılmış heyvanların ətindən yemək qadağan olunmuşdu (məsələn, kərtənkələlər, siçanlar, Levililər 11:24–40).

Bu misallarda natəmizlik mənəvi normalarla deyil, həyatın itkisi və Allahın kamilliyinə uyğunlaşmaması ilə əlaqəli idi. Məntiq sadə olsa da, bizim müasir düşüncəmiz üçün bunlar çox yad səslənir. Qan axıntısı və ya cinsi orqanlardan axan bədən axıntısı həyatverici nəyisə itirmək hesab olunurdu. Allahın həyat *itkisi* ilə heç bir əlaqəsi yox idi. Əksinə, O, həyat *verən* idi. Belə axıntıların

itkisindən sonra «paklanma» tələbi Allahın təbiətini xatırladırdı. Ölü bədənə toxunmaqla natəmiz olanda da buna oxşar «paklanma» tələb olunurdu. İsraildə insan fiziki qüsura və ya zədəyə görə müqəddəs yerlərdən təcrid oluna bilərdi, çünki belə qeyri-kamillik Allahın kamilliyi ilə uyğunlaşmırdı.

Bütün bu qanunlar israillilərə fövqəltəbii aləm barədə dünyagörüşünü aşılamaq üçün nəzərdə tutulmuşdu.

## Murdarlıq Problemini Həll Etmək

«Murdar» olmaq və müqəddəs yerə yaxınlaşa bilməmək qədimdə israillilər üçün ciddi məsələ idi. Əgər onlar natəmiz olsaydılar, müqəddəs yerdə qurban və təqdimlər gətirə bilməzdilər. Adətə görə paklanma ya özünə görə qurban gətirməklə, ya da gözləmə müddəti ilə həll olunurdu.

Qan tökməklə gətirilən qurban məntiqi — paklanmaq və müqəddəs yerə girmək məqsədilə insanın və ya əşyanın üstünə qan sürtmək və ya çiləmək — bizim üçün yad bir şeydir. Lakin qan tökməklə gətirilən qurbanların ilahi məqsədi var idi — onlar əvəzedici anlayışını daşıyırdı. Qan həyat verən qüvvə idi (Levililər 17:11). Heyvanı qurban gətirmək isə o demək idi ki, Allaha Onun buyurduğu kimi yaxınlaşmamaq ölümə bərabərdir. Qurbanın qanı İsrailin murdarlığını, natəmizliyini götürmək üçün mərhəmət rəmzi idi.

Maraqlı məqam budur ki, Allah əvəzedici qurban sayəsində israillilərin həyatını *qoruyurdu*. İnsan həyatı heyvan həyatından daha çox müqəddəsdir, çünki insanlar Allahın surətinə bənzər yaradılıblar (Yaradılış 1:26, 9:6). İsraillilər İbrahim və Saranın övladının olmasına imkan verən fövqəltəbiilik sayəsində mövcud idilər (Yaradılış 12:1–3). Amma insan həyatı müqəddəs Allahın hüzurunda təhlükədə idi. Qurbanlar israillilərə Allahın həyat və ölüm üzərində səlahiyyəti olduğunu və onlara mərhəmət göstərmək istədiyini xatırladırdı.

## Yer üzündə Cənnət (və Cəhənnəm)

Allahın fərqliliyi təkcə Allah barədə deyil, eləcə də fövqəltəbii sərhədlər barədə bəzi həqiqətləri bizə açır. «Aləmlərin fərqi» İsrailin fövqəltəbii dünyagörüşü üçün çox mühüm idi. Əgər Allahın hüzuru olan yer müqəddəs idisə, deməli, qalan başqa yerlər müqəddəs deyildi. O yerlər ya adi, ya da bəzi hallarda düşmən və şər ərazilər hesab olunurdu.

Allahın hüzuru Edeni xatırladırdı. Hüzur çadırının və məbədin bir çox hissəsi insanların Eden — cənnətlə yerin görüşdüyü məkan barədə düşünməsi üçün yaradılmışdı. Qızıl çıraqdan Edendə Həyat Ağacının oxşarı olaraq ağac kimi düzəldilib bəzədilmişdi (Çıxış 25:31–40). Bu çıraqdan pərdənin qabağında qoyularaq Ən Müqəddəs yerə gedən yolu, yəni Əhd sandığının yerləşdiyi yeri bağlayırdı. Əhd sandığının qapağı Allahın taxtının rəmzi idi (Çıxış 25:10–22).

Ən Müqəddəs yerin içində olan keruvlar Edenlə əlaqəni aydın şəkildə göstərirdi. Keruvlar Edendə Allahın olduğu yerin keşiyini çəkirdi (Yaradılış 3:24). Ən Müqəddəs yerin içində isə keruvlar Əhd sandığının qapağını qoruyurdu (Çıxış 25:18–20). Sonralar Süleyman məbədi tikdikdən sonra çadır məbədin içərisinə köçürüldü və iki nəhəng keruv Əhd sandığının üzərində yerləşdirildi. Artıq keruvlar Allahın taxtı, sandıq isə Onun kətili demək idi (1 Salnamələr 28:2).

Məbəd də Eden bağı kimi bəzədilmişdi, onu yamyaşıl bitki və heyvan təsvirləri ilə doldurmuşdular (1 Padşahlar 6–7). Onun memarlığında yonulmuş güllər, palma ağacları, şirlər və narlar var idi. Bütün bunlar Allahın insan ailəsi ilə yaşamaq üçün ilk dəfə yer üzünə gəldiyini əyani surətdə xatırladırdı.

İsraillilərə kosmik coğrafiyanın qaranlıq tərəfi barədə də xatırlanmalı idi. Əvvəlcə israillilərin düşərgəsi, sonra isə bütün İsrail xalqının yaşadığı ərazi — Allahın və Onun xalqının evi müqəddəs torpaq hesab olunurdusa, demək, İsraildən kənar ərazilər

*qeyri-müqəddəs* sayılırdı. Allah Sina dağından çox-çox əvvəl başqa xalqları tərk etmişdi və onları kiçik rütbəli allahlara vermişdi (Qanunun Təkrarı 4:19–20, 32:8–9). Bir gün O, xalqları geri alacaq. Amma Müqəddəs Kitab dövründə onlar qaranlıq yerlərdədir.

İsrailin bir adəti bu həqiqəti unudulmaz tərzdə aydınlaşdırdı. Levililər 16-cı fəsildə təsvir olunan və hər il keçirilən Kəffarə Günü, yəni günahların əvəzinin ödənilməsi (*Yom Kippur*) günündə müqəddəs və qeyri-müqəddəs torpaq haqqında insanlara xatırlatmaq üçün maraqlı nümunə var.

Bu bayram günündə iki təkədən istifadə olunurdu. Onlardan biri qurban gətirilirdi və müqəddəs yeri gələn il üçün insan murdarlığından təmizləmək məqsədilə onun qanı məbədin içinə çilənirdi. Qurban gətirilən təkə «Rəbb üçün» nəzərdə tutulmuşdu. O biri təkə isə kəsilmirdi. Baş kahin rəmzi olaraq insanların günahlarını bu təkənin üstünə qoyduqdan sonra onu səhraya göndərirdilər. Bu təkə «Azazel üçün»[1] idi.

«Azazel» kimdir və ya nədir? Bəzi tərcümələrdə Azazel əvəzinə bu söz *günah təkəsi* kimi tərcümə edilib. Ölü dənizdən tapılmış əlyazmalara əsasən ibrani dilində bu söz cinin adıdır. İsraillilər vəd olunmuş torpağa gedərkən səhrada cinlərə qurban gətirirdilər (Levililər 17:7). Çünki şər qüvvələrin onların düşərgələri üçün təhlükə yaradacağından qorxurdular. Həqiqətən də səhra israillilərin düşərgəsindən kənarda idi. Ona görə də ora şər qüvvələrin məkanı sayılırdı. Amma bu adətə son qoyulmalı idi və Azazel üçün təkə bu məsələni həll edəcəkdi. Azazel üçün təkə şər allahlara təqdim deyildi. Bu təkə heç vaxt qurban gətirilmirdi. Əksinə, onu səhraya göndərmək müqəddəs torpağı (israillilərin düşərgəsi) günahdan təmizləmək rəmzi idi.

---

1 Sonra Harun iki təkəni götürüb Rəbbin önündə Hüzur çadırının girişində saxlasın. Harun bu təkələrdən birini Rəbb üçün, o birisini Azazel üçün püşklə seçsin (Levililər 16:7–8).

## Bu Nə üçün Vacibdir?

Əhdi-Cədiddə çox şey dəyişdi. Lakin bəziləri əvvəlki kimi qaldı. Allah yenə də *fərqli* Allahdır. Onun müqəddəsliyi bizdən tələb edir ki, hüzuruna pak olaraq girək. Biz buna İsanın qurbanını qəbul etməklə nail oluruq.

İsanın bizim uğrumuzda etdiyi hər bir şeyin fövqəltəbii çalarları var. O, şər qüvvələrin olduğu yerə — səhraya getdi və şeytanın sınaqlarına qalib gəldi. Həmin hadisədən sonra O Öz xidmətinə başladı və iblisə — «ölüm üzərində hakimiyyət sahibi olana» qalib gəlməklə bu işini tamamladı (İbranilərə 2:14). İsa müqəddəs şəhərdən *kənarda* çarmıxa çəkildi (İbranilərə 13:12). Bizim günahlarımız Onun üzərində olduğu üçün O, natəmiz oldu, Yerusəlim isə müqəddəs torpaq idi.

İsanın ölümü və dirilməsi bizi günahlardan təmizləyir və Allahın hüzuruna girmək üçün bizə qapı açır. Bizim günahlarımız aradan qaldırıldı (Romalılara 11:27, eləcə də 1 Yəhya 3:5). Günahkar olsaq da, əgər Məsihdəyiksə, yenə müqəddəsik. Kamil olmasaq da, İsa sayəsində qeyri-kamilliyimizə əhəmiyyət verilmir. Bütün bu həqiqətlər çox sadədir, lakin eyni zamanda olduqca dərindir.

Bizə elə gəlir ki, israillilər bizdən daha çox ruhani imtiyazlara malik idilər. Axı Allahın hüzuru onların arasında idi. Onlar fövqəltəbii, kosmik coğrafiyanın *gerçək* olduğu bir dünyada yaşayırdılar. Biz fikirləşirik ki, əgər onlarda olan bizdə olsaydı, Allah barədə daim bizə xatırlatsaydılar, onda daha ruhani və Allaha daha yaxın olardıq.

Əhdi-Cədid isə bizə bildirir ki, bütün bunlar bizdə var.

Bizə müqəddəs ərazinin harada olduğunu bilmək üçün çadır və ya məbəd lazım deyil. Bizim bədənimiz müqəddəs *ərazidir*. Paul bizim cismani bədənimizi «çadır» adlandırır (2 Korinflilərə 5:4) çünki biz çadırda və məbəddə Ən müqəddəs yeri dolduran həmin ilahi hüzurla dolmuşuq (Romalılara 8:9–11). Sonda bədənimiz — ruhumuzun yerdəki evi öləcək və «əllə tikilməyən bir ev»

— səmavi məskənlə, yeni Edenlə əvəz olunacaq (2 Korinflilərə 5:1–3), cənnət yer üzünə qayıdacaq (Vəhy 22:1–3).

İndi Allah Öz Ruhu vasitəsilə imanlılarda yaşayır. Deməli, imanlıların hər bir toplantısı müqəddəs yerdir. Buna görə də Paul kədərlə korinflilərə deyir ki, günahda yaşayan, tövbə etməyən məsihçini qovsunlar və «bu adamı şeytana təslim etsinlər» (1 Korinflilərə 5:5). İmanlı cəmiyyəti müqəddəs yer idi. İmanlıların cəmiyyətindən kənarda şeytanın hökmranlığı mövcuddur. Günah və onun dağıdıcı qüvvəsi məhz həmin yerə məxsusdur.

Özümüzə fövqəltəbii gözlərlə baxmaq vaxtıdır. Siz Allahın övladısınız, gördüyünüz işlərdən asılı olmayaraq, Məsihdə olduğunuza və Allah tərəfindən övladlığa götürüldüyünüzə görə müqəddəs yerə layiqsiniz (Romalılara 8:15, Qalatiyalılara 4:5). Siz zülmət hakimiyyətindən xilas edilmisiniz və Onun «...sevimli Oğlunun Padşahlığına köçürülmüsünüz» (Kolosselilərə 1:13).

Biz heç vaxt, hətta bir dəqiqə belə olsun, Məsihdə kim olduğumuzu və dünya üçün bunun əhəmiyyətini unutmamalıyıq.

DOQQUZUNCU FƏSİL

# MÜQƏDDƏS DÖYÜŞ

Müqəddəs Kitab mübahisə doğuran bir kitabdır. Bunu Allahın Kəlamı kimi görməyən insanlar çox vaxt orada yazılanlara etiraz edirlər. Amma Müqəddəs Kitabın bəzi hissələri hətta məsihçiləri narahat edir. İsrailin vəd olunmuş torpağı ələ keçirməsi üçün döyüşməsi məhz həmin hissələrdən biridir.

Niyə? Əvvəla, adam öldürməyə görə. İsrailin döyüşləri ağına-bozuna baxmayan döyüşlərə bənzəyir. Bəzi şəhərlərdə bütün əhalini — kişiləri, qadınları, uşaqları və hətta mal-qaranı öldürmək nəyə lazım idi? Nə üçün sakinlərin təslim olmasına icazə verilməsin? Onları öldürməkdənsə, müqəddəs torpaqdan qovmaq daha yaxşı olmazdımı?

Bu etirazlara cavab var. Amma müəyyən etmişəm ki, cavab məsihçiləri daha çox narahat edir. İsraillilərin torpaqları ələ keçirməyinin əsas səbəbini və məqsədini siz yalnız İsrailin fövqəltəbii nöqteyi-nəzərindən baxanda başa düşə bilərsiniz.

## İsrailin Fövqəltəbii Məntiqi

Vəd olunmuş torpaq uğrunda mübarizə iki amildən ibarətdir. Hər iki amil ona əsaslanıb ki, İsrail əldə etdiyi torpaqlara təkcə bəşəriyyətin məskəni kimi deyil, eləcə də gözəgörünməz ruhani döyüşdə qazanılan mükafat kimi baxırdı. Biz onların hər ikisi barədə danışmışıq. Amma gəlin indi təkrar edək.

Amillərdən biri Babil qülləsində baş verən hadisələrin nəticəsidir. Orada xalqlar Allaha qarşı üsyan edəndə, O, qərara gəldi ki, artıq

onlarla birbaşa ünsiyyət qurmayacaq. Bunun əvəzində O, onlar üzərində hökmranlığı ilahi toplantısının üzvlərinə — Allah oğullarına həvalə etdi (Qanunun Təkrarı 4:19–20, 32:8–9). Bundan sonra O, İbrahimi çağırdı, ona və arvadı Saraya övlad (İshaqı) verdi, bu övladdan İsrail xalqı törəndi.

Biz 82-ci Zəburdan öyrəndik ki, bu kiçik rütbəli allahlar yollarından azdı. Onlar ədalətsizliyə yol verdi. İnsanlar Küll-İxtiyar Allaha ibadət etmək əvəzinə onlara ibadət etdilər. Buna görə də onlar Allahın və Onun xalqının, İsrailin düşmənlərinə çevrildi. Həmin xalqlardan bəziləri Kənan torpaqlarında — Misirdən çıxışdan sonra Allahın İsrail xalqına vermək istədiyi torpaqlarda yaşayırdı. Bu səbəbdən də Musa və israillilər əmin idilər ki, həmin torpaqlarda məskunlaşan xalqlar onların qatı düşmənləridir və onların allahları İsraili məhv etmək üçün bacardıqları hər şeyi edəcək.

İkinci amil israillilər üçün daha qorxulu idi. Bunu israillilərin vəd olunmuş torpağa, Kənan torpağının sərhədinə çatanda baş verənlərlə izah etmək olar.

Musa Kənan torpağı və onun sakinləri barədə məlumat toplamaq üçün oraya on iki nəfər göndərdi. Torpağa nəzər salmağa gedən bu adamlar qayıdanda həmin yerin həqiqətən gözəl olduğunu söylədilər. O torpaqda Allahın onlara dediyi kimi «süd və bal» axırdı (Saylar 13:27). Bunu deyəndən sonra camaatı qorxudan xəbər verdilər: «Gözdən keçirmək üçün içindən keçdiyimiz torpaq öz əhalisinin başını yeyən torpaqdır və orada gördüyümüz hər kəs uca boyludur. Orada nəhəng adamların[1] nəslindən olan anaqlıları[2] gördük. Onların yanında özümüzü çəyirtkə boyda hiss etdik, onlara da elə göründük» (Saylar 13:32–33).

Biz əvvəldə nefilimlər barədə danışdıq. Onlar Yaradılış 6:1–4-cü ayələrdə Allah oğulları və bəşəriyyətin qızlarının pis törəmələri idi. İsraillilərin Kənanda gördükləri anaqlı nəhənglər onların nəslindən idi. Onlar Kənan şəhərlərində yaşayan xalqlar arasında səpələnmişdilər.

---

1 nefilimlər

2 nefilim nəslindən törənənlər

Torpağı ələ keçirmək üçün israillilər bu xalqları məğlub etməli idilər (Saylar 13:28–29). Torpağı və onun allahlarını məğlub etmək tapşırığı əvvəllər onsuz da çətin idi, indi isə qeyri-mümkün görünürdü. Belə ki, torpağı ələ keçirmək üçün nəhəng döyüşçülərlə üzləşmək lazım gəlirdi.

Torpağa baxmağa gedən adamlardan yalnız ikisi — Yeşua və Kalev inanırdı ki, anaqlıları məğlub etməkdə Allah israillilərə kömək edəcək. Digərləri isə xalqı inandırmağa çalışırdı ki, bu döyüşdə onlar uduzacaqlar. Fironu və ordusunu tamamilə darmadağın edən Allahın, onların qələbə çalmasına kömək edəcəyinə inanmaq əvəzinə onlar deyinirdilər: «O xalqa hücum edə bilmərik, çünki onlar bizdən güclüdür» (Saylar 13:31).

Allah cavab verdi: «Nə vaxtadək bu xalq Mənə hörmətsizlik edəcək? Aralarında etdiyim əlamətləri görə-görə nə vaxta qədər Mənə iman gətirməyəcəklər?» (Saylar 14:11) Allah o qədər hirslənmişdi ki, Babil qülləsində xalqları tərk etdiyi kimi İsraili rədd edəcəyini və hər şeyi yenidən bu dəfə Musa ilə başlayacağını söylədi: «Onları vəba ilə cəzalandıracağam. İrsdən məhrum edəcəyəm. Onlardan çox böyük və güclü bir milləti səndən törədəcəyəm» (Saylar 14:12).

Musa Allaha yalvardı ki, bu fikrindən daşınsın (Saylar 14:13–19). Allah Musanın yalvarışına cavab verdi. Amma xalqın imansızlığına göz yummadı. Allah xalqına ciddi dərs verəcəkdi. O, Musaya dedi:

> Sənin ricana görə bağışladım, amma Varlığıma və Rəbbin bütün dünyanı dolduran izzətinə and olsun ki, izzətimi və Misirdə, eləcə də səhrada etdiyim əlamətləri görüb Məni on dəfə sınayan, Mənim sözümü dinləməyən bu adamların heç biri atalarına and içərək vəd etdiyim torpağı görməyəcək və Mənə hörmətsizlik edənlərin heç biri oranı görməyəcək...
>
> Meyitləriniz bu səhraya səriləcək. Mənə deyinən iyirmi və ondan yuxarı yaşda olub siyahıya alınanların hamısı səhrada öləcək, sizi sakin edəcəyimə əlimi qaldırıb and içdiyim

torpağa girməyəcəksiniz. Oraya yalnız Yefunne oğlu Kalev və Nun oğlu Yeşua girəcək. Lakin ‹əsir olacaqlar› dediyiniz uşaqlarınızı oraya aparacağam və sizin rədd etdiyiniz ölkəni onlar tanıyacaqlar.

*Saylar 14:20–32*

Müqəddəs Kitab dövründə «on dəfə» sözü «dəfələrlə» sözünün obrazlı ifadəsi idi (Yaradılış 31:7, Əyyub 19:3). Bu vaxta qədər Allah insanların şikayətlərinə dözürdü. Misirin köləliyindən çıxdıqları üçün sevinmək əvəzinə yeməklərinə (Saylar 11:1–14, 31–35) və Allahın seçdiyi rəhbər Musaya görə deyinirdilər (Saylar 12:1–16). Beləcə Allahın səbri tükəndi. Bu dəfə imansızlıqları onlara çox baha başa gəldi. İman etməyən yaşlı adamlar ölənədək İsrail səhrada qırx il sərgərdan dolandı.

## İkinci Şans

Vəd olunmuş Torpağı ələ keçirmək üçün İsrailə ikinci şans verildi. Qanunun Təkrarı 2–3-cü fəsillər israillilərin qırx il səhrada dolaşdıqları müddətdə İordan çayının («Transiordaniya» adlanan) o biri sahilinə — Vəd olunmuş Torpağın şərqinə necə gedib çıxmalarını nəql edir. İordan çayının o biri tərəfində olan torpaqlar Edom, Moav və Ammon torpaqları idi. Allah bu torpaqları İbrahimin qardaşı oğlu Luta və Yaqubun qardaşı Esavın nəslinə vermişdi. Orada yaşayanların çoxu israillilərin qohumları idi. Həmin torpaqlarda başqa sakinlər də var idi.

Allah Musanı bu səfərə xüsusi məqsədlə göndərmişdi. Bu, uzaqda yaşayan qohumlara baş çəkmək deyildi. Nəhayət, israillilər Başan kimi tanınan əraziyə gəlib çıxdılar. Bu ərazi qorxulu yer kimi ad qazanmışdı. Müqəddəs Kitabdan başqa qədim ədəbiyyatlarda Başan «ilan yeri» kimi tanınırdı. Bu səfərlə əlaqəli olan Başanın iki əsas şəhəri — Aştarot və Edrei ölülərin yeraltı aləminin darvazaları hesab olunurdu (Qanunun Təkrarı 1:4, Yeşua 13:12).

İsraillilərə görə, Allah sanki onları cəhənnəmin darvazalarına gətirib çıxarmışdı.

Amma bu, hələ son deyildi.

Allah israilliləri oraya iki padşahla — Sixon və Oq ilə qarşılaşmaq üçün gətirmişdi. Bu iki padşah emorlu (Qanunun Təkrarı 3:2–3, 31:4) və Müqəddəs Kitabın rafalı adlandırdığı başçılar idi. Qanunun Təkrarı 2:11-ci ayədə deyilir ki, anaqlılar «rafalılar» sayılırdı. Allah Musa vasitəsilə xalqı başqa bir yerə gətirmişdi. Bu yerdə neçə il əvvəl israilli kəşfiyyatçıları qorxudan və xalqı imansızlığa salan həmin nəhənglər yaşayırdı (Saylar 13:32–33). Bu imansızlıq xalqın qırx il sərgərdan gəzməsinə səbəb olmuşdu.

Allah israilliləri niyə oraya apardı? Bu qarşılaşma qırx il bitdikdən sonra onları gözləyən sınaqların qabaqcadan təsəvvürü idi. Əvvəl-axır İsrail İordan çayını keçib Allahın onlara verdiyi torpaqları ələ keçirməli idi. Allah Öz xalqını yoxlayırdı. Bu dəfə onlar iman edib döyüşəcəklərmi? Əgər iman etsələr, qazanılan qələbə baş verəcək hadisələr üçün onlarda əminlik və iman yaradacaqdı.

İsraillilər neçə il bundan əvvəl qorxub geriyə çəkilmişdilər. Lakin bu dəfə nəticə başqa cür oldu. Musanın dediyi kimi: «Allahımız Rəbb onu bizə təslim etdi. Biz də Sixonu, övladlarını və bütün ordusunu qırdıq... Allahımız Rəbb Başan padşahı Oqu və bütün ordusunu bizə təslim etdi. Biz də kimsəni sağ buraxmadan hamısını qırıb...» (Qanunun Təkrarı 2:33, 3:3). Amos peyğəmbər illər sonra bu qarşıdurma barədə nəql edərkən onun sonunu belə təsvir edir: «Amma Mən (Rəbb) sidr ağacı kimi hündür, palıd ağacı kimi möhkəm olan emorluları qarşınızda yox etdim» (Amos 2:9).

Allahın israillilərə verdiyi ikinci şans çətin idi. Allah tələb edirdi ki, onlar qorxuları ilə üzləşsinlər. Həmin qorxu onların səhrada qırx il boş-boşuna sərgərdan dolanmaqlarına səbəb olmuşdu. Qırmızı dənizi iki yerə ayıran Allah onların tərəfində idi. Bunu xatırlamaq vaxtı gəlib çatmışdı.

## «Tamamilə məhv etdik»

İsrail Sixon və Oq padşahlarına qalib gəldi. Məhz burada biz başa düşürük ki, Vəd olunmuş torpaq uğrunda döyüşlərdə sakinlərin tamamilə məhv edilməsi niyə tələb olunurdu. Nəhəng rafalıların yaşadığı şəhərlərin bütün əhalisi «tamamilə məhv edildi» (Qanunun Təkrarı 3:6). Məqsəd qisas almaq deyildi. Məqsəd nefilimin nəslini tamamilə məhv etmək idi. İsraillilər üçün nəhənglərin nəsli cinlərə məxsus xüsusiyyətlərə malik idi. Onlar üsyankar və yolunu azmış ilahi varlıqlardan törənmiş nəsil idi. İsraillilər cinlərə məxsus irsi olan nəhənglərlə birlikdə yaşaya bilməzdilər.

Vaxt ötdü. İsraillilər İordan çayının o tayına keçməzdən qabaq Musa öldü. Rəhbərlik Yeşuaya keçdi. O, İsrailin Vəd olunmuş torpağı alması uğrunda çoxlu hərbi yürüşlər apardı. O, həmin yürüşləri bu fəslin əvvəlində qeyd etdiyim kimi, iki məqsədlə edirdi: düşmən xalqları qovub çıxarmaq və nəhənglərin nəslini tamamilə məhv etmək.

Vəd olunmuş torpağın ələ keçirilməsinə bu nöqteyi-nəzərdən baxsaq, aydın görə bilərik ki, bu, müqəddəs müharibə idi — qaranlıq qüvvələrə və pisniyyətli allahların hökmranlığı altında olan düşmənlərə qarşı döyüş idi. Müqəddəs Kitab bu allahların gerçək ruhani varlıqlar olduğunu qeyd edir.

Yeşua 11:21–22-ci ayələrdə həmin döyüşlərin məntiqi yaxşı ifadə olunub:

> O vaxt Yeşua gedib dağlıq Xevronda, Devirdə, Anavda, bütün Yəhudanın dağlıq bölgəsində və bütün İsrailin dağlıq bölgəsində olan Anaqlıları qırıb məhv etdi. Yeşua onları şəhərləri ilə birgə tamamilə yerlə yeksan etdi. İsrail övladlarının torpağında Anaqlılar qalmadı, onlar ancaq Qəzzədə, Qatda və Aşdodda qaldı.
>
> *Yeşua 11:21–22*

## Bu Nə üçün Vacibdir?

Yeşuanın yürüşləri əsasən uğurlu oldu, amma nəhəngləri tamamilə qırıb qurtarmadılar. Bir neçə nəhəng qaçıb canını qurtardı. Bu, ilk baxışdan əhəmiyyətsiz görünsə də, sonralar baş verəcək hadisələrdən xəbər verirdi. Bəzi nəhənglər gedib Qat şəhərində gizləndilər. Sonralar Qat filiştlilərin şəhəri (Yeşua 13:3) və Davud padşahın dövründə (1 Şamuel 17:4) Qolyatın yaşadığı yer oldu. Qolyat Qatda yaşayan yeganə nəhəng deyildi (1 Salnamələr 20:5–8). Vəd olunmuş torpaq uğrunda döyüş zamanı «tamamilə məhv edilənlərin» hamısı əslində məhv edilmədi. Bu döyüşlərdə ilkin göstərişlərə tam əməl edilməməsi israillilər üçün sonralar əngəl törətdi.

Hakimlər kitabında yazılıb ki, Yeşua öləndə Vəd olunmuş torpaq uğrunda döyüşlərdə xalq hələ öz məqsədinə çatmamışdı. Əslində torpağı ələ keçirmək prosesi heç vaxt tam başa çatmadı. İsraillilər qərara gəldilər ki, artıq onlar çox şey əldə ediblər. Elə buna görə Allahın başqa xalqları qovub çıxarmaq əmrinə qulaq asmadılar. Qismən itaətkarlıq isə itaətsizlikdir.

İsraillilər Allahın əmrinə sona qədər itaət etmədikləri üçün əsrlər boyu əziyyət çəkəcəkdilər. Hakimlər kitabı dəhşətli bir dövr barədə nəql edir: İsrail dəfələrlə düşmən xalqların ayağı altında əzilirdi və Allaha sadiqlik demək olar ki, yox dərəcəsində idi. Davud padşah və onun oğlu Süleymanın dövründə vəziyyət bir az düzəldi, amma Süleymanın hakimiyyəti başa çatdıqdan sonra İsrail vətəndaş müharibəsinə və bütpərəstliyə yuvarlandı.

Böyük uğursuzluğa görə Kənan torpağını ələ keçirməyin izzəti kölgədə qaldı. Məğlubiyyət qələbəyə üstün gəldi. Allahın Padşahlığının hökmranlığı, Onun Edeni bərpa etmək planı pozuldu. Babil dövründəki kimi — imansız xalqların fövqəltəbii qüvvələrin hökmranlığı altında olması hələ də öz gücünü saxlayırdı. İsrail məğlub oldu və səpələndi, Vəd olunmuş torpaq başqa allahların və xalqların hökmranlığına keçdi. Həmin məqam Əhdi-Cədiddə

də özünü göstərir. Paul qaranlıq qüvvələri təsvir etmək üçün *şər başçıları, hakim olanlar, qaranlıq dünyanın hökmdarları, səmadakı ruhani şər qüvvələr* kimi sözlərdən istifadə edir. Bu sözlərin hər biri qədimdə coğrafi hökmranlığın təsvirini verirdi.

Allahın xalqı olan israillilərin bu vəziyyətə düşməsinə səbəb onların itaətsizliyi və imansızlığı idi. İnsanlar zəif varlıqlardır. Biz soruşa bilərik: «Niyə Allah bizə bu qədər diqqət yetirir?» Dönüb Edenə baxsaq, bunun səbəbini görərik. Allah Özünü bəşəriyyətə həsr edib. Biz Onun surətində yaradılmışıq və Onun yer üzündə ailəsiyik. Onun ilkin planına — yer üzündə hökmranlıq etməyə biz də daxilik. Əgər Allah yer üzündə insanların Onun toplantısında iştirak etməsinə icazə verməsə, bu, Onun haqqında hansı fikir yaradar? Allah Öz planını yerinə yetirə bilmədi, yoxsa başlanğıcdan bu, yaxşı fikir deyildi? Lakin Allah Öz məqsədlərinə nail olmağa tam qadirdir. Əvvəlki fəsildə qeyd etdiyim kimi, O, səhv etmir.

Günah və onun nəticəsinə yeni nöqteyi-nəzərdən yanaşmaq vaxtıdır. Edendə Allahın Padşahlığını yenidən bərpa etmək işini bəşəriyyətə tapşırmaq olmaz. Lazım olan hər bir işi yalnız Allah görə bilər. Yalnız Allah Özü əhdlərinin bütün şərtlərini həyata keçirə bilər. Amma bəşəriyyət kənarda qalmayacaq. Bunun əvəzinə *Allah insan olmalı idi.* Allah Qanunu və əhdləri Özü yerinə yetirməli, sonra bütün bəşəriyyətin günahı üçün cəzanı Öz üzərinə götürməli idi. Amma bu qərarı həyata keçirmək üçün onu hər bir kəsdən, o cümlədən Onun məqsədlərinə düşmən olan fövqəltəbii varlıqlardan gizli saxlamaq lazım idi. Bu da asan olmayacaqdı.

ONUNCU FƏSİL

# GÖRÜNƏN YERDƏ GİZLƏDİLMİŞ

Günah dünyaya girəndən bəri Allah Eden üçün ilkin məqsədini yenidən həyata keçirməyə çalışır. Onun bu məqsədi həm ilahi, həm də insan ailəsi ilə birlikdə yer üzündə yaşamaqdır. Allah Adəm və Həvvaya dedi ki, törəyib çoxalsınlar, bununla da Allahın hökmranlığını planetin qalan yerlərinə yaysınlar. Allah istəyirdi ki, yer üzü yerlə göyün görüşdüyü bir məkan olsun. Burada bəşəriyyət ilahi aləmdən, ilahi aləm də yer üzündən və bəşəriyyətdən zövq ala biləcəkdi. Biz *bütün bunların* necə qurtardığını bilirik.

## Uğursuzluğun Tarixi

İnsan günah etdi və Allahın hüzurundan qovuldu. Edenin qapıları insanın üzünə bağlandı. İlahi düşmən Allahın hüzurundan yer üzünə — ölümün hökmranlıq etdiyi, həyatın əbədi olmadığı yerə qovuldu. O, ölülərin ağası oldu. İnsan günah etdiyi üçün və günahın əvəzi ölüm olduğu üçün ilanın yer üzündə doğulan hər kəs üzərində hökmü var (Romalılara 6:23).

Daşqından sonra Allah Eden barədə məqsədini Nuh və onun ailəsinə yenidən xatırlatdı: «Törəyib çoxalın». Bu, ikinci cəhd idi. Amma bunun əvəzində bəşəriyyət üsyan etdi. Allahın sözünə qulaq asıb hər yerdə Onu dərk etmək və Onun hökmranlığını yaymaq əvəzinə, onlar qüllə tikməyə başladılar ki, Allah yanlarına gəlsin.

Yenə də uğursuzluqla üzləşdilər. Amma Allah insanların dediyi ilə oturub durmayacaqdı. O, xalqların dillərini qarışdırdı və onlar

üzərində hökmranlığı ilahi toplantıya həvalə etdi. Sonra O, yeni insan ailəsi ilə — İbrahim və Sara vasitəsilə hər şeyi yenidən başlamağa qərar verdi. Öz Padşahlığının hökmranlığını bərpa etdikdən sonra O, İbrahimin nəsli vasitəsilə başqa xalqlara yenidən qayıdacaqdı (Yaradılış 12:3).

Bu istək də baş tutmadı. İsraili Misirdən çıxarıb Sina dağına aparanda və nəhayət, onlara Vəd olunmuş torpağı verəndə də cəhdi alınmadı. Sonra Allah Davudu və Süleymanı yetişdirdi. Amma Süleyman öləndən sonra İsrail başqa allahların ardınca getdi və israillilər bir-birinə qarşı vuruşmağa başladı. Allah onları Vəd olunmuş torpaqdan qovub sürgün etməli oldu.

Allahsız bəşəriyyətin hekayəsi bir uğursuzluq hekayəsidir. Günah dünyaya girdiyi üçün bəşəriyyət yolunu azdı. Kamil olan bir kəs yoxdur və bəşəriyyət Allahdan uzaq düşüb. Hansısa insan rəhbərə Allahın padşahlığını yenidən başlamaq və onu saxlamaq işini etibar etmək olmazdı. Onlar gec-tez Allaha sadiq qalmayıb öz istədikləri yolu seçəcəkdilər. İnsanlar yenə günah edəcək, Allahın tapşırığını yerinə yetirə bilməyəcək və Allahın düşməni olan ölülərin ağasına təslim olacaqdı. Amma Allah istəyirdi ki, insanlara xeyir-dua versin və onlar yeni Edendə idarəçi-padşahlar olsunlar. O, bu məqsədini insanlarsız həyata keçirə bilməzdi. İnsan Allahın planında öz rolunu yalnız yenidən yaradıldığı halda oynaya bilər. Günahın dünyaya girməsi ilə gələn lənət aradan qaldırılmalı idi.

Bunu həyata keçirmək üçün Allahın planı var idi.

## Həll və Problem

Allaha insandan daha üstün olan bir insan — sınaqlara qarşı dura bilən, həmişə itaət edən, padşahlığa layiq olan, ölüm lənətini ölməklə ləğv edə bilən və öz qüvvəsi ilə yenidən dirilə bilən bir nəfər lazım idi. Bütün bunları ancaq bir yolla həyata keçirmək olardı: Allah Özü insan olacaq, bütün bəşəriyyətə görə *insan kimi* Allah planını Özü həyata keçirəcək və Edeni bərpa edəcəkdi. İnsan yalnız

bağışlananda və dirilmə gücü vasitəsilə İsa kimi Allahın təbiətinə bənzər olanda Eden gerçəkliyə çevrilə bilər (1 Yəhya 3:1–3).

Lakin burada bir problem yaranır. Allahın başlanğıcdakı görüntüsünün bərpa olması üçün əslində Allah olan insan ölməli və dirilməli idi. Əgər bu plandan qaranlıq qüvvələr xəbər tutsalar, buna göz yummayacaqdı. Paul Korinfdəki imanlı cəmiyyətinə yazdığı məktubunda elə bundan danışır:

> Biz Allahdan gələn sirli müdrikliyi öyrədirik. Allah bu müdrikliyi bizim izzətimiz üçün zaman başlamazdan əvvəl müəyyən etdi və gizli saxladı. Bu dövrün hökmdarlarından heç biri onu anlamadı. Çünki anlasaydılar, izzətli Rəbbi çarmıxa çəkməzdilər.
>
> *1 Korinflilərə 2:7–8*

Paul kimin haqqında danışır? *Hökmdarlar* sözü dünyadakı rəhbərlərə, məsələn, vali Pilata və ya yəhudi rəhbərlərə aid ola bilər. Amma Paul burada həm də ilahi və qaranlıq qüvvələrdən danışır (Efeslilərə 2:2). Allahın düşmənlərinə — istər insan, istərsə də ilahi olsun, bu, bir sirr olaraq qalmalı idi. Hər şey Allah olan insanın ölümü və dirilməsindən asılı idi.

Bəs bu planı necə sirr saxlamaq olardı?

## Sirli Məsih

Edenin bərpası Allah olan insandan asılı idi. Təbii ki, bu, Nazaretli İsa Məsih idi. Yəqin ki, Məsih barədə planın sirr olaraq qalmasını söyləməyim sizə təəccüblü göründü. Məgər Əhdi-Ətiqi oxuyub planı tamlığı ilə görmək mümkün deyil? Yox, mümkün deyil.

İstəyirsiniz inanın, istəyirsiniz inanmayın, Əhdi-Ətiqdə elə bir ayə yoxdur ki, əslində Allah olub və bəşəriyyətin günahlarına görə ölən insan üçün *məsih* sözündən istifadə olunsun. Bu, hətta Yeşaya 53:11-ci ayədə «iztirab çəkən qulun» təsvirində belə göstərilməyib.

Həmin fəsildə *Məsih* sözünə rast gəlinmir, «qul» sözü isə Yeşaya kitabında xilaskarı deyil, İsrail xalqını nəzərdə tutur (Yeşaya 41:8, 44:1–2, 21, 45:4, 48:20, 49:3). «Məsh edilmiş» mənasını verən *məsih* sözü demək olar ki, həmişə Davuda və ya onun nəslindən gələn sonrakı padşaha aid edilir.

Əslində Əhdi-Ətiqdə ölüb sonra diriləcək ilahi Məsih haqqında məlumat tapmaq çətindir. Amma dediklərimin sübutunu Əhdi-Cədiddə aydın görmək olar.

Yadınıza salın, İsa şagirdlərinə Yerusəlimə ölməyə getdiyini deyəndə onlar necə cavab verdilər. İsanın sözləri onlara müəmmalı göründü və narahatlıq gətirdi (Matta 17:22–23, Mark 9:30–32). Onlar «Hə, bildik, biz bu barədə Müqəddəs Yazılarda oxumuşduq» demədilər. Peter hətta bu sözlərə görə İsaya etirazını bildirdi (Matta 16:21–23).

Allahın bu yeni planı barədə şagirdlərin təsəvvürü belə yox idi. Onlar düşünürdülər ki, İsa Davudun oğludur və onun taxt-tacı üçün qanuni varisidir. Eləcə də Onun Əhdi-Ətiq peyğəmbərləri kimi möcüzələr yaratdığını fikirləşirdilər.

Hətta dirilmədən sonra şagirdlərin əzab çəkən Məsihi görmələri üçün düşüncələri *fövqəltəbii surətdə* açılmalı idi. İsa ölülərdən diriləndən sonra onlara görünüb dedi:

> «Sizinlə birgə olarkən söylədiyim sözlər bunlardır: "Musanın Qanununda, Peyğəmbərlərin kitablarında və Zəburda Mənim haqqımda yazılanların yerinə yetirilməsi lazımdır". Bundan sonra Müqəddəs Yazıları anlamaq üçün onların zehnini açdı».
>
> *Luka 24:44–35*

Günahın lənətini ləğv etmək üçün Onun ölüb sonra dirilməsi barədə Allahın «yeni planı» Əhdi-Ətiqdə elə də aydın görünmür. Lakin bütün Əhdi-Ətiq boyunca çox yerdə bu plana işarə olunur. Allahın planı Kəlamın yalnız bir hissəsində açıqlanmır. Məsihin

bioqrafiyasını yalnız tarixə nəzər salmaqla görmək mümkündür. Bunu da ancaq nə axtardığını və nə gözlədiyini bilən şəxs aydın görə bilər.

Əlbəttə, pis niyyətli fövqəltəbii varlıqlar peyğəmbərliklərdə deyilən Davud Oğlunun artıq dünyaya gəldiyini bilirdilər (Matta 8:28–29, Luka 4:31–35). Onlar bunu Əhdi-Ətiqdən başa düşmüşdülər. Amma cinlərin dediklərinə diqqət yetirsək, görərik ki, onlar İsanın lənəti ləğv etmək üçün yer üzünə ölmək və dirilmək məqsədilə gəldiyini dərk etmirdi.

Paulun dediyi kimi, əgər onlar və şeytan bunu dərk etsəydi, onda İsanın ölümü üçün heç vaxt Yəhuda kimi xəyanətkarı seçməzdilər. Şeytan və onunla əlbir olanlara hər nə ad versək də, onlar axmaq deyildilər. Onlar aldandılar və İsanı öldürdülər. Allahın planı da məhz bu idi. Onlar öz fəlakətlərinə səbəb olan bir sıra hadisələr törətdilər. Bu, düşməni yolundan azdırmaq üçün Allahın planı idi.

## Məsih obrazının xüsusiyyətləri

Tarixə nəzər salsaq, biz Məsih obrazının xüsusiyyətlərini Onun şagirdlərindən daha aydın görürük. Əhdi-Ətiqdə Davud oğlu Məsihin lənəti ləğv etməsindən ötrü ölüb dirilməsini təsvir edən konkret ayə olmasa da, buna hər yerdə işarə olunur. Allahın planının necə yerinə yetdiyini bildikdən sonra siz bu işarələri tapıb tam mənzərəni görə bilərsiniz.

Məsələn, sual verilə bilər: «Allah Oğlu kimdir?» Əhdi-Ətiqdə bu sualın cavabı «İsa» deyil. Əhdi-Ətiqdə Adəm Allahın oğlu idi, çünki o, ilk insan idi. İsrail Allahın oğlu adlandırılmışdı (Çıxış 4:23, Huşə 11:1). İsrailin padşahı Allahın oğlu adlandırılmışdı (Zəbur 2:7). Əhdi-Cədiddə İsa «ikinci Adəm» və «Allah Oğludur» (Romalılara 1:4, 1 Korinflilərə 15:45, 2 Korinflilərə 1:19, İbranilərə 4:4).

Biz daha bir sual verə bilərik: «Allahın qulu kimdir?» Adəm Allaha xidmət etdi (Yaradılış 2:15). İsrail Allahın qulu adlandırılmışdı (Yeşaya 41:8, 44:1–2, 21, 45:4, 48:20, 49:3).

Davud və onun nəslindən olan İsrailin başqa padşahları Allahın qulları adlandırılmışdı (2 Şamuel 3:18, Zəbur 89:3, 1 Padşahlar 3:7, 2 Salnamələr 32:16). İsa da Kəlamda Allahın qulu kimi qeyd olunub (Həvarilərin İşləri 3:13, 4:30, Filipililərə 2:1–8).

Allah oğulları və qulları əzab çəkiblərmi? Nə vaxtsa onların yer üzündəki həyatı sona çatdımı? Həmin həyat yeniləndimi? Yeni Edendə onların gələcəyi varmı? Bütün bu suallara cavab «bəli»dir. Adəm, İsrail və Davudun nəslindən olan padşahların hamısı Allahın hüzurundan — Onun yer üzündə yaşadığı məkandan (Eden və Vəd olunmuş torpaq) qovuldu. Amma onlar yeni Edendə Allah və dirilmiş İsa ilə birlikdə yaşamaq üçün satın alınacaqlar.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, bütün bunlar İsaya işarə edir. Bütün hadisələrin *mərkəzində İsa durur*. Kiçik hissələr toplanıb öz yerinə qoyulanda, İsanın bütöv təsviri yaranır. Bu təsvirin bütün hissələri gözlə görünən yerdədir, amma onları yalnız tarixə nəzər salandan sonra görmək olar.

## Bu Nə üçün Vacibdir?

Şər qüvvələr, yəni şeytan, cinlər, xalqlara hökmranlıq edən kiçik rütbəli allahlar hər şeyi bilmirlər. Onlar Allahın ağlına malik deyillər və Onun düşüncələrini dərk edə bilmirlər. Bizə elə gəlir ki, onlar fövqəltəbii varlıqlar olduğuna görə hər şeyi bilirlər. Əslində belə deyil. Hər şeyi bilən ancaq Allahdır. O da bizim tərəfimizdədir.

Günah dünyaya girdiyi üçün şeytanın hamımızın üzərində qanuni səlahiyyəti var. Sözümün canı nədir? Adəmin günahına görə «ölüm bütün insanlara» yayıldı (Romalılara 5:12). İlan lənətləndi, ölülər diyarı — cəhənnəm üzərində hökmranlıq etmək üçün yerə atıldı. Günahın ucbatından hər kəs ölümə və şeytanın hökmranlıq etdiyi ölülər diyarına getməyə məhkum edildi.

Bütün bunlar İsa yer üzünə *ilk dəfə* gələndə və çarmıxda ölüb dirilməklə Allahın xilas planını icra edəndə dəyişildi. Edeni bərpa etməkdə ilk addım bəşəriyyəti ölüm lənətindən qurtarmaq

idi. Bütün imanlılar — Allahın ailəsinin və Padşahlığının üzvləri olanlar artıq ölüm lənətinin və ölülərin ağasının əsiri deyillər. Buna görə də İsa Padşahlığı bərpa etmək xidmətinə (Luka 10:1–9) başlayanda belə demişdi: «Mən Şeytanın ildırım kimi göydən düşməyini görmüşdüm» (Luka 10:18). İsa bilirdi ki, Onun ölümü və dirilməsi günahkarların günahı üçün borcu ödəyəcək və şeytanın bizim üzərimizdə olan səlahiyyətini əlindən alacaq. Padşahlıq ölülər ağasının sonu üçün başlanğıc oldu.

Biz yenə də kim olduğumuzu və kimə bənzər yaradıldığımızı yadımıza salmalıyıq. İmanlı cəmiyyətində imanlıların hamısı birlikdə *Məsihin bədəni* adlanır. İsanın bədəni dirildi. O dirildiyi üçün biz də diriləcəyik (1 Korinflilərə 15:20–23). O, ölülərdən *ilk doğulandır*. Biz göylərdə adları qeyd edilmiş ilk doğulanların ümumi cəmiyyətiyik (İbranilərə 12:22–24). Necə ki Yəhya demişdi: «Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi» (Yəhya 1:12). *Şeytanın Allahın övladlarının üzərində heç bir səlahiyyəti yoxdur*, çünki onlar ölülərdən diriləcəklər. Canlını ölülər diyarında axtarmağın mənası yoxdur.

Allahın istər insan, istərsə də ilahi varlıq olsun, istər sadiq, istərsə də düşmən olsun — Öz sirrini heç kimə açmaq fikri yox idi. Məsihin Allahın məqsədlərini necə həyata keçirəcəyi gizli qalmalı idi. Lakin buna baxmayaraq, Allah gələcəkdə Məsihin bədəndə gəlmiş Allah olduğunu və Eden Padşahlığının bərpası üçün ən son məqsəd olduğunu dəqiqliklə bildirəcəkdi. Biz növbəti iki fəsildə görəcəyik ki, insanların ürəklərində iman yaratmaq və qaranlıq qüvvələrin öz həlaklarına səbəb olmaları üçün Allah kifayət qədər məlumat verdi.

## ON BİRİNCİ FƏSİL

# FÖVQƏLTƏBİİ İSTƏK

Bundan əvvəlki fəsildə biz gördük ki, Əhdi-Ətiq Məsihi görünən yerdə gizlədərək necə təqdim edir. Məsih çarmıxda ölüb dirilməli idi. Bu, Edeni bərpa etmək və bəşəriyyəti xilas etməkdən ötrü Allahın əsas planı idi.

Yalnız insan kimi yer üzünə gələn Allah zəmanət verir ki, Davud nəslindən olan Padşah günaha düşmədən və ruhən yolunu azmadan xalq üzərində hökmranlıq edə bilər. Yalnız bu Padşah Öz xalqı uğrunda ölsə və ölülərdən dirilsə, onda Allah günahı ittiham edib eyni zamanda hamını xilas edə bilər. Yalnız Məsihin ölümü və dirilməsi vasitəsilə günahlı insanlar Allahın ailə toplantısında iştirakçı ola və başlanğıcda planlaşdırıldığı kimi yenilənmiş Eden padşahlığında hökmranlıq edə bilərlər.

Bütün bunlar üçün nə tələb olunurdu? İsa elə etməli idi ki, fövqəltəbii qaranlıq qüvvələr Onu öldürmək üçün insanları yoldan çıxartsın. Eyni zamanda onlar nə etdiklərinin fərqində olmamalı idilər. Paulun korinflilərə dediyi kimi (1 Korinflilərə 2:6–8), əgər onlar həqiqətən etdikləri hərəkətin necə nəticələnəcəyini bilsəydilər, heç vaxt Rəbbi çarmıxa çəkməzdilər.

Biz İsanın həyatı və xidmətinə bu nöqteyi-nəzərdən baxanda onları daha aydın başa düşə bilirik. Məsələn, Əhdi-Cədidin oxucuları elə düşünə bilərlər ki, İsanı çarmıxa gətirib çıxaran xidməti təsadüfi hadisələrdən ibarətdir. Çünki dörd Müjdə bütünlüklə eyni hadisələri təsvir etmir. Məsələn, İsanın doğulması barədə biz yalnız iki Müjdədə (Matta və Luka) oxuya bilərik. Onlardan yalnız birində müdrik

adamlar barədə yazılıb (Matta 2). Bəzi hadisələr Müjdələrdə bir az fərqli ardıcıllıqda təsvir olunub. Amma Müjdələrdə İsanın çarmıxa qədər gördüyü işlər — xəstələrə şəfa verməsi, Allahın Padşahlığını yayması, günahkarları bağışlaması, ikiüzlülüyü ifşa etməsi arabir möcüzəli işlər görən müdrik səyyahın təsadüfi gördüyü işlər deyildi. Müjdənin hekayələrində adi gözlə göründüyündən daha çox sirr var. İsanın etdiklərində daha dərin məna var.

## Şəri Aldatmaq

İsanın vəftizi Onun insanlar qarşısında xidmətinin başlanğıcı idi. Məhz burada Allah İsanı Öz Oğlu kimi insanlar qarşısında elan etdi (Mark 1:11) və Vəftizçi Yəhya Onu «dünyanın günahını aradan götürən» Şəxs kimi təqdim etdi (Yəhya 1:29). Yəhyanın sözlərini oxuyanda biz dərhal çarmıx barədə düşünürük. Amma Yəhyanın şagirdləri belə düşünmürdülər. O vaxt heç kim çarmıx barədə düşünmürdü. İsanın vəftizindən üç il keçəndən sonra O, ölümü haqqında danışmağa başlayanda, şagirdləri Ona etiraz etdi (Matta 17:22–23, Mark 9:30–32). Onlar Rəblərindən tezliklə öləcəyi xəbərini eşitmək istəmirdilər. Şagirdlərə bu, qəribə gəlirdi. Onlar başa düşmürdülər ki, İsanın çarmıxda ölümü başlanğıcdan mövcud olan bir plandır. Niyə bunu başa düşmürdülər? Çünki Əhdi-Ətiqdə Allahın planı aydın təqdim olunmamışdı. Biz bunu əvvəlki fəsildə müzakirə etmişdik.

İsa vəftiz olunduqdan sonra şeytana qarşı durmaq üçün Ruh tərəfindən səhraya aparıldı (Matta 4:1, Mark 1:12, Luka 4:1–13). İblis İsanı sınağa çəkməyə gəlmişdi. O, İsanın kim olduğunu yaxşı bilirdi. Bilirdi ki, İsa Allahın yer üzündə padşahlığını qurmaq üçün göndərilən Məsihdir. «Məsh edilmiş» Məsih Davudun nəslindən olan padşah olmalı idi. Bu, hamıya yaxşı məlum idi. «Dünyanın hökmdarı» şeytan bilirdi ki, İsanın məqsədi onun ərazisini əlindən almaqdır (Yəhya 12:31). İsa Allahın İsraili yaratmazdan əvvəl Babil qülləsində tərk etdiyi xalqları geri qaytaracaqdı (Qanunun Təkrarı 4:19–20, 32:8–9).

İsa ilə şeytan arasında olan söhbəti yada salaq. Şeytan İsanı üç dəfə sınağa çəkdi (Matta 4:3–11). Üçüncü cəhddə iblis İsanın Allahla ünsiyyətini pozmağa çalışaraq Ona dünyanın xalqlarını təklif etdi (Matta 4:8–9). Halbuki İsa Özü elə bunu ondan almağa gəlmişdi:

> İblis yenə İsanı çox yüksək bir dağa çıxartdı. Ona dünyanın bütün padşahlıqlarını və şan-şöhrətini göstərib dedi: «Əgər Sən yerə qapanıb mənə səcdə etsən, bütün bu şeyləri Sənə verəcəyəm».
>
> *Matta 4:8–9*

Şeytanın təklifi Allahın planını pozmaq üçün hiyləgər bir cəhd idi. Məgər Allah bir vaxtlar tərk etdiyi xalqları geri qaytarmaq istəmirdi? Tapşırıq bir səcdə ilə yerinə yetiriləcəkdi. Bunun üçün bircə İsanın Allaha deyil, şeytana ibadət etməsi lazım idi.

Şeytanın təklifindən görünür ki, o, İsanın ölümünü *tələb edən* Allahın planını hələ başa düşmür. İsa da bu barədə ona heç nəyi açıqlamaq istəmədi. Nəyə görə etiraz etdiyini heç ona izah da etmədi. İsa sadəcə şeytana rədd olmağı əmr etdi. Allah Özünə məxsus olanı istədiyi vaxtda istədiyi tərzdə geriyə götürəcək. İsanın tapşırığı təkcə bütün xalqlara hökmranlıq etmək deyildi, həm də Allahın ailəsini yenidən qurmaq idi. Bu ailəyə təkcə İsraili deyil, bütün xalqları da daxil etmək üçün əvvəlcə günahlar yuyulmalı idi. Allah əvvəlcədən planlaşdırmışdı ki, Onun hökmranlığında övladları iştirak edəcəklər. Bəşəriyyətin günahının yuyulması, o cümlədən Allahın planının yerinə yetməsi üçün çarmıx vacib idi. İsa şeytanın təklifinə aldanan deyildi. Amma vaxtı gələndə şeytan özü aldanacaqdı.

## Edenin dadı

İsa səhrada sınağa çəkildikdən dərhal ilk şagirdlərini (Peter, Andrey, Yaqub və Yəhya) çağırdı və cinə tutulmuş insana şəfa verdi (Mark 1:16–28, Luka 4:31–5:11). O, bu işləri sonra da davam

etdirdi, başqa şagirdləri çağırdı və şəfa verdi. İsa daha çox şagird çağırdıqca onlara cinləri qovmaq, insanları bütün xəstəliklərdən və fiziki qüsurlardan sağaltmaq səlahiyyəti verdi (Luka 9:1–5).

İsa əvvəlcə on iki şagirdini çağırdı. Bu rəqəm təsadüfi rəqəm deyildi. Bu, on iki İsrail qəbiləsinin rəmzi idi. İsa İsraili fikrində tutaraq, Padşahlıq planını həyata keçirməyə başladı. Axı İsrail Allahın irsidir və bütün başqa xalqların arasından seçilib (Qanunun Təkrarı 32:8–9). Paul da Müjdənin yayılmasına eyni cür yanaşırdı: əvvəlcə yəhudilərə, sonra isə qeyri-yəhudilərə Kəlam təbliğ olunmalı idi (Romalılara 1:16–17).

İsa on iki şagirdi ilə kifayətlənmədi. Luka 10-cu fəsildə O, yetmiş nəfərə şəfa vermək və cinləri qovmaq tapşırığını verdi (Luka 10:1, 9, 17). Bu rəqəm də təsadüfi rəqəm deyildi. Bu, Yaradılış 10-cu fəsildə Allahın Babil qülləsində tərk etdiyi və kiçik rütbəli allahların hökmranlığına tapşırdığı xalqların sayıdır (Qanunun Təkrarı 4:19–20, 32:8–9). Bəzi tərcümələrdə yetmiş deyil, yetmiş iki yazılıb. Çünki Əhdi-Ətiqin bəzi qədim əlyazmalarında Yaradılış 10-cu fəsildəki xalqların adları elə təqdim olunur ki, onlar yetmiş iki edir. İstənilən halda, İsanın göndərdiyi şagirdlərin sayı Yaradılış 10-cu fəsildə xalqların sayı ilə uyğun gəlir. On iki nəfəri çağırmaq padşahlığın İsrailə gəlməsinə işarə olduğu kimi, yetmiş nəfəri göndərmək də o biri xalqların padşahlıq üçün geri alınacağını göstərir.

Yetmiş şagird geri qayıdanda (Luka 10:17) İsa deyir: «Mən Şeytanın ildırım kimi göydən düşməyini görmüşdüm» (Luka 10:18). Bu sözlərdə olduqca dərin məna var: böyük dəyişikliklər başlamışdı. İnsanlar İsaya ürəklərini verəndən sonra şeytan onlar üzərində olan bütün səlahiyyətlərini itirir və Allahın yanına gedib «bacı-qardaşları təqsirləndirməsinə» son qoyulur (Vəhy 12:10). Beləcə o, təqsirləndirmək üçün əlində heç bir əsası olmayan ittihamçıya çevrilir.

## Gəl! Tut məni!

İsa üç il ərzində Allahın gələcək Padşahlığı haqqında danışır, insanlara Allahın məhəbbətini göstərir və Edendə həyatın necə olacağını nümayiş etdirirdi. Bundan sonra O, son — həqiqi məqsədi üçün hazırlaşmağa başladı.

İsa Yerusəlimə sonuncu dəfə getməzdən əvvəl şagirdlərini İsrailin şimalına apardı. O, çarmıxa çəkilməkdən ötrü səbəb yaratmalı idi. Şər qüvvələri «duelə çağırmaq» üçün bundan daha yaxşı yer olmazdı.

İsa şagirdlərini Filip Qeysəriyyəsi adlanan yerə gətirmişdi. Bu yeri romalılar belə adlandırmışdılar. Əhdi-Ətiqdə isə bura Başan deyilirdi. Biz bu barədə 9-cu fəsildə danışmışıq. Başan ölülər diyarının qapıları — cəhənnəmin darvazaları hesab olunurdu. Filip Qeysəriyyəsi Xermon dağının ətəyində yerləşirdi. Yəhudilərin fikrincə, Yaradılış 6:1–4-cü ayələrdə Allah oğulları üsyan edərək məhz bu yerə enmişdilər. Qısa sözlə desək, Əhdi-Ətiq dövründə Başan və Hermon kosmik şər qüvvələrin mərkəzi idi.

İsa elə bu yerdə məşhur sualını vermişdi: «Bəs siz nə deyirsiniz? Sizcə Mən kiməm?» (Matta 16:15) Peter cavab vermişdi: «Sən var olan Allahın Oğlu Məsihsən» (16-cı ayə). İsa onu təriflədi və bu sözləri əlavə etdi:

> Nə bəxtiyarsan, ey Yunus oğlu Şimon! Çünki bunu sənə bildirən ət və qan deyil, göylərdə olan Atamdır. Mən sənə deyirəm ki, sən Petersən və Mən cəmiyyətimi bu Qayanın üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək.
>
> *Matta 16:17–18*

İsanın dediyi «qaya» sözü barədə neçə əsrdir ki, mübahisə gedir. Bu sözün mənasını başa düşmək üçün həmin ərazinin coğrafiyasına

diqqət yetirmək lazımdır. Filip Qeysəriyyəsi Başanın uzaq şimal ərazisində yerləşir. Əhdi-Ətiq dövründə belə hesab olunurdu ki, ölülər diyarının qapıları bu ərazidədir. Filip Qeysəriyyəsi dağın ətəyində yerləşir. «Qaya» həmin dağdır. «Ölülər diyarının qapıları» İsa və şagirdlərinin dayandığı həmin yeri işarə edir.

İsa qaranlıq qüvvələri döyüşə səsləyirdi. Bəşəriyyət günaha batdıqdan sonra Allah ilə əbədi həyatı itirdi, əvəzində isə ölümü və Allahdan əbədi ayrılığı qazandı. Ölülərin ağası şeytan və iblis kimi tanınmış ilan, bəşəriyyət üzərində səlahiyyətə sahib oldu. Hər bir insan ölülər aləmində ona qoşulmalı idi. Amma Allahın başqa planı var idi. Allahın sirli planı bu idi ki, bəşəriyyətin günahını yumaq üçün İsanı yer üzünə göndərsin. Bu, ölülər diyarının qapılarına birbaşa hücum idi. Ölülər ağası və onun qüvvələri Allahın Padşahlığının qarşısında dayana bilməzdi. Matta 16-cı fəsildə İsa iblisin qapısına gəlir və onu döyüşə çağırır. İsa istəyirdi ki, şeytanı döyüşə təhrik etsin. Nəyə görə? Çünki İsanın Allahın sirli planını həyata keçirməsinin vaxtı gəlib çatmışdı.

İsa təkcə sözlə şeytana meydan oxumadı. O daha da irəliyə getdi. Matta da, Mark da, Luka da bu fikirlə razıdır ki, İsanın növbəti addımı Onun görkəminin dəyişilməsi idi. Markın Müjdəsində belə yazılıb:

> Altı gündən sonra İsa Özü ilə yalnız Peter, Yaqub və Yəhyanı götürüb hündür bir dağa çıxdı. Onların qarşısında görünüşü dəyişdi. Onun libası göz qamaşdırıcı ağ rəng aldı. Yer üzündə heç bir paltar təmizləyən onu belə ağ edə bilməzdi. O an İlyas və Musa onlara göründü. Onlar İsa ilə söhbət edirdi. Peter sözə başlayıb İsaya dedi: «Rabbi! Nə yaxşı ki biz buradayıq. Gəl üç çardaq quraq, biri Sənin, biri Musa, biri də İlyas üçün». O bilmirdi ki, nə desin, çünki onları dəhşət bürümüşdü. Bu zaman bir bulud onların üzərinə kölgə saldı. Buluddan bir səs gəldi: «Bu Mənim sevimli

Oğlumdur, Ona qulaq asın!» Birdən ətrafa baxanda artıq yanlarında İsadan başqa kimsəni görmədilər.

*Mark 9:2–8*

İsanın görkəminin dəyişməsi Xermon dağında baş verir. İsa Kim olduğunu — Allahın əks olunmuş izzəti olduğunu Peterə, Yaquba və Yəhyaya göstərmək üçün məhz bu yeri seçdi. Şeytana və qaranlıq qüvvələrə isə bunu elan etdi: «*Mənə məxsus olanı geri götürmək üçün yer üzünə gəldim. Allahın Padşahlığı yaxınlaşdı*». Yəni, «Mən buradayam! *Gücünüz çatırsa, gəlin!*»

Görkəmi dəyişiləndən dərhal sonra İsa Yerusəlimə tərəf getdi və orada öləcəyini şagirdlərinə dedi. Bu da təsadüfi deyildi. Onlar bu xəbəri eşitmək istəmirdilər. Şeytan və şər qüvvələr isə artıq hərəkətə keçmişdi. Onlar dərhal İsadan canlarını qurtarmaq istədi. İsanın da istəyi elə bu idi. Onun ölümü hər şeyin açarı olacaqdı.

## Bu Nə üçün Vacibdir?

İsanın xidmətinin dəqiq məqsədi var idi. O, Allahın Padşahlığını yer üzündə qurmalı idi. İsa bunu çox yaxşı başa düşürdü. Onun yer üzünə ikinci dəfə qayıdacağı günə qədər, yəni böyük Edenin yer üzünə gələcəyi günə qədər Padşahlıq yayılacaqdı.

Bizim həyatımız Onun həyatı kimi vacib rol oynamasa da, şagird kimi hər birimizin öz rolu var. Biz buna inanmalıyıq və həyat tərzimiz imanımızı əks etdirməlidir. İmanlılar Allahın ailə toplantısına müşahidəçilər deyil, iştirakçılar olmaq üçün qoşulublar (Kolosselilərə 1:13).

İsanın bir məqsədi də insanlara Edenin necə olduğunu və gələcəkdə həyatın Allah ilə necə olacağını göstərmək idi. Allahın ailəsində və Padşahlığında heç bir xəstəlik və fiziki qüsur olmayacaq. Orada düşmən qüvvələr də olmayacaq. Allahın Padşahlığı bağdan daha böyük, İsraildən daha genişdir. Allahın Padşahlığı hər yerdə

olacaq. Oraya bütün xalqlar daxil olacaq. Allahın Padşahlığı Eden kimi, yer üzündə cənnət kimi olacaq.

Bizim tapşırığımız İsaya oxşamaqdır. Biz də Onun kimi Allahın surətində yaradılan qardaşlarımızın bədəninin və qəlbinin qayğısına qalmalıyıq. Biz onları Padşaha iman etməyə yönəltməli və Ona sadiq qalmaları üçün ruhlandırmalıyıq. Məsihin etdiyi kimi «qəlbi sınıq olanlara» şəfa vermək və «əsirlərə azadlıq» elan etmək üçün fövqəltəbii qüvvəyə malik olmaq vacib deyil (Yeşaya 61:1). Əslində bunlar artıq fövqəltəbii işlərdir. Bu işləri görməkdən ötrü qaranlığa qarşı durmaq və strateji görüntüyə malik olmaq gərəkdir. Kiminsə qəlbinin İsaya yaxınlaşması üçün Müqəddəs Ruh istənilən yaxşı əməldən istifadə edəcək. Müjdənin yayılması bəhrəsiz olmayacaq. İsanın xeyirxahlığı Onun Müjdəsi ilə həmahəngdir. Hər ikisi vacibdir. İmanlılar bu nümunəyə əsaslanmalıdır. Bizim işimiz və Padşahlıq barədə görüntü bundan ibarətdir.

Nəhayət, biz yadda saxlamalıyıq ki, şər qüvvələr Padşahlıq görüntüsü ilə müqayisədə məhdud və *zəifdir*. İsa artıq «Allahın sağındadır. Mələklər, hakimlər və qüvvələr də Ona tabedir» (1 Peter 3:22). Biz Onunla birlikdə artıq hökmranlıq edənlərik (Kolosselilərə 3:1, 2 Timoteyə 2:12, Vəhy 2:26, 3:21). Amma bu, hələ baş verməyib. Ölülər diyarının qapıları yer üzündə Allahın Padşahlığını təmsil edən imanlı cəmiyyətinin inkişafına və irəliləməsinə qarşı dura bilməyəcək. Bu böyük dəyişikliklərdə iştirak etməyə biz qərar verməliyik.

ON İKİNCİ FƏSİL

# BULUDLAR ÜZƏRİNDƏ ATLI

Mən on birinci fəsli İsanın ölülər diyarının qapısında və Xermon dağında qaranlıq qüvvələri şirnikləndirdikdən dərhal sonra ölümü barədə danışması ilə bitirdim. Bu çağırış Rəbbin məhkəməsinə və çarmıxda ölümünə gətirib çıxaran hadisələrin başlanğıcı oldu. Məsihçilər İsanın məhkəməsi barədə dəfələrlə oxuyublar. Amma bunların arxasında diqqət yetirmədiyimiz fövqəltəbii məzmun durur.

İsanın yəhudi rəhbərlərdən nə üçün ölüm cəzası aldığını və bu işin icrasının vali Pilata ötürüldüyünü başa düşmək üçün biz Əhdi-Ətiqdə Daniel kitabına nəzər salmalıyıq. Burada Allahın öz səmavi ordusu — ilahi toplantısı ilə görüşünə diqqət yetirməliyik.

## Əzəldən Var Olan və Onun Toplantısı

Daniel peyğəmbərin kitabının 7-ci fəsli qəribə bir görüntü ilə başlayır. Daniel dənizdən dörd heyvanın çıxdığını görür (Daniel 7:1–8). Onlar hamısı əcaib idi. Amma dördüncü heyvan daha dəhşətli görünürdü. Əhdi-Ətiqdə yuxular yozulanda həm əşyalar, həm də canlılar nəyisə ifadə edirdi. Bu yuxuda Danielin gördüyü dörd heyvan dörd imperiya demək idi. Biz bu görüntünün Daniel peyğəmbərin kitabının 2-ci fəslində Navuxodonosorun yuxusu ilə əlaqəli olduğunu bilirik. Burada Babil və sonrakı üç başqa imperiya haqqında danışılır. Amma bizi Danielin sonrakı ayələrdə təsvir etdikləri maraqlandırır:

> Nəhayət, mən gördüm ki, Taxtlar quruldu və Əzəldən Var Olan oturdu. Onun əynində qar kimi bəyaz paltar var idi, saçları yun kimi ağappaq idi. Taxtı alov dilləri tək, çarxları yanar od kimi idi. Önündən odlu çay çıxıb axırdı. Minlərlə nəfər Ona xidmət edir, on minlərlə nəfər Onun hüzurunda durmuşdu. Məhkəmə iclası başlandı və kitablar açıldı.
>
> *Daniel 7:9–10*

Biz bilirik ki, Əzəldən Var Olan İsrailin Allahıdır. Əgər Yezekelin Allahın taxt-tacını (Yezekel 1) necə təsvir etməsinə diqqət yetirsək, bunu görmək çox asandır. Od, təkərlər və taxtın üzərində insana bənzər bir Şəxs — bütün bunlar Danielin gördüklərinə çox oxşardır.

Görüntüdə bir taxt deyil, çoxlu taxtların olduğuna fikir vermisinizmi? Danielin görüntüsündə çox taxt var idi (Daniel 7:9). Allahın bütün məhkəmə iclasını, toplantısını orada oturtmaq olardı.

Görüntüdə səmavi məhkəmə heyvanların, yəni imperiyaların taleyini həll etmək üçün toplaşır. Belə qərar verilir ki, dördüncü heyvan öldürülsün və o biri üç heyvanın hakimiyyəti əllərindən alınsın (Daniel 7:11–12). Onların yerinə isə başqa Padşah və Padşahlıq gələcək. Məhz burada maraqlı məqam yaranır.

## Buludlar Üzərində Gələn Bəşər Oğlu

Daniel öz görüntüsünü nəql etməyə davam edir:

> Gecə gələn görüntülərdə gördüm ki, budur, bəşər oğluna bənzər Biri göyün buludları ilə gəlir. O, Əzəldən Var Olana yaxınlaşdı və Onun hüzuruna gətirildi. Ona hakimiyyət, izzət və padşahlıq verildi ki, bütün xalqlara, millətlərə və dillərə mənsub adamlar Ona xidmət etsin. Onun hakimiyyəti sona yetməyən əbədi hakimiyyətdir. Onun padşahlığı əsla yox olmayacaq.
>
> *Daniel 7:13–14*

«Bəşər Oğlu» Əhdi-Ətiqdə tez-tez istifadə olunan bir ifadədir. Burada insandan danışılması təəccüblü deyil. Təəccüblü olan bu insanın Kəlamın bu yerində təsvir olunmasıdır. Daniel 7:13-cü ayədə bu adamı *göyün buludları ilə* əzəldən Var Olana yaxınlaşan adam kimi təsvir edir.

Burada təəccüblü nə var? Məsələ bundadır ki, bu təsvir Əhdi-Ətiqdə başqa yerlərdə *yalnız* Allaha aid edilir (Yeşaya 19:1, Qanunun Təkrarı 33:26, Zəbur 68:32–33, Zəbur 104:1–4). Amma Daniel 7-ci fəsildə Allah artıq əzəldən Var Olan kimi *təqdim olunur*. Belə fikir yaranır ki, Daniel görüntüsündə eyni vaxtda insan olan «ikinci Allahı» görür. Bu, məsihçilərin Allahın birdən artıq şəxsiyyət olduğuna inanması kimidir.

Söhbət elə bundan gedir.

İsa Mattanın Müjdəsi 26-cı fəsildə Qayafa qarşısında, məhkəmədə həyatı tükdən asılı vəziyyətdə durarkən, orada oturanların hamısına təsir edən sözlər deyir:

> Başçı kahinlər və Ali Şuranın hamısı İsanı edam etmək üçün Onun əleyhinə yalançı şahidlik ifadəsi axtarırdılar. Çoxlu yalançı şahid gəldi, lakin yenə də axtardıqlarını tapmadılar. Axırda iki şahid gəlib dedi: «Bu Adam dedi: "Mən Allahın məbədini dağıdıb üç gün ərzində tikə bilərəm"». Baş kahin ayağa qalxıb İsaya dedi: «Sənin heç cavabın yoxdur? Onlar Sənin əleyhinə bu nə ifadədir verirlər?» Amma İsa susmaqda davam etdi. Baş kahin isə Ona dedi: «Səni var olan Allaha and etdirirəm, bizə de, Allahın Oğlu Məsih Sənsənmi?» İsa da ona dedi: «Sənin dediyin kimidir. Hətta sizə deyirəm: bundan sonra Bəşər Oğlunun Qüdrətli Olanın sağında oturduğunu və göyün buludları üzərində gəldiyini görəcəksiniz». Onda baş kahin əynindəki paltarını cırıb dedi: «O, Allaha küfr etdi! Artıq şahidlərə nə ehtiyacımız var? Elə indi Onun küfr söylədiyini eşitdiniz! Bəs buna nə deyirsiniz?» Onlar cavab verib dedilər: «O, ölüm cəzasına layiqdir».
>
> *Matta 26:59–66*

İsa Qayafanın sualına sanki mətləbə dəxli olmayan bir cavab verir. O, Daniel peyğəmbərin kitabı 7:13-cü ayədən sitat gətirir. «Qayafa, *Mənim həqiqətən kim olduğumu bilmək istəyirsən? Onda diqqətlə qulaq as*». Onun cavabına Qayafa dərhal münasibətini bildirir. O başa düşür ki, İsa Daniel peyğəmbərin kitabı 7:13-cü ayədə haqqında danışılan «ikinci Allahın» surəti olduğunu söyləyir. Çünki bu İnsan Əhdi-Ətiqdə yalnız Allahın təsvir olunduğu kimi təsvir olunmuşdu. O, Özü haqqında insan sürətində olan Allah kimi danışır. Bu, küfr sayılırdı və ölüm cəzası üçün onlara əsas verirdi.

Təbii ki, İsa bunu bilirdi. Onun Özünü qorumaq fikri yox idi. O bilirdi ki, Allahın Padşahlığını bərpa etmək, imanlıları Allahın ailəsinə gətirmək və Babildə Allahın rədd etdiyi xalqları şər qüvvələrin əlindən almaq üçün *ölməlidir*.

O öldü. 22-ci Zəburda çarmıxın fiziki nəticələri Davudun sözləri ilə təsvir edilir və çarmıxın sözlə ifadə olunmayan dəhşətləri göstərilir. Məzmurçu əzabdan nalə çəkir:

Məni hər görən lağ edir,
  Dodaq büzüb, başını yırğalayıb belə deyir:
«Qoy güvəndiyi Rəbb onu azad etsin,
  Rəbb ondan razı qalıb, qoy onu xilas etsin».
Lakin bətndən dünyaya məni gətirən,
  Ana qucağında ikən mənə əminlik verən Sənsən.
Doğulandan bəri Səndən asılıyam,
  Ana bətnindən bəri Allahım Sənsən.
Məndən uzaq durma, çünki əzab yaxındır,
  Köməyimə çatan yoxdur.
Nə qədər buğa məni dövrəyə salıb,
  Güclü Başan buğaları yan-yörəmi bürüyüb.
Yırtıcı aslanlar kimi nərə çəkirlər,
  Məni parçalamaq üçün ağızlarını açırlar.

Mən su kimi töküldüm,
Bütün sümüklərim oynaqlarından çıxdı.
*Zəbur 22:7–14*

Bu təsvirin dəhşətli hissəsi *Başandan* olan güclü buğalardır. Qeyd etdiyim kimi, Əhdi-Ətiq dövrlərində Başan şərin məkanı və ölülər diyarının qapıları idi. Bu ərazi buğalar və inəklər rəmzi olan Baal bütünə sitayiş üçün mərkəz idi. «Başan buğaları» cinlər və qaranlıq qüvvələr deməkdir. Bizim dövrümüzdə Klayv S. Lyuisin «Şir, cadugər və paltar şkafı» kitabında bu obraz bütün müdhiş mənfurluğu ilə təsvir olunub. Bu kitabı oxuyan və ya filminə baxan kimsə inanmıram ki, Aslanın təvazökarlıqla öz həyatını qurbangah üzərində Ağ cadugərin sevinən dəstəsinə təslim etməsini yaddan çıxarsın.

İsa şeytanı aldatdığı kimi Aslan da Ağ cadugəri aldatdı. Şərin qələbə anı kimi qəbul etdiyi əslində onun tam və həmişəlik məğlubiyyətinə çevrildi.

## Siz allahlarsınız, lakin İnsan kimi Öləcəksiniz

Çarmıxdakı qələbə sayəsində şeytan nəinki Adəmin övladlarının həyatı üzərində səlahiyyətini itirdi, həm də onu üsyanda dəstəkləyənlər, xalqlar üzərində olan ruhani varlıqlar (*elohim*) da tezliklə səlahiyyətlərindən məhrum olunacaqdı.

Həmin xalqlar üzərində hökmranlığı Küll-İxtiyar, İsrailin Allahı fövqəltəbii varlıqlara tapşırmışdı (Qanunun Təkrarı 4:19–20, 32:8–9). Onların nə vaxt Allahın düşməninə çevrilməsi barədə bizə heç nə deyilməyib, amma onlar düşmən idi. Onlar Allahın xalqını, İsraili Ona ibadət etməkdən uzaqlaşdırıb onlara qurban gətirməklə yolundan azdırmışdı (Qanunun Təkrarı 17:1–3, 29:26–27, 32:17). Allahın ilahi toplantısı barədə məlumat əldə etmək üçün ikinci fəsildə 82-ci Zəbura baxdıq. Burada biz gördük ki, *elohim*

öz səlahiyyətlərindən sui-istifadə edib pisliyə dəstək olur. Onlar Allahın qanununa boyun əymirdi və ədalətsizlik edirdilər:

Allah Öz toplantısında durub,
Hökmünü verərək allahlar (*elohim*) arasında deyir:
«Nə vaxtadək nahaq hökm verəcəksiniz,
Pislərə tərəfkeşlik edəcəksiniz? Sela
Yoxsulun və yetimin işinə ədalətlə baxın,
Məzlumun və fəqirin haqqını verin.
Yoxsul və möhtacları qurtarın,
Pislərin əlindən onları azad edin.
Nə bilirsiniz, nə də ki anlayırsınız!
Yerin təməlləri sarsılır, qaranlıqda dolanırsınız».

*Zəbur 82:1–5*

Zəburun ikinci hissəsində deyilir ki, Tanrı allahlara onların aqibətlərinin pis olacağını demək üçün bu ilahi toplantını təşkil edib. Allah xalqları geriyə tələb edəndə onların hökmranlıqları sona yetəcək:

Demişəm: «Siz allahlarsınız,
Hər biriniz Haqq-Taala övladlarısınız.
Lakin insan kimi öləcəksiniz,
Adi bir hökmdar kimi torpağa düşəcəksiniz».
Ey Allah, qalx, dünyaya hakim ol,
Çünki bütün millətlərə Sən sahib olacaqsan!

*Zəbur 82:6–8*

Allah xalqları nə vaxt geriyə tələb edəcək? Biz bunun cavabını bir az əvvəl Daniel peyğəmbərin kitabında 7:14-cü ayədən oxuduq:

Ona hakimiyyət, izzət və padşahlıq verildi ki, bütün xalqlara, millətlərə və dillərə mənsub adamlar Ona xidmət

etsin. Onun hakimiyyəti sona yetməyən əbədi hakimiyyətdir. Onun padşahlığı əsla yox olmayacaq.

*Daniel 7:14*

Daniel 7:13–14-cü ayələrdə məna aydındır: Bəşər Oğlu Padşahlığı qəbul edəndə bu, qaranlığın fövqəltəbii qüvvələrinin sonu üçün başlanğıc olacaq. İsa diriləndə Padşahlığı qəbul etdi. Allah «bu qüdrətlə Məsihdə elə fəaliyyət göstərdi ki, Onu ölülər arasından dirildib səmada Öz sağında oturtdu və hər başçı, hakim, qüvvə və ağadan, yalnız bu dövrdə deyil, gələcək dövrdə də çəkiləcək hər addan Onu çox yüksəltdi» (Efeslilərə 1:20–21).

## Bu Nə üçün Vacibdir?

Çarmıxa qədər şeytanın bizim üzərimizdə əbədi səlahiyyəti var idi. Bütün insanlar ölür və ölülər diyarına, *onun səltənətinə* gedir. Əgər İsanın qurbanı və dirilməsi olmasaydı, biz orada qalardıq. Biz Onun çarmıxda gördüyü işinə iman etməklə Onunla birlikdə dirildik. On birinci fəsildə qeyd etdiyim kimi, padşahlıq yer üzündə başlayanda şeytan Allahın hüzurundan qovuldu (Luka 10:18). Allah artıq imanlılara qarşı ittihamı qəbul etməyəcək. Artıq şeytanın bizim üzərimizdə heç bir səlahiyyəti yoxdur.

Bəs onda biz niyə elə yaşayırıq ki, sanki onun üzərimizdə səlahiyyəti var?

Xilas əməllərimizlə əldə olunmur. Bu, iman vasitəsilə lütflə əldə olunan hədiyyədir (Efeslilərə 2:8–9). Bu da o deməkdir ki, xilası bizim saleh olmayan əməllərimizə görə *itirmək* mümkün deyil. Əməllərlə qazanılmayan bir şeyi əməllərə görə itirmək olmur. Xilas olmaq üçün imanda sadiqlik lazımdır. Biz İsanın şeytandan bütün səlahiyyətləri aldığına inanmalıyıq, eləcə də başqa allahlardan, onlarla bağlı inanclardan üz döndərməliyik.

Bu, Allahın Padşahlığı barədə xalqlara çatdırmalı olduğumuz həmin Müjdədir (Matta 28:19–20). Biz Onun Kəlamına itaət

etdikcə, hər dəfə bir insan imana gəldikcə düşmən allahların, şər başçıların və hakim olanların hökmranlıqları azalacaq. Ölülər diyarının qapıları dirilməyə qarşı dura və Müjdənin yayılmasını dayandıra *bilməyəcək*.

Bütün bunlar İsanın çarmıxa çəkildiyi vaxt şagirdlərə həqiqət kimi görünmürdü. Amma onlar tezliklə Allahın Müjdəsini möhtəşəm və yaddan çıxmayan bir tərzdə anlayacaqdılar.

ON ÜÇÜNCÜ FƏSİL

# BÖYÜK DƏYİŞİKLİK

Müjdələrdə İsanın hekayələrindən — doğulması, ölümü və Dağüstü Vəzdən başqa Əhdi-Cədiddə ən çox məşhur hissə Əllinci Gün bayramında Müqəddəs Ruhun İsanın davamçılarının üzərinə gəlməsidir (Həvarilərin İşləri 2). Bu hadisə imanlı cəmiyyətinin doğulmasının və İsanın adı ilə Müjdənin dünyaya yayılmasının başlanğıcı oldu.

Kəlamın bu hissəsi hamıya yaxşı məlumdur. Lakin həmin gün əslində nə baş verdiyini anlayanlar çox azdır. Həvarilərin İşləri 2-ci fəsildə bildirilir ki, Allah Babil qülləsindən bəri dünyada mövcud olan Əhdi-Ətiqin kosmik coğrafiyasını — kiçik rütbəli allahların hökmranlığı altına olan başqa xalqların yaşadığı kosmik coğrafiyanı dəyişdirməyə başlayır. Əllinci Gün bayramında ruhani döyüş üçün qədim strategiya aşkarlandı — Allahın carçıları İsanın Müjdəsini Onun Babildə rədd etdiyi xalqlara çatdırmalı idilər.

## Əllinci Gün Bayramı

Əllinci Gün bayramında baş verənlər, həqiqətən də, qeyri-adi idi:

> Əllinci Gün bayramı zamanı onların hamısı bir yerə yığılmışdı. Birdən güclü külək uğultusu kimi göydən bir səs gəlib onlar oturan evin hər tərəfini bürüdü. Onlara göründü ki, nə isə alov kimi dillərə parçalanaraq hər birinin üstünə düşür. Onların hamısı Müqəddəs Ruhla doldu və Ruhun danışdırdığına görə başqa dillərdə danışmağa başladılar. Bu

vaxt səma altında mövcud olan bütün millətlər arasından gələn mömin yəhudilər Yerusəlimdə yaşayırdılar. Bu səs gələndə orada böyük izdiham toplandı. Hamı öz dilində danışıldığını eşidəndə çaş-baş qaldı. Mat qalaraq heyrət içində dedilər: «Bu danışanların hamısı Qalileyalı deyilmi? Bəs necə olur ki, biz hamımız öz ana dilimizi eşidirik?»

*Həvarilərin İşləri 2:1–8*

Bu qeyri-adi hadisə bizi bir daha Əhdi-Ətiqin fövqəltəbii dünyagörüşünə nəzər salmağa qaytarır. Amma təsvir olunanların çoxu tərcümədə aydın görünmür. Ruhun gəlişini ifadə edən «külək uğultusu» Əhdi-Ətiqdə Allahın hüzurunun tanınmış təsviridir (2 Padşahlar 2:1, 11, Əyyub 38:1, 40:6). Od və alov da Allahın təsvir olunmasında işlənən sözlərdən idi (Yezekel 1:4, Yeşaya 6:4, Daniel 7:9, Çıxış 3:2, 19:18, 20:18).

Kəlamın bu hissəsində aydın görünür ki, Allah Özü Əllinci Gün bayramında iştirak edirdi. O, düşmənlərinə çevrilmiş (Zəbur 82) kiçik rütbəli allahlara tapşırdığı xalqları onlardan geri almaq istəyirdi (Qanunun Təkrarı 4:19–20, 32:8–9).

Allah bu məqsədinə çatmaq üçün şagirdlərin yeni danışdığı dillərdən istifadə etdi. O, İsanın yəhudi davamçılarına imkan verdi ki, Əllinci Gün bayramında yığışan o biri yəhudilərə danışsınlar. Həmin yəhudilər düşmən allahların hökmranlığı altında olan *başqa* xalqlar arasında yaşayırdılar. Onlar Müjdəni eşidib iman edəndə evlərinə qayıdıb başqalarına da İsa haqqında danışacaqdılar.

## Əllinci Gün və Babil

Allah Babil qülləsində baş verən hadisəyə görə qərara gəldi ki, xalqları səpələsin və onları başqa allahlara həvalə etsin (Qanunun Təkrarı 4:19–20, 32:8–9). İlk baxışda adama elə gəlir ki, Babildəki hadisə ilə Həvarilərin İşləri 2-ci fəsildə baş verənlər arasında heç bir əlaqə yoxdur. Amma mətni yazıldığı dildə oxuyanda bu əlaqəni aydın görmək olar.

Həvarilərin İşləri 2-ci fəsildə iki vacib məqam Əllinci Gün bayramındakı hadisəni Babildəki hadisə ilə əlaqələndirir. Birincisi, «alov kimi dillər» Kəlamda «parçalanaraq» kimi təsvir olunub. İkincisi, bütün xalqlar arasında yaşayan yəhudilərdən ibarət izdihamın «çaş-baş qaldığı» qeyd edilir. Azərbaycan dilində elə də inandırıcı səslənmir. Amma Luka bu Müjdəni yunan dilində yazır. Buradakı «parçalanaraq» və «çaş-baş qaldı» kimi tərcümə olunan yunan sözləri Yaradılış 11:7 və Qanunun Təkrarı 32:8-ci ayədə istifadə olunur. Hər iki ayə dillərin parçalanmasından, Babildə xalqlardan və nəticədə yaranan çaşqınlıqdan bəhs edir.

«Həvarilərin İşləri»ni yazan Luka yəhudi deyildi. O, yalnız yunan dilində oxuya bilirdi. Çox güman ki, Luka o vaxtlar və bu gün də *Septuaqinta* kimi çox tanınan Əhdi-Ətiqin yunan tərcüməsindən istifadə edirdi. İbrani dilində çox az adam oxuya bildiyinə görə *Septuaqinta* tərcüməsi ilk imanlı cəmiyyətləri üçün Əhdi-Ətiq idi. Luka Həvarilərin İşləri 2-ci fəsli yazanda Babil qülləsində olan hadisə barədə düşünürdü.

Bu iki hadisəni əlaqələndirmək niyə lazım idi? Əllinci Gün bayramında baş verənlər barədə düşünün. Allah Əhdi-Ətiqdə çox vaxt külək və alovla gəldiyi kimi, Müqəddəs Ruh da beləcə gəldi. Alov dilləri şagirdlərə elə qabiliyyət verdi ki, bayram üçün dünyanın hər yerindən Yerusəlimə toplaşmış yəhudilərin dillərində danışa bildilər və bu zaman Babildə müxtəlif dillərə görə baş verən çaşqınlıq aradan götürüldü. Onlardan üç min nəfəri İsanın Müjdəsinə iman etdi (Həvarilərin İşləri 2:41).

İsanı Məsih kimi qəbul etmiş həmin yeni imanlılar Müjdəni öz ölkələrinə — Babil qülləsindən sonra səpələnmiş xalqlara aparacaqdı. Yaradılış 11-ci fəsildə Allah xalqlardan üz döndərdi və bundan sonra dərhal Yaradılış 12-ci fəsildə O, Öz yeni xalqını yaratmaq üçün İbrahimi çağırdı. Beləcə Allah üz döndərdiyi xalqlardan insanları toplayacaqdı. O, qeyri-yəhudiləri İbrahimin nəslindən olan yəhudi imanlılarla birlikdə Öz imanlı ailəsinə qovuşduracaqdı. Vaxtı gələndə Allahın Padşahlığı düşmən allahların padşahlıqlarını ələ keçirəcəkdi.

Burada ən maraqlısı Həvarilərin İşləri 2-ci fəsildə sadalanan xalqların siyahısı və onların təqdim olunduğu ardıcıllıqdır. Əgər bu xalqları xəritədə axtarsanız, siz şərqdən, yəhudilərin Əhdi-Ətiqin sonunda sürgün olunduqları Babil və Fars dövlətindən başlayacaq və o vaxtlar yerin ən ucqar nöqtəsi hesab olunan qərbdə qurtaracaqsınız. Siz həmin məsafəni qət edəcək və Yaradılış 10-cu fəsildə sadalanmış xalqları — kiçik rütbəli allahların hökmranlığı altına düşmüş xalqları orada görəcəksiniz.

## Mübarizəmiz qandan və ətdən ibarət olan insanlara qarşı deyil

Həvarilərin İşləri kitabının çox hissəsi Paulun müjdəçilik səfərləri haqqındadır. Paul qeyri-yəhudilərə Müjdəni yayan həvari idi. Allah onu İsraildən kənarda xalqlar arasında imanlı cəmiyyətləri yaratmaq üçün göndərmişdi. Paulun səfərləri və həyatında olan vəziyyətlər, məsələn, romalılar tərəfindən həbs olunması onu qərbə gətirib çıxarmışdı.

Paul çox vaxt məktublarında öz xidmətinə və Müjdənin yayılmasına qarşı duran ruhani qüvvələr barədə danışırdı. Şər qüvvələr üçün istifadə etdiyi sözlərdən görünür ki, o, Əhdi-Ətiqin kosmik coğrafiyasını başa düşmüşdü. Siz qaranlığın gözəgörünməz qüvvələri üçün Paulun işlətdiyi sözlərdə ümumiliyi görürsünüzmü?

- hakimlər, başçılar (Efeslilərə 1:20–21, 6:12, Kolosselilərə 2:15)
- hökmdarlar (Efeslilərə 1:20–21, 3:10, 6:12, Kolosselilərə 2:15, 1 Korinflilərə 2:6)
- qüvvələr (Efeslilərə 1:20–21, 3:10)
- hökmranlıqlar (Kolosselilərə 1:16)
- ağalar (Efeslilərə 1:20–21, 1 Korinflilərə 8:5)
- taxtlar (Kolosselilərə 1:16).

Bütün bu sözlər *coğrafi hökmranlığı* göstərir. Əslində bu sözlər həm Əhdi-Cədiddə, həm də başqa yunan ədəbiyyatlarında insan rəhbərlərinin təsvirindən ötrü istifadə olunur. Paul ərazi rəhbərləri üçün olan sözlərdən istifadə edir. O, Əhdi-Ətiqdə ruhani aləmin insan dünyası ilə əlaqəsini təsvir edir: Allahın rədd etdiyi xalqlar Ona və xalqına düşmən olan ruhani varlıqların hökmranlığı altındadır.

## «Mən İspaniyaya gedəcəyəm»

Həvarilərin İşləri kitabı Paulun Romaya getməsi ilə bitir. Paul məhbus idi və o, Romaya iki səbəbə — Qeysərin məhkəməsinə müraciət etmək və Müjdəni yaymaq üçün gedirdi. Amma Paul bilirdi ki, yad allahlardan xalqları geri almaq üçün o vaxtlar dünyanın axırı kimi tanınmış yerlərə gedib çıxmalıdır. Əhdi-Ətiq dövründə həmin yer Tarşiş, Paulun yaşadığı dövrdə isə İspaniya adlanırdı. Paul öz xidmətini tamamlamaq üçün İspaniyaya getməli idi. Onun həbs olunmazdan qabaq romalılara dediyi sözlərdən görürük ki, o, hər bir xalqı İsaya qaytarmaq məqsədilə İspaniyaya — qərbə getmək istəyirdi:

> Buna görə İspaniyaya getmək niyyətindəyəm və ümidvaram ki, yolüstü sizi də görüm və əvvəl qısa müddət də olsa, dostluğunuzdan zövq alandan sonra məni oraya yola salasınız. Beləcə bu işi başa çatdırıb əldə olunan səmərəni onlara çatdırandan sonra sizin yerlərdən keçib İspaniyaya gedəcəyəm.
>
> *Romalılara 15:24, 28*

Allahın Öz Padşahlığını məhz onun yaşadığı dövrdə bərpa etmək istədiyinə görə Paul çox ruhlanmışdı. O inanırdı ki, «başqa millətlərdən xilas olanların sayı tamamlandıqdan» sonra «bütün İsrail xilas olacaq» (Romalılara 11:25–26). O əmin idi ki, Əllinci Gün bayramında başlanan işi başa çatdıracaq.

## Bu Nə üçün Vacibdir?

Paul öz həyatına fövqəltəbii nəzərlərlə baxır. O, özünü Allahın aləti kimi görür. Əslində o, həqiqətən də Allahın aləti idi. Eləcə də Pauldan əvvəl digər naməlum yeni imanlılar da Allahın aləti idi. Onlar yaşadıqları yerdə şər istehkamlarına nüfuz etmək üçün Əllinci Gün bayramından sonra Yerusəlimdən çıxıb getmişdilər.

Biz də Allahın alətiyik.

Əgər biz *Paul* kimi Allahın alətiyiksə, onda nə üçün o, bizdən bu qədər nüfuzlu və uğurlu idi? Bizim fərqimiz budur ki, Paul həyatının mənasını *başa düşmüşdü*. O inanırdı ki, yer üzündə hökmranlıq edən qüvvələr gerçəkdir. O həm də əmin idi ki, Onun arxasında duran və daxilində olan qüvvə dünyadakı qüvvələrdən daha böyükdür.

Siz buna inanırsınızmı? Müqəddəs Kitab bütün bunları fakt kimi göstərir. Paul da öz həyatına məhz belə yanaşırdı.

Paul dünyanın əslində necə böyük olduğunu bilmirdi. O, Şimali Amerika, Cənubi Amerika, Çin, Hindistan, Norveç, Avstraliya, İslandiya və bir çox başqa yerləri tanımırdı. Amma Allah tanıyırdı. Allah bilirdi ki, Müjdəni bütün dünyaya yaymaq tapşırığı Paulun təsəvvür etdiyindən daha böyükdür. O bilirdi ki, Müjdəni yer kürəsinin hər yerinə çatdırmaqdan ötrü Paulun özü üçün qoyduğu məqsədə başqaları da qoşulmalıdır. Əgər biz bu tapşırığı səylə yerinə yetirməyə çalışmırıqsa, onda biz yer üzündəki əsas tapşırığımızı həyata keçirmirik. Əgər Allah bizə yalnız ehtiyaclarımızı ödəmək üçün lazımdırsa, onda biz İsa, On iki şagird və Paul kimi deyil, daha çox Babildəki xalqlara bənzəyirik.

Bu fəsildə Kəlamdan müzakirə etdiyimiz ayələr bizə daha bir açıqlama verir: şər istehkamlar barədə fikirlər tamamilə Kəlama uyğundur. Bizə şər qüvvələrin ərazisi və ya təsir zonalarının sərhədləri tam təsvir edilməyib. Hətta bizə qaranlıq tərəfdə kimin kimdən üstün olduğu barədə məlumat verilməyib. Amma bizə deyilib ki, gözəgörünməz qüvvələr Allaha qarşı çıxır və Allahın

Padşahlığını yaymaq işində insanların iştirak etməsini istəmir. Bu o deməkdir ki, biz məntiqlə və ya təcrübə ilə izah edə, eləcə də öz gücümüzlə qalib gələ bilməyəcəyimiz bir qarşıdurma ilə üzləşəcəyik. Allah bizə Onun tapşırığını yerinə yetirmək üçün Öz Ruhunu və gözəgörünməz nümayəndələrini verib (1 Korinflilərə 3:16, 6:19, İbranilərə 1:13, 1 Yəhya 4:4).

Biz bu sualı özümüzə verməliyik: «Əgər biz hər gün yuxudan duranda dünyaya və fövqəltəbii aləmə Paulun nəzərləri ilə baxsaq, həyatımız necə olar?» Əgər Allahın ailə üzvü olduğumuzu və bizə qaranlıq hakimiyyətdən bacı-qardaşlarımızı azad etmək tapşırığının verildiyini anlayaraq həyatımızı qursaq, onda hər şey necə olar? Əgər çıxardığımız hər bir qərarın və dediyimiz hər bir sözün məqsədsiz olmadığını dərk edərək yaşasaq, hər şey necə olar? Əgər ətrafımızdakı ruhani qüvvələrin bizim qərarımızı, hərəkətimizi, sözümüzü başqalarına yaxşı və ya pis məqsədlə təsir etmək üçün istifadə etdiyini bilsək, həyatımız necə olar? Biz *həqiqətən* kim olduğumuzu, kim olacağımızı və nə üçün yer üzündə yaşadığımızı biləndə, işimiz, gəlirimiz, qabiliyyətimiz, hətta problemlərimiz belə heç bir əhəmiyyət kəsb etməyəcək. Biz fövqəltəbii aləmi görə bilmirik. Eləcə də mikroskopik dünyanı da görə bilmirik. Amma biz onların hər ikisinin ayrılmaz parçasıyıq.

İlk imanlılar məhz belə düşünürdülər. Biz növbəti fəsildə görəcəyik ki, onlar ətrafdakı dünyanın qaranlıqla dolu olduğuna, amma bir gün təslim ediləcəyinə inanırdılar. İlk imanlılar, sözün əsl mənasında, düşmən dünya və onun qüvvələri ilə vuruşsalar da, onlar Allah və Onun gözəgörünməz nümayəndələri ilə birlikdə məsihçilik adlandırdığımız fenomeni yaratdılar. Onlar *inanırdılar* ki, ruhani münaqişə gerçəkdir və nəticədə qaranlıq qüvvələr onlara qalib gələ bilməyəcək. Biz onların imanlarının canlı sübutlarıyıq.

ON DÖRDÜNCÜ FƏSİL

# BU DÜNYADAN DEYİL

İsa ələ verilib ittiham olunmazdan əvvəl Getsemani bağında davamçıları barədə belə dua edirdi: «Mən dünyadan olmadığım kimi onlar da dünyadan deyil» (Yəhya 17:16). İmanlılar, şübhəsiz ki, dünyada idilər. Allah onlara xüsusi tapşırıq vermişdi — onlar Müjdəni bütün xalqlara çatdırmalı idilər (Matta 28:19–20). Lakin eyni zamanda onlar bu dünyadan deyildilər. Dünyada olub, dünyadan olmamaq ziddiyyəti ilk məsihçilərə bir neçə yaddaqalan yollarla çatdırılmışdı.

## Müqəddəs Ərazi, Müqəddəs Torpaq və Allahın hüzuru

8-ci fəsildə biz müqəddəs ərazi anlayışı barədə danışdıq. Əhdi-Ətiq dövründəki israillilər üçün Allah tamamilə *başqa* idi. Onun hüzurunun olduğu ərazi başqa ərazilərdən ayrılmışdı. Müqəddəs ərazi anlayışı Allahın hər yerdə mövcud olmasını inkar etmir. O, eyni vaxtda hər yerdədir. Burada Allahın Öz xalqı ilə görüşməsi üçün seçdiyi ərazi nəzərdə tutulur. Əslində çadır və məbəd bu məqsədlə qurulurdu. Müqəddəs ərazi anlayışı təkcə İsrailin çoxlu qanunları və mərasimləri üçün əsas səbəb deyildi, eləcə də kosmik coğrafiya ideyasını — dünyanın kiçik rütbəli allahlarla Küll-İxtiyar Allah, İsrailin Allahı arasında necə bölündüyünü təsdiqləmək idi.

Müqəddəs ərazi anlayışı Əhdi-Cədiddə də aydın təsvir olunub. Sual yarana bilər: «Allahın hüzuru indi haradadır?» Allah hər yerdə

olsa da, O, xüsusilə *hər bir imanlının* daxilindədir. İstəyirsiniz inanın, istəyirsiniz inanmayın, *siz* müqəddəs ərazisiniz. Paul çox aydın tərzdə yazıb ki, «bədəniniz ... Müqəddəs Ruhun məbədidir» (1 Korinflilərə 6:19).

Bu, imanlıların qrup halında toplaşdığı yerə də aiddir. Paul Korinfdəki imanlılara məktub yazanda demişdi ki, siz Allahın məbədisiniz (1 Korinflilərə 3:16). O, efesli imanlılara demişdi: «siz...Allah ailəsinin üzvüsünüz .... Bütün bina Onun üzərində birləşərək Rəbbə aid müqəddəs məbəd olmaq üçün ucalır. Siz də Ruh vasitəsilə Allahın məskəni olmaq üçün birlikdə Məsih üzərində tikilirsiniz» (Efeslilərə 2:19, 21–22).

Buradan maraqlı nəticələr hasil olur. İsanın bu sözləri bizə yaxşı tanışdır: «Çünki harada iki və ya üç nəfər Mənim adımla yığılarsa, Mən də orada, onların arasındayam» (Matta 18:20). Bu sözlərə Əhdi-Ətiqin müqəddəs ərazi nöqteyi-nəzərindən baxsaq, hansı mənanı verər? Bu o deməkdir ki, imanlıların qaranlıq qüvvələrin arasında olmasına baxmayaraq, harada toplaşsalar, həmin yer müqəddəsdir.

Əhdi-Ətiqdə Yahvenin seçdiyi axırıncı yaşayış məskəni İsrail — Yerusəlimdəki məbəd idi. Allahın hüzuru İsraildə olduğu üçün o yer müqəddəs torpağa çevrildi. Amma bu müqəddəs torpaq onu əhatə edən xalqlar və onların düşmən allahları tərəfindən təhlükə altında idi. Bu gün imanlılar da ruhani döyüşdədirlər. Biz indi Allahın məbədi, Allahın Ruhunun məskən saldığı xüsusi yerik və Onun hüzurunun işığını ətrafa saçırıq. Biz qaranlıq qüvvələrin əsarətində olan dünyanın hər yerinə səpələnmişik.

## Şeytana təslim etmək

Bu anlayış Paulun yerli imanlı cəmiyyətin müqəddəsliyi barədə fikirləri ilə yaxşı təsvir olunub. Hər bir imanlı cəmiyyət müqəddəs ərazi idi. Orada tövbə olunmayan günah üçün yer yox idi.

Biz kitabın 8-ci fəslində İsrailin düşərgənin — müqəddəs ərazinin müqəddəsliyini qorumaq üçün günahın öhdəsindən necə

gəldiyini gördük. Biz günahların əvəzinin ödənilməsi — Kəffarə Günü barədə danışdıq (Levililər 16). Adətə görə xalqın günahları Azazelin, yəni buraxılası təkənin üzərinə qoyulurdu (Levililər 16:8, 10). O dövrdə Azazel səhrada yaşayan cin hesab olunurdu. İsraillilər təkəni səhraya göndərirdilər. Təkə onların günahlarını öz üzərində daşıyırdı. Belə etməklə xalqın günahları rəmzi olaraq səhraya — ruhani qaranlıq yerə göndərilirdi.

Paul korinflilərə deyir ki, günahı məxsus olduğu yerə göndərsinlər. 1 Korinflilərə 5-ci fəsildə Paul korinflilərə cinsi əxlaqsızlıq günahında yaşayan adam barədə yazaraq əmr edir: «Həmin adamı şeytana təslim edin» (1 Korinflilərə 5:5). Burada fikir aydındır, müqəddəs torpaqda günaha yer yoxdur. İmanlılar tövbə etməyənləri imanlı cəmiyyətindən uzaqlaşdırmalı idilər (1 Korinflilərə 5:9–13). İmanlı cəmiyyətindən qovulmaq şeytanın aləminə, dünyaya qayıtmaq idi.

Paul ümid edirdi ki, onun bu əmri tövbə etməyən adam üçün belə nəticələnək: «cismani təbiəti yox olsun, ruhu isə Rəbbin günündə xilas olsun» (1 Korinflilərə 5:5). (Burada o, fiziki ölümdən deyil, bu adamı əsir edən cismani ehtirasların ölümündən danışır [Qalatiyalılara 5:24, 1 Korinflilərə 11:32–33]).

## Vəftiz Ruhani Döyüş kimi

Peterin bu məsələdə fikri Paulun fikri ilə eynidir — imanlılar qaranlıq qüvvələrə qarşı dururlar. Onun ruhani döyüş barədə düşündüklərini Əhdi-Cədiddə Peterin birinci məktubunda oxumaq olar:

> Amma salehlik uğrunda əzab çəksəniz belə, siz bəxtiyarsınız. İnsanların hədə-qorxu gəlməsindən qorxmayın və lərzəyə düşməyin. Lakin Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun. Vicdanınızı təmiz tutaraq bunu həlimliklə və ehtiramla

edin ki, Məsihdə olan yaxşı davranışınızı təhqir edənlər sizə atdıqları böhtandan utansınlar. Əgər Allahın iradəsi budursa, yaxşılıq etdiyi üçün əzab çəkmək pislik etdiyi üçün əzab çəkməkdən yaxşıdır. Çünki saleh olan Məsih də saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Allahın hüzuruna gətirsin. O cismən edam edilmiş, amma ruhən həyata qovuşmuşdur. O ruhən gedib zindandakı ruhlara da vəz etdi. Bunlar bir vaxtlar, Allah Nuhun gəmi düzəltdiyi dövrdə səbirlə gözlədiyi vaxt itaətsiz idi. O gəmidə isə az adam, başqa sözlə, səkkiz nəfər sudan sağ-salamat çıxdı. Bu nümunəyə uyğun olaraq vəftiz indi sizə İsa Məsihin dirilməsi ilə xilas gətirir. Vəftiz cismani çirki yumaqdan ötrü deyil, təmiz vicdanla Allah qarşısında söz vermək üçündür. İsa Məsih göyə qalxıb və Allahın sağındadır. Mələklər, hakimlər və qüvvələr də Ona tabedir.

*1 Peter 3:14–22*

Əminəm ki, siz bu ayələrdə maraqlı fikirlər aşkar etdiniz. Gəmi, Nuh və zindandakı ruhların vəftizlə nə əlaqəsi var? Bu mətndə vəftizin bizi xilas etdiyi deyilirmi?

Peterin burada dedikləri Paulun Romalılara 5-ci fəsildə dediklərinə oxşardır. Paul bu hissədə İsa haqqında danışır, amma Adəm barədə də düşünür. Biz hansısa mənada İsa ilə Adəmə bir-birinə əks olan şəxslər kimi baxmalıyıq. Ona görə də Paul belə deyir: «Necə ki bir adamın [Adəmin] itaətsizliyi üzündən bir çoxları günahkar sayıldı, eləcə də bir Adamın [İsanın] itaəti sayəsində bir çoxları saleh sayılacaq» (Romalılara 5:19). Peter İsa barədə yazanda fikrində təkcə Adəm haqqında deyil, Xanok barədə də düşünür (1 Peter 3). Amma Peter üçün Xanok və İsa bir-birinə əks olan şəxslər deyildi. Peter Xanokun İsa ilə oxşarlığını bildirmək istəyir.

Siz «Bunun nə mənası var?» deyə düşünə bilərsiniz. Axı Əhdi-Ətiqdə Xanok barədə yalnız bir neçə ayə var (Yaradılış 5:18–24).

Bu ayələrə əsasən deyə bilərik ki, Xanok böyük daşqından əvvəl yaşadı və «o, Allahla bir yol getdi. Sonra qeyb oldu, çünki Allah onu Öz yanına götürdü» (Yaradılış 5:24). 1 Peter 3-cü fəsildə həmin ayələrin Peterin İsa barədə dedikləri ilə heç bir əlaqəsi yoxdur.

Xanokun Peterə niyə İsanı xatırlatdığını başa düşmək üçün biz bilməliyik ki, Peter Xanok haqqında Əhdi-Ətiqə daxil olmayan başqa yəhudi kitabında oxumuşdu. Güman olunur ki, həmin kitab «Birinci Xanok» adlanıb. Bu kitab daşqın zamanı baş verənlər barədə ətraflı məlumat verir. Xüsusilə Yaradılış 6:1–4-cü ayələrdə Allah oğullarının (Xanok onları müşahidəçilər adlandırır) insan qızları ilə dünyaya övladlar (nefillim nəhəngləri) gətirməsini təsvir edir. Peter və Yəhuda Nuhun dövründə günah işlədən mələklər (2 Peter 2:4–5, Yəhuda 6) barədə yazanda, onlar Müqəddəs Kitabdakı daşqın hekayəsinə deyil, Xanokun birinci kitabındakı ideyalara əsaslanırdılar. Yaradılışdakı daşqın hekayəsində Allahın ilahi oğullarının ölülər diyarında son günlərə qədər həbs olunmasından danışılmır. Amma Xanokun birinci kitabında bu barədə yazılıb (1 Xanok 6:1–4, 7:1–6, 10:4, 11–13).

Xanokun birinci kitabında yazılmış «zindandakı ruhlarla» nəsə baş vermişdi. Bu da Peterə İsa barədə müəyyən fikirləri xatırladırdı. Xanokun birinci kitabında onun yuxusundan danışılır. Yuxusunda zindandakı ruhlar Xanokdan xahiş edirlər ki, onlar üçün Allaha vəsatət etsin. Axı Xanok Allah ilə bir yol getmişdi. Allahdan qərarını dəyişməsini və onları azadlığa buraxmasını xahiş etmək üçün Xanokdan yaxşı kim vardı ki? Xanok xahiş edir, amma Allah *«yox»* deyir. Xanok Allahın cavabını onlara çatdırır. O, zindana ruhların yanına düşüb onlara deyir ki, hələ də məhkumiyyət altındadırlar.

Peter həmin hekayə ilə İsanın etdiyi işlərdə oxşarlıq yaradır. O, bizə demək istəyirdi ki, İsa ölümündən sonra ölülər diyarına düşdü və orada üsyan etmiş ilahi varlıqlara vəz etdi. Onlar İsanın ölülər aləminə girdiyini görəndə, yəqin ki, cin yoldaşlarının qalib gəldiyini və tezliklə zindandan çıxacaqlarını düşünüblər. Əksinə, İsa onlara

dedi ki, qısa müddətə oradadır — O diriləcək. Bütün bunlar Allahın planı idi. Onlar qalib gələ bilmədilər — *onlar hələ də məhkumiyyət altındadırlar və ölümə düçar olunublar*. Ona görə də bu qəribə parça belə bitir: «İsa Məsih göyə qalxıb və Allahın sağındadır. Mələklər, hakimlər və qüvvələr də Ona tabedir» (1 Peter 3:22).

Peter bütün bunları niyə vəftizlə əlaqələndirir? Peterin fikrincə, İsanın ölümü və dirilməsi şər qüvvələrə qələbəsinin elanı ilə tamamlanaraq rəmzi mənada vəftizdə təsvir olunub. Vəftiz İsanın ölümünün, dəfninin və dirilməsinin rəmzidir (Romalılara 6:1–11).

Peter üçün vəftiz bütün bunlara «uyğunlaşır». Vəftiz olmaq «İsa Məsihin dirilməsi ilə... təmiz vicdanla Allah qarşısında söz verməkədir (1 Peter 3:21). «Söz vermək» kimi tərcümə edilmiş yunan sözü əhd etmək mənasında işlənib. Yunan dilində «vicdan» sözünün mənası isə yaxşını pisdən ayırmaq bacarığı deməkdir. Amma bu kontekstdə həmin söz başqa məna verir. Çünki yaxşı və pis arasındakı fərqin İsanın ölümü, dəfni və dirilməsi ilə heç bir əlaqəsi yoxdur. Bu yunan sözü həm də boş və mənasız bir şeyə deyil, düzgün və layiqli bir şeyə həsr olunma deməkdir. Peter də öz məktubunda (1 Peter 3-cü fəsildə) məhz bu barədə danışır. Əslində vəftiz *Allaha sadiqlik əhdi və şər qüvvələrin* (eləcə də orada olanların) *qarşısında bir elan idi*, çünki siz bir vaxtlar ruhani döyüşdə onların tərəfində idiniz. İlk məsihçilər bu həqiqəti bizdən daha yaxşı başa düşmüşdülər. Məhz Kəlamın bu yerinə görə ilk imanlı cəmiyyətində vəftiz mərasimlərinə şeytan və *onun mələklərindən* inkar etmək daxil idi.

## Bu Nə üçün Vacibdir?

Birincisi, biz başa düşməliyik ki, imanlılar müqəddəs torpaqdır, Allahın hüzurunun — Əhdi-Ətiqin izzətinin olduğu yerdir. Bu həqiqətə uyğun yaşayırıqmı? İsraillilər və İsanın dövründə olan imanlılar imansızlardan tamamilə fərqlənməli olduqlarını dərk edirdilər. Onlar qəribə görsənmək, bununla da imansızları özlərindən

uzaqlaşdırmaq fikrində deyildilər. İsrail «kahinlər padşahlığı» və «müqəddəs millət» olmalı idi (Çıxış 19:6). İsraillilər Allahın istədiyi kimi yaşayanda bu, onları bəhrəli, bərəkətli və xoşbəxt həyata gətirib çıxarırdı. İsraillilər düşmən allahların əsiri olan xalqları həqiqi Allaha cəlb etməli idilər.

Dünyagörüşümüzü Allahın bütün xalqları xilas etmək və onları Onun ailəsinin üzvü etmək planına uyğunlaşdıranda, biz bu dünyadan olmayanlar kimi yaşamağa başlayırıq. Bu dünyadan olmaq nə deməkdir? Bu, dünyanın qayğılarının içində itib batmaq və ona uyğun tərzdə yaşamaqdır. İmansızlar bizim danışığımızdan, davranışımızdan, hərəkətlərimizdən və başqalarına qarşı münasibətimizdən görməlidirlər ki, biz istehzalı, xudbin və ya kobud deyilik, insanlardan istifadə edərək irəliyə getməyə çalışmırıq. Biz təkcə öz arzularımızı yerinə yetirmək üçün yaşamalı deyilik. Biz bütün bu şeylərin əksi olan işləri görməliyik. Başqa sözlə desək, biz İsanın yaşadığı kimi yaşamalıyıq. İnsanlar Onun ətrafında olmaq istəyirdilər, *çünki* O, hamıdan fərqlənirdi.

İkincisi, bizim imanlı cəmiyyətlərində etdiklərimiz Allahı və İsanı ucaltmalıdır. Əhdi-Ətiq dövründə insanlar hüzur çadırına və ya məbədə gedəndə Allahın kamilliyi və Onun övladlarına olan məhəbbəti barədə anlayış əldə edirdilər. Bunlar bir-biri ilə əlaqəlidirlər. Heç nəyə ehtiyacı olmayan və hər şeydən üstün olan Allah nə üçün insan ailəsi istəsin ki? Allah Babildə xalqları rədd etdikdən və onları başqa allahlara tapşırdıqdan sonra yeni ailə yaratmaq niyyətinə niyə düşsün ki? Nə üçün O, bizdən əl çəkmir ki? Çünki O, bizi sevir.

Allah bütün bunları etməyə də bilərdi və ya başqa işlər görə bilərdi. Biz bunu dərk edəndə Allahın məhəbbəti bizim üçün daha dərin məna verir. İmanlı cəmiyyəti yalnız Allahın məhəbbəti barədə danışıb Allahın başqa xasiyyətləri ilə münasibətdə bu məhəbbətin fərqini göstərməyəndə, imanlılar onu adi bir şey kimi qəbul edə bilərlər. Əgər insanlar Allahın müqəddəsliyini dərk etməsələr, məhəbbət çox ucuz görünə bilər.

Bu fəsildə müzakirə etdiyimiz üçüncü fikir budur ki, qaranlıq qüvvələr bizim davranışımızdan kimin tərəfində olduğumuzu bilir. Onlar axmaq deyil. Onlar bizim Allaha sadiqliyimizi görür. Onlar İsanın ardınca getmək üçün çıxardığımız qərarlarımızı — vəftiz və günaha qarşı durmaq kimi qərarlarımızı görür. Onlar həm də bizim Allaha sadiq qalmadığımızı görür və bu zaman bizim necə zəif olduğumuzu başa düşür. İnansaq da, inanmasaq da bilməliyik ki, bizə kənardan — ruhani döyüşün *hər iki tərəfindən* baxanlar var.

Bu həqiqəti başa düşmək ona uyğun yaşamaqdan asandır. Biz günahdan xilas olsaq da, günahlı təbiətimiz var. Bu həqiqətə uyğun yaşamaq üçün biz nəyə görə yer üzündə olduğumuzu və nəyə görə bu dünyada qərib kimi yaşadığımızı yadda saxlamalıyıq. Bu dünyada yaşasaq da, İsa kimi bu dünyadan deyilik (Yəhya 8:23, 1 Yəhya 4:4). Bu fərq və kimliyimiz Allahın övladları olmağın mənasını dərk edəndə daha da aydınlaşacaq.

ON BEŞİNCİ FƏSİL

# İLAHİ TƏBİƏTİN İŞTİRAKÇILARI

*Siz kim olduğunuzu bilirsinizmi?*

Mən bu sualı bir az əvvəl vermişdim, amma yenə də soruşmaq vaxtıdır. Bəli, biz dünyadayıq, lakin dünyadan deyilik. Biz İsanın çarmıxda etdiyinə iman vasitəsilə lütflə xilas olmuşuq (Efeslilərə 2:8–9). Ancaq bütün bunlar Allahın bizim üçün nəzərdə tutduqlarının hələ başlanğıcıdır.

Allahın Edendə məqsədi bu idi ki, Öz insan ailəsini ilahi ailəsi — dünya yaranmazdan qabaq mövcud olan Allahın səmavi oğulları ilə birləşdirsin (Əyyub 38:7–8). Günah dünyaya girsə də, O, bu planı ləğv etmədi. Ey məsihçi, sən ilahi varlıq olacaqsan! İsanın Özü kimi, Allahın *elohim* övladlarından biri kimi olacaqsan (1 Yəhya 3:1–3).

İlahiyyatçılar bu həqiqəti müxtəlif cür adlandırırlar. Ən çox istifadə edilən söz *izzətə bürünməkdir*. Peter isə bu həqiqəti bizim «ilahi təbiətə şərik olmağımız» kimi qeyd edir (2 Peter 1:4). Yəhya bunu belə təsvir edir: «Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq! (1 Yəhya 3:1) *Doğrudan da, beləyik!*» Bu fəsildə həmin mənanın Müqəddəs Kitabda necə təsvir olunduğunu müzakirə edəcəyik.

## Allah oğulları, İbrahimin nəsli

Allah Babildə dünyanın xalqlarını tərk edib kiçik rütbəli allahlara tapşırdı. O, eyni zamanda bilirdi ki, Öz yeni insan ailəsini

yaradacaq. Allah İbrahimi (Yaradılış 12:1–8) Babildən dərhal sonra çağırdı (Yaradılış 11:1–9). Allah İbrahim və arvadı Sara vasitəsilə Edendəki məqsədini həyata keçirəcəkdi.

Allahın xalqı, İbrahimin övladları, israillilər Allahın yer üzündə hökmranlığını bərpa etmək tapşırığını həyata keçirə bilmədilər. Amma Allahın övladlarından biri bunu həyata keçirə *biləcək*. Allah Davudun, İbrahimin və Adəmin nəslindən olan İsanın simasında insan olacaqdı. Allahın Babildə cəzalandırdığı xalqlara xeyir-dua vermək vədi məhz İsa vasitəsilə yerinə yetəcəkdi. Paul bu həqiqəti məktublarında bir neçə yerdə təsvir edir:

> Yuxarıda qısaca yazdığım kimi, Allah sirri mənə vəhy vasitəsilə bildirdi. Yazdıqlarımı oxuyanda Məsihin bu sirrini necə dərk etdiyimi anlaya bilərsiniz... Sirr budur ki, başqa millətlər də Müjdə vasitəsilə Məsih İsada eyni irsin ortağı, eyni bədənin üzvü və eyni vədin şərikidir.
>
> *Efeslilərə 3:3–6*

> Siz hamınız Məsih İsaya olan iman vasitəsilə Allahın övladlarısınız... Artıq Yəhudi ilə Yunan, qulla azad, kişi ilə qadın arasında fərq yoxdur. Çünki hamınız Məsih İsada birsiniz. Əgər Məsihə aidsinizsə, deməli, İbrahimin nəslindənsiniz və vədə görə varissiniz.
>
> *Qalatiyalılara 3:26–29*

Əvvəlki fəsillərdə izah etdiyim kimi, israillilərdən başqa bütün xalqlar kiçik rütbəli allahların hökmranlığı altında yaşayırdılar. İsraildən başqa o biri xalqlar Babildə həqiqi Allah ilə ünsiyyətdən məhrum olmuşdular. İsrail və yalnız İsrail, Allahın «irsi» idi (Qanunun Təkrarı 32:9). İsraillilər bu xalqlara müxtəlif adlarla müraciət edirdilər. Onların coğrafi və ya etnik adları var idi (məsələn, misirlilər, moavlılar, amaleqlilər), amma Əhdi-Cədid dövründə bu xalqların ümumi adı «qeyri-yəhudilər» idi. Bu, latın mənşəli *gens*

— xalqlar sözündən yaranıb. Əgər siz yəhudi deyilsinizsə, onda qeyri-yəhudi hesab olunursunuz.

Əhdi-Cədiddə yazılanlara görə, İbrahimin nəslindən olan İsa təkcə İbrahimin etnik nəslini (israillilər/yəhudilər) deyil, həqiqi Allahdan uzaqlaşmış xalqları da xilas etmək üçün ölüb dirildi. Yuxarıda sitat gətirdiyim ayələrdə Paul qeyri-yəhudilərin Allahın ailəsi ilə birləşməsini sirr adlanır. Allahın üz döndərdiyi və başqa allahların hökmranlığı altında olan xalqların İbrahimə verilmiş vədləri irs ala bilməsi Paulu heyrətə salmışdı.

Məsihdə Müjdəni qəbul edənlərin hamısı Yahvenin, həqiqi Allahın, İbrahimin, İshaqın və Yaqubun Allahının övladlarıdır (Yəhya 1:2, Qalatiyalılara 3:26, Romalılara 8:14). Ona görə də Əhdi-Cədiddə imanlılar ailə sözlərindən (oğullar, övladlar, varislər) istifadə edərək təsvir olunur. Onlar barəsində Allah tərəfindən «övladlığa götürülmüş» kimi qeyd olunur (Romalılara 8:15, 23, Efeslilərə 1:5, Qalatiyalılara 4:4). «Varislik» sözü təsadüfi istifadə olunmayıb. Bu, bizə kim olduğumuzu bildirir. Biz Allahın yeni — ilahi-insan ailəsiyik. İmanlının taleyi Adəm və Həvvanın başlanğıcda olduğu kimi — Onun hüzurunda yaşayaraq ölməz və Allahın izzətlənmiş surətləri olmaqdır.

Amma bu da bizim kim olduğumuzu tam ifadə etmir. Ən gözəli isə İsanın bizi necə görməsidir.

## Ailənin Yenidən Birləşməsi

İbranilərə məktubun ilk iki fəsli Allahda birləşmiş ailəni — ilahi və insan ailəsini bədii surətdə təsvir edir. Mənim üçün bu, Müqəddəs Kitabda ən təsirli hissələrdən biridir.

İbranilərə 1-ci fəsil İsanın «mələklərdən nə qədər üstün» (4-cü ayə) olduğunu göstərir. Allahın ilahi toplantısında heç kim İsadan üstün deyil. Çünki O, Allahdır. Bundan başqa, müəllif qeyd edir ki, heç bir mələk insan olmağa və Padşahlığı irs almağa layiq deyil.

Buna görə də mələklər İsaya səcdə etməli idilər (5–6-cı ayələr). İsa Padşahdır!

İsa insan kimi dünyaya gələndə O, qısa müddət ərzində mələklərdən aşağı tutuldu. O, bizlərdən biri oldu. İnsanlar mələklərdən nisbətən aşağı rütbəli varlıqlardır. İbranilərə məktubun müəllifi sual verir:

> «İnsan kimdir ki, onun haqqında düşünürsən? Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən? Onu mələklərdən az müddət ərzində aşağı tutdun, izzət və əzəmət tacını onun başına qoydun. Hər şeyi onun ayağının altına qoyub tabe etdin» ... Amma Allahın lütfü ilə hər kəsin uğrunda ölmək üçün mələklərdən az müddət ərzində aşağı tutulmuş Şəxsi, yəni İsanı görürük. Çəkdiyi ölüm əzabına görə Onun başına izzət və əzəmət tacı qoyuldu.
>
> *İbranilərə 2:6–9*

Bəs İsa nəyə nail oldu? Biz bunu *xilas* sözü ilə təsvir edə bilərik. Bu, əlbəttə ki, doğru ola bilər, amma biz müəllifin demək istədiyi fikirləri görməyə bilərik. Allah İsa Məsihdə insan kimi dünyaya gəldiyi üçün Onun fani davamçıları ilahi ailənin üzvləri olacaqlar.

Bir gün ya biz öləndə, ya da İsa padşahlığını, yəni Edeni yaratmaq üçün yer üzünə qayıdanda bizi ilahi toplantının o biri üzvləri ilə, onları da bizimlə tanış edəcək. O, bizim kimi oldu ki, biz də Onun kimi ola bilək:

> Bir çox övladı izzətə çatdırmaq üçün onların xilasının Banisini əzablar vasitəsilə kamil etməsi Allaha münasib idi. Çünki təqdis edən Şəxsin və təqdis olunanların hamısının Atası eynidir. Bu səbəbdən İsa onları qardaş çağırmaqdan utanmayıb deyir:

«İsmini qardaşlarıma elan edəcəyəm,
toplantı arasında Sənə həmd söyləyəcəyəm»...

«Budur, Mən və Allahın Mənə verdiyi övladlar».

*İbranilərə 2:10–13*

İsa insan olduğuna görə Allahın toplantısının üzvləri (*elohim*) qarşısında onlardan aşağı tutulsa da, utanmaq əvəzinə sevinir. Axı bütün bunlar möhtəşəm strategiyanın bir hissəsi idi. O, toplantı arasında durub bizi belə təqdim edir: *Budur! Mənə və Allahın Mənə verdiyi övladlara baxın. İndi biz həmişə birlikdə olacağıq*. Bu, elə başlanğıcdan mövcud olan plan idi.

Allahın ilahi və izzətli ailəsinin bir üzvü olmaq bizim qismətimizdir. Paul bunu Romalılara 8:18–23-cü ayələrdə gözəl təsvir edir:

Belə düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə gəlməz. Yaradılış Allahın oğullarının zahir olmasını böyük həsrətlə gözləyir... Ancaq təkcə yaradılış yox, Ruhun nübarını alan biz özümüz də övladlığa qəbul olunmağımızı, yəni bədənimizin satın alınmasını gözləyərək içimizdə inildəyirik.

*Romalılara 8:18–23*

Paul həmin həqiqətlərlə imanlıları ruhlandırır. O, romalı imanlılara dedi: Allah onları «Öz Oğlunun surətinə uyğunlaşmaq üçün əvvəlcədən təyin etdi ki, O, çoxlu qardaş arasında ilk doğulan olsun» (Romalılara 8:29). O, Korinfdəki imanlılara dedi: «Biz hamımız niqabsız üzdə Rəbbin ehtişamını əks etdirərək Rəbbin surətində dəyişilirik» (2 Korinflilərə 3:18). Bizim insan təbiətimiz dəyişiləcək: «Çünki bu çürüyən bədən çürüməzliyə, bu ölümə düçar olan bədən ölməzliyə bürünməlidir» (1 Korinflilərə 15:53). Peter üçün Allahın ailə toplantısına qoşulmaq «ilahi təbiətə şərik» olmaq

deməkdir (2 Peter 1:4). Yəhya bunu çox sadə tərzdə təsvir etdi: «Biz Ona bənzəyəcəyik» (1 Yəhya 3:2).

## Bu Nə üçün Vacibdir?

Bizə dəfələrlə deyilib ki, məsihçi kimi İsaya bənzəməliyik. Təbii ki, bu, belədir. Amma çox vaxt bu sözləri eşidəndə söhbətin *yalnız* yaxşı və ya pis əməldən getdiyini düşünürük. Biz dərkedilməz bir ideyanı — günlərin bir günü İsa kimi olacağıq ideyasını əməl kimi qavrayırıq.

İsa kimi ola bilmədiyimizə görə peşman olmaqdansa, ürəyimizdə «daha yaxşını edim» vədini verməkdənsə, Onun bizim üçün etdiyi və edəcəyi işlərə icazə verməliyik ki, Ona bənzər olmaq barədə düşüncələrimizi dəyişsin. Biz Allahın bizə qəzəblənməməsi üçün Məsihə bənzərliyi bir tapşırığa çevirə bilərik. Amma bu, çox pis yanaşmadır. Bu, lütfü borca çevirir. Hərçənd Allaha şükür edə bilərik ki, günlərin bir günü O, bizi dəyişib əvvəlcədən təyin etdiyi kimi edəcək (Romalılara 8:29). Həm də həyatımızı elə yaşaya bilərik ki, qaranlıq qüvvələrə əsir olmuş xalqlar Allahın ailəsinə qoşulmaq istəsinlər. Birinci halda biz özümüzə, ikinci halda isə göylərə baxırıq.

Məsihçi həyatı o demək deyil ki, qaranlığın əsiri ikən bizi Sevəni tam razı sala bilməmək qorxusunda yaşayaq. Məsihçi həyatının əslində iki mahiyyəti var. Birincisi, bizim Allahın ailəsinə övladlığa götürülməyimizdir. Bu o deməkdir ki, İsa bizim qardaşımızdır və Allah İsanı sevdiyi kimi bizi də sevir. İkincisi, bizim məqsədimiz Allahın planında Onun yer üzündə padşahlığını bərpa etməkdir. Biz artıq *Allahın yeni ilahi toplantısıyıq*. Bu, gələcəkdə də belə olacaq. O, bizim Atamızdır. Biz Onun övladlarıyıq. Onunla əbədi yaşamaq bizim qismətimizdir. Biz onun əməkdaşlarıyıq. Bizim tapşırığımız — ölülər ağasının hökmranlıq etdiyi və gözəgörünməz qaranlıq qüvvələrin əsiri olan insanları azad etməkdə Ona kömək etməkdir.

Müqəddəs Kitab da məhz *bu* barədə — Edendən yeni Edenə qədərki dövrdən bəhs edir. Bizim taleyimiz bundan ibarətdir. Bizim həyatımızın məqsədi Allahın ailəsində yer qazanmaq deyil. Çünki onu qazanmaq mümkün deyil. O, hədiyyədir. Həyatımızın məqsədi övladlığa götürülməyimiz üçün minnətdarlıq, ondan zövq almaq və bu övladlıq barədə xəbəri başqaları ilə bölüşməkdir.

ON ALTINCI FƏSİL

# MƏLƏKLƏR ÜZƏRİNDƏ HÖKMRANLIQ

Bir məsihçi olaraq kimliyimizi başa düşmək imanımız üçün çox vacibdir. Biz Allahın oğulları və qızlarıyıq. Atamızın Padşahlığında iştirak edən yenidən qurulmuş ilahi toplantısıyıq. Bu barədə daha çox fikir söyləmək olar. Bəli, biz Allahın ailə toplantısıyıq. Nə üçün? Hansı məqsədlə?

Biz artıq Padşahlıqda olsaq da, həmin Padşahlığın hələ bütöv mənzərəsini görmürük (Kolosselilərə 1:13). Dünya hələ tam Edenə çevrilməyib. «Artıq, amma hələ yox» ziddiyyəti Müqəddəs Kitabda hər yerdə görünür və müxtəlif cür ifadə olunur. Bu fəsildə «hələ yox» məfhumunu açıqlamaq və «hansı məqsədlə?» sualına cavab vermək istəyirəm.

## Padşahlıqda indi İştirak Etmək

Bizim Allahın padşahlığında iştirakımız əvvəlcədən təyin olunmayıb. Demək istəyirəm ki, biz verilmiş proqrama əsasən işləyən robotlar deyilik. Allahın surətini daşımaq ideyası Onun nümayəndəsi olmaq fikrinə tamamilə ziddir. Biz Onun kimi olmaq üçün yaradılmışıq. O azaddır. Əgər bizim həqiqi azadlığımız yoxdursa, biz Onun kimi ola bilmərik. Əslində biz Onun kimi ola *bilməzdik*. Biz itaət edib səcdə etməkdə, yaxud üsyan edib ürəyimiz istəyəni etməkdə azadıq. Onu da bilməliyik ki, əkdiyimizi biçəcəyik. Bizim biçməyimiz proqramlaşdırılmayıb.

Amma Allah bizdən böyükdür. Onun planı var və bu, mütləq həyata keçəcək. Bu planın uğuru insan azadlığından və bu plana tabe olmaqdan asılı deyil. Nə biz, nə də azad seçimləri olan ilahi varlıqlar bu planı poza bilər.

Sizə 1-ci fəsildə haqqında danışdığım səmavi toplantı barədə düşünün. Onda mən sizdən soruşdum ki, Müqəddəs Kitabın dediklərinə inanırsınızmı? Sonra sizə 1 Padşahlar 22-ci fəsildəki Allah və Onun göylər ordusu ilə görüşündən danışdım. Allah qərar verdi ki (və bu mütləq baş verməli idi), pis niyyətli Axavın ölmək vaxtıdır. Amma Allah sonra bunu necə həyata keçirməyi Öz toplantısındakı ruhani varlıqlara tapşırdı (1 Padşahlar 22:19–23).

Əvvəlcədən təyin olunma və azadlıq Allahın Padşahlığında bir-biri ilə əlaqəlidir. Onun məqsədlərinə qarşı heç kim dura və ya onları ləğv edə bilməz. O, günah və qarşıdurmaya baxmayaraq, istədiyi işi başqa azad nümayəndələri vasitəsilə həyata keçirə bilər. Klayv S. Lyuis Allah haqqında («Perelandra» kitabında) belə demişdi: «Sən hər nə etsən, O, onu yaxşılığa çevirəcək. Amma bu yaxşılıq Ona itaət etmiş olduğun halda sənin üçün hazırladığı yaxşılıqla müqayisə olunmaz».

Biz nə üçün Allahın yer üzündəki ailəsinin üzvü adlanırıq? İnsanları qaranlıqdan azad etmək işində Allah ilə birlikdə əməkdaşlıq etmək üçün; insanlara ədalətlə və mərhəmətlə yaşamağı göstərmək üçün; Allahı tanımayanlara Onu həyatımızda əməllərimizlə nümayiş etdirmək üçün; paxıl ilahi varlıqların hökm sürdüyü dünyada həqiqi Allah barədə həqiqəti dəstəkləmək və yaymaq üçün; Allahın istədiyi kimi həyatdan zövq almaq üçün.

Bu məqsədlərdən hər biri gələcək Padşahlıq üçün hazırlıqdır. Paul dünyəvi məsələlərə görə bir-biri ilə dava edən, ilahi dünyagörüşünü itirmiş korinflilərdən soruşmuşdu: «Mələkləri bizim mühakimə edəcəyimizi bilmirsinizmi?» (1 Korinflilərə 6:3) O, ciddi danışırdı. Paul bu sualla çox dəqiq və vacib bir şeyi çatdırmaq istəyirdi.

## Millətlər Üzərinə Qoyulmuş

Padşahlığın yetkin forması gələcəkdə baş verəcək. Bu, baş verəndə qaranlıq qüvvələr məğlub olacaq. Şər allahlar xalqlar üzərində hökmranlığını həmişəlik itirəcək. *Onlar Allahın izzətlənmiş insan ailəsi və toplantısı ilə əvəz olunacaq*. Görün, İsa Vəhy kitabında nə söyləyir:

> Mən gəlincəyə qədər özünüzdə olana bağlı qalın. Qalib gələnə və Mənim buyurduğum işlərə sonadək riayət edənə millətlər üzərində səlahiyyət verəcəyəm. «Dəmir əsa ilə onlara ağalıq edəcək, saxsı qablar kimi onları çilik-çilik edəcək». Bunu Atamdan necə aldımsa, eləcə də ona verəcəyəm. Dan ulduzunu da ona verəcəyəm.
>
> *Vəhy 2:25–28*

İsa yeni yer üzünə — möhtəşəm Edenə hökmranlıq etmək üçün gələndə, O, Öz taxt-tacını bacı-qardaşları ilə bölüşəcək. Şər qüvvələr və hakimlər taxt-taclarından düşürüləcək və onların yerini biz tutacağıq. Onların hökmranlıqları, hətta Allaha sadiq olan mələklərə belə verilməyəcək. Edenin sonuncu Padşahlığında *biz mələklərdən üstün olacağıq*. İsa Öz bacı-qardaşlarını vəzifəyə qoyacaq.

Siz yəqin ki, Vəhy 2:28-ci ayədə sonuncu — «Dan ulduzunu da ona verəcəyəm» cümləsinin mənasını bilmək istərdiniz. Bu fikir qəribə səslənə bilər, amma bu, şər qüvvələrə son qoyandan sonra bizim İsa ilə birgə xalqlar üzərində gələcək müştərək hökmranlığımızdan danışır. «Dan ulduzu» ilahi varlıqları təsvir etmək üçün istifadə olunurdu (Əyyub 38:7). Bu, həm də Məsih üçün istifadə edilən sözdür. Məsih İlahi olduğuna görə «ulduz» sözü bəzən Onun gələcək hökmranlığını təsvir etmək məqsədilə istifadə olunurdu. Saylar 24:17-ci ayədə deyilir: «Yaqubdan bir

ulduz çıxacaq, İsraildən bir Əsa ucalacaq». Vəhy kitabında İsa Özünü belə təsvir edir: «Mən Davudun Kökü və Nəsli, parlaq Dan Ulduzuyam» (Vəhy 22:16).

Vəhy 2:25–28-ci ayələrin sözləri çox güclüdür. İsa təkcə Məsihin dan ulduzu olduğunu demir, həm də bizə dan ulduzunu *verir*. Bir sözlə, O Öz hökmranlığını bizimlə bölüşür. İman edənlərin tam başa düşməsi üçün Vəhy 3:20–21-ci ayələrdə belə yazılıb:

> Bax qapının önündə durub onu döyürəm; kim səsimi eşidib qapını açsa, onun yanına gələcəyəm və Mən onunla, o da Mənimlə birgə şam edəcəyik. Qalib gələnə Mənimlə birgə Öz taxtımda oturmağa imkan verəcəyəm; Mən də eləcə qalib gəlib Atamla birgə Onun taxtında oturmuşam.
>
> *Vəhy 3:20–21*

Bəs biz hansı məqsədlə ilahi təbiətin şərikləri olmuşuq? Nəyə görə İsa bizi toplantıda bacıları və qardaşları kimi təqdim edir? *O, bunu Allahın başlanğıcda istədiyi kimi yer üzündə bizə hökmranlıq verə bilməsi üçün edir.* Cənnət yeni möhtəşəm Edendə yer üzünə qayıdacaq.

## Əbədi Eden

Yaradılışın ilk fəslində Eden Allahın insan üçün planının, başqa ilahi varlıqların və Onun padşahlığının əsas mərkəzi idi. Buna görə də Vəhy kitabının sonuncu fəslinin bizi yenidən Edenə qaytarması təəccüblü deyil:

> Mələk mənə həyat suyu axan çayı göstərdi. Bu çay büllur kimi parlaq olub Allahın və Quzunun taxtından çıxır və şəhərin baş küçəsinin ortasından axırdı. Çayın hər iki tayında on iki cür meyvə gətirən həyat ağacı var idi. O ağac hər ay meyvə gətirir. Onun yarpaqları millətlərə şəfa

vermək üçündür. Daha lənətlənən heç bir şey olmayacaq. Allahın və Quzunun taxtı orada olacaq və qulları Ona ibadət edəcək. Onlar Onun üzünü görəcək, alınlarında Onun adını daşıyacaqlar. Artıq gecə olmayacaq, heç kəsin çıraq və günəş işığına ehtiyacı olmayacaq. Çünki Rəbb Allah onlara işıq verəcək və onlar əbədi olaraq padşahlıq edəcək.

*Vəhy 22:1–5*

Həyat ağacının millətlərə şəfa verməsi fikri sizin diqqətinizi çəkdimi? Bir vaxtlar şər qüvvələr və hakimlərin hökmranlığı altında olan xalqlara Allahın *sizin kimi* yeni oğulları və qızları rəhbərlik edəcək.

Həyat ağacı barədə təkcə Vəhy kitabında bəhs olunmur. İsa imanda axıra qədər sadiq qalanlara deyir: «Qalib gələnə Allahın cənnətində olan həyat ağacından yeməyə imkan verəcəyəm .... [O,] ikinci ölümdən heç zərər görməyəcək» (Vəhy 2:7, 11). Aydındır ki, Həyat ağacı Edenə işarə edir. Birinci ölüm fiziki ölümə aiddir. Bu ölüm Adəmin günahına və Edendən qovulmaya görə dünyaya girmişdi. Bütün insanlar, istər imanlı, istərsə də imansız olsun, hamısı Hökm günündə diriləcək. Bu, ikinci ölüm və sonuncu hökm olacaq (Vəhy 21:8). Yeni Edendə Allah ilə yaşamağa davam edənlərə ikinci ölüm təsir etməyəcək.

## Bu Nə üçün Vacibdir?

Əksər məsihçilərin ölümdən sonrakı həyat barədə təsəvvürləri zəifdir. Müqəddəs Kitab onun necə olacağını tam şəkildə göstərmir. Amma onun bəzi cəhətləri barədə böyük əminliklə danışmaq olar. Biz buludlar üzərində süzərkən lira çalıb ardı-arası kəsilmədən mahnı oxumayacağıq, səmavi divanlarda oturub ölən yaxınlarımız və ya məşhur keçmiş imanlılarla söhbət etməyəcəyik.

Biz bunun əvəzinə Eden həyatı yaşayacağıq. Ona sadiq qalan ilahi varlıqlarla birlikdə Allahın yaratdıqlarından zövq alacağıq və

onların qayğısına qalacağıq. Cənnət və yer üzü artıq bir-birindən ayrı yerlər olmayacaq.

Gələcəyimizi bilmək bizim düşüncə tərzimizi idarə etməlidir. Paul bu barədə belə deyirdi: «Allahın Onu sevənlər üçün hazırladıqlarını nə göz görüb, nə qulaq eşidib, nə də insan ürəyi dərk edib» (1 Korinflilərə 2:9). Bu heyranedici və əzəmətli nəticəni bilmək indiki vəziyyətimiz barədə düzgün təsəvvür əldə etməyə kömək edəcək. Paul bu sözləri yazandan sonra korinflilərə ikinci məktubunda deyir:

> Rəbbimiz İsa Məsihin Allahına — Atasına alqış olsun! O, rəhmli Ata və hər cür təsəlli verən Allahdır. Çəkdiyimiz hər bir əziyyətdə O bizə təsəlli verir... Ey qardaşlar, Asiya vilayətində çəkdiyimiz əziyyətlərdən bixəbər olmağınızı istəmirəm. Gücümüzdən daha artıq bir yük altında qaldıq. Hətta yaşamaqdan belə, ümidimizi kəsmişdik. Daxilən hiss etdik ki, ölümə məhkum olmuşuq. Amma bu özümüzə deyil, ölüləri diriltdən Allaha güvənməyimiz üçün başımıza gəldi.
>
> *2 Korinflilərə 1:3–9*

Allah həyatımızı qoruya bilər. Lakin ölümü dadsaq belə, İsa ilə birlikdə taxt-tacda oturmaq üçün diriləcəyik (Vəhy 3:21).

Biz ya gələcəyimizi düşünərək, ya da düşünmədən yaşamalıyıq. Üçüncü yol yoxdur. Bizim gələcək taleyimizdən agah olmağımız davranışımızı dəyişdirməlidir. Əgər bilsəydiniz ki, tənqid etdiyiniz, alçaltdığınız və hörmət göstərmədiyiniz adam bir gün sizinlə eyni mənzildə qalacaq və ya eyni ofisdə işləyəcək, onda siz sülhpərvər olmaq üçün daha çox güc sərf edər, hətta həmin adamla dost olardınız. Bəs onda nəyə görə imanlı bacı-qardaşımızla pis rəftar edirik? Nəyə görə imansız insanı İsaya gətirmək üçün səy göstərmirik? Nəyə görə bu insana düşmən kimi münasibət bəsləyirik? Biz əbədi həyatı düşünərək yaşamalıyıq!

İsa sizi razı salmaq üçün nə qədər səlahiyyət verməlidir? Bu sual qəribə səslənə bilər, çünki İsadan gələn *istənilən* hədiyyə gözəldir. Bəs nəyə görə ad-san üçün imanlılarla rəqabət aparırıq? Üstünlük, diqqət və şəxsi mənfəətdən ötrü bir-birimizlə niyə dalaşırıq? Korinfdəki imanlılardan nə fərqimiz var? Axı Paul onlara gələcək taleləri barədə xəbərdarlıq edirdi. Bizim ən böyük minnətdarlığımız Məsihlə birlikdə hökmranlıq etməyimizdir!

Ey məsihçi! Kim olduğunuzu bilməyin və Allahın sizin üçün olan planına uyğun yaşamağın vaxtı gəlib çatıb.

# YEKUN

Beləliklə, səyahətimizin sonuna çatdıq. Amma yaxşı olar ki, bu səyahətə yenicə başladığımızı deyək. Biz bir neçə əsas sualları nəzərdən keçirdik: *Başqa allahlar mövcuddurmu? Əgər mövcuddursa, bu, bizim Müqəddəs Kitabı başa düşməyimizə təsir edirmi? Əgər Müqəddəs Kitabda (mən tanış və qəbul edilmiş hissələrdən, qeyri-adi və çox vaxt əhəmiyyət vermədiyimiz hissələrdən danışmıram) gözəgörünməz aləmin əslində gerçək olduğunu güman etsək, bunun bizim imanımıza nə aidiyatı var?* Mən Kəlamın fövqəltəbii süjet xəttini dərk edəndə artıq çox şey barədə fərqli düşünməyə başladım. Bütün bunları qısaca belə xülasə edə bilərəm: biz kimik və məqsədimiz nədir? Ümid edirəm ki, bu kitab sizi bunlar barədə düşünməyə vadar etdi.

## Biz kimik? Bizim Allahın Ailəsində Yerimiz Var

Bu kitabda müzakirə olunanlar məsihçi olmağımızın, Əhdi-Cədidin dili ilə desək, «Məsihdə qalmağın» məğzini anlamağa böyük təsir göstərir. Biz Əhdi-Ətiqdə allahların gerçək olduğunu anlayanda, Yahve, İsrailin Allahının önündə «başqa allahların olmasın» əmrini başqa cür başa düşürük. Bu əmr pul, yaxta və ya maşın barədə deyil. Bu, Allahın Öz xalqı üçün olan qısqanc sevgisi barədədir. Başqa sözlə, bu *əmr əslində özü öz mənasını izah edir*. Bütün tanrıların Tanrısından başqa istənilən allaha sadiqlik ağılsızlıqdır.

Tanrının allahlar və onların xalqlarını ittiham etməsinin acı nəticəsi göz qabağındadır. Biz bir vaxtlar Allah tərəfindən rədd olunduq, başqa allahların əsiri olduq və onlar bizi istismar edib mənəviyyatımızı korladılar. Biz Paulun dediyi kimi, Allahdan və Onun məhəbbətindən ayrı düşdük (Efeslilərə 2:12), yolumuzu azdıq və qaranlığın əsiri olduq. Biz gözəgörünməz allahlara xidmət edərkən Allaha düşmən olduq (Efeslilərə 4:18, Kolosselilərə 1:21).

Biz acınacaqlı keçmişimizi dərk edəndə *övladlığa götürülmə* və *varislik* kimi məfhumlar daha dərin məna verir. Bizim vəziyyətimiz bu məfhumların məzmununu təşkil edir. Allah ilkin planını — Öz əli ilə yaratdığı dünyadan zövq alaraq ailəsi ilə yer üzündə yaşamaq planını pozmaq fikrində deyildi. Düzdür, O, Babildə bəşəriyyətdən üz döndərdi, amma dərhal sonra yeni ailəsini qurmaq və rədd olunmuş xalqları Özünə qaytarmaq üçün vasitəçi olaraq İbrahimi çağırdı (Həvarilərin İşləri 10:26–27).

Müqəddəs Kitabdakı ruhani aləmin fövqəltəbii gerçəkliyini qəbul etmək Kəlamı başa düşmək üçün çox vacibdir. Fövqəltəbii aləmin gerçəkliyi bizə Əhdi-Ətiqdə bütpərəstlik günahının başqa günahlardan niyə fərqli olduğunu anladır. Bütpərəstlik ən pis günahlardan biridir. İsrail Allaha sadiq olmaq üçün yaradılmışdı. O, başqa allahlara üz tutanda başqa xalqlar kimi əsir düşüb sürgün olundu və Allahdan ayrıldı. Kəlamda xilasın həmişə *iman* ilə əlaqələndirilməsinə əsas səbəb budur. Əslində Allah insanlarda daha yaxşı davranış axtarmırdı. O, *iman* və *sadiqlik* axtarırdı. Biz ürəklərimizi tanrıların Tanrısına verəndə, O, bizi xilas edir. Əgər başqa seçim etsək, onda bir gün əkdiyimizi biçəcəyik.

Bizim üçün sadiqlik nə deməkdir? İsanın çarmıxda etdiyi işi qəbul etməkdir, çünki O, bədəndə gələn Allah idi. Hərəkətlərimizin və davranışımızın (əməllərimiz) məğzi sadiqliyimiz vasitəsilə Allahın bizi qəbul etməsinə çalışmaq deyil. Biz artıq seçildiyimiz üçün Onun əmrlərinə riayət edirik. Onun əmrləri bizi xoşbəxtliyə və məmnunluğa gətirib çıxarır, çünki onlar özümüzü və başqalarını məhv etməkdən uzaqlaşdırır. Bu əmrlər bizə Allah və Onun bütün ailəsi ilə —

Onun Padşahlığında, yeni Edendə görünən və görünməyən ailəmizlə həmahəng bir həyatdan dadmağa imkan verir.

## Bizim Məqsədimiz: Hamımız Allahın Edeni Bərpa Etmək Planında İştirak Edirik

Allahın ailəsinə üzv olmaq üçün yalnız bir şərt var: o da İsa Məsihin simasında yanımıza gələn tanrıların Tanrısına sarsılmaz imandır. Allahın ailəsinin üzvü olmaq bizə təkcə gözəl imtiyazlar vermir, həm də həyatımızı aydın məqsədlə təmin edir.

Allahın ailəsinin üzvlərinə bir tapşırıq verilib: bu da yer üzündə Onun hökmranlığını bərpa etmək və ailəsinin üzvlərini artırmaq işində Allahın nümayəndələri olmaqdır. Biz Həvarilərin İşləri 2-ci fəsildə imanlı cəmiyyətin, Məsihin Bədəninin doğulması ilə başlamış böyük dəyişikliyin davamçıları olmalıyıq. Biz Rəbb qayıdanadək Allahın əlində alətik. İlk Edendə günah xəstəlik kimi insanlar vasitəsilə yayıldıqca, Müjdə də zəhər əleyhinə dərman kimi həmin Müjdəni «daşıyanlar» vasitəsilə yayılır. Biz Allah barədə həqiqəti və Onun bütün xalqlara olan məhəbbətinin *daşıyıcılarıyıq*. Biz həmçinin Onun dəyişilməz arzusunu — yaradılışdan bəri Öz ailəsi ilə birgə yer üzündə yaşamaq istəyini daşıyırıq. Edendə həyat yenidən *olacaq*.

İlbəil qitələr bir-birindən uzaqlaşır. Bu, elmi faktdır. Amma bu, hiss edilmir. Yalnız müşahidələrə əsasən bilirik ki, qitələrin bir-birindən uzaqlaşması baş verir. Allahın Padşahlığının daimi və davamlı inkişaf etdirilməsi də belədir. Biz allahların hökmranlığının və qaranlıq qüvvələrin hər gün nə qədər azaldığını gözlə görə bilmirik. Biz Müjdənin onların hökmranlığı altında olan insanları bir-bir necə azad etdiyini gözlə görə bilmirik. Lakin bu, *danılmaz bir faktdır*.

Bu böyük mənzərədə yerimizi bilmək üçün əmin olmalıyıq ki, Allah Öz planını yerinə yetirir. Biz Allahın uzaqgörənliyinin həyatımızda və bütün bəşəriyyət tarixində iş gördüyünə inanmırıqsa,

onda gözəgörünməz və fövqəltəbii aləmə inandığımızı səmimi tərzdə deyə bilmərik. *O, bizim məqsədli yaşamağımızı istəyir.* Allah istəyir ki, biz bu fakta inanaq: Onun gözəgörünməz əli və Ona, eləcə də bizə sadiq olan gözəgörünməz nümayəndələri həyatımızda iştirak edir ki, Allahın möhtəşəm Eden planı dayanmadan irəliləsin (İbranilərə 1:14).

Allahın Padşahlığına doğru gələn insan üçün hər birimiz vacibik. Biz eləcə də Allahın Padşahlığının müdafiəsində mühüm rol oynayırıq. Hər yeni gün bizə qaranlığın hökmranlığı altında olanlarla əlaqə saxlamağa imkan verir. Bundan başqa, hər yeni gün bizə fürsət verir ki, qeyri-kamil dünyada məqsədimizi yerinə yetirmək üçün bir-birimizi ruhlandıraq. *Etdiyimiz əməlin və dediyimiz sözün* nə üçün və nə qədər vacib olduğunu bilməsək də, *hər birinin öz mənası var*. Amma bizim tapşırığımız təkcə onu görmək deyil, ona əməl etməkdir. İmanda yaşamaq fəaliyyətsizlik deyil, fəallıqdır.

# BAĞIŞLANMA ÜÇÜN DUA

## Bağışlanma üçün Dua: Dəyərli Hədiyyə

Bağışlanma üçün dua həyatın müəyyən məqamında hamımızın axtardığı bir şeydir. Bağışlanma — nə asanlıqla əldə olunan, nə də asanlıqla verilə bilən dəyərli hədiyyədir. Bağışlanma həyat üçün vacibdir. O, bizi keçmiş səhvlərimizdən azad edir və gələcək üçün bizə ümid verir. İsa Məsih bəşəriyyət uğrunda ölmək üçün dünyaya gəldi ki, biz bağışlanaq.

## Bağışlanma üçün Dua: İsa Məsihin sayəsində Mümkün Oldu

Bağışlanma üçün dua — Allaha təqdim olunan duadır. Bizim günahlarımız bir-birimizi nə qədər incitsə də, Allahı daha çox incidir. Siz «bu necə ola bilər?» deyə sual verə bilərsiniz. «Bizim günahlarımız hər şeyə qadir kainatın Allahını necə incidə bilər? Məgər bu, Allahı narahat edir?» Yaradılış 6-cı fəsildə biz görürük ki, insanların bir-birinə qarşı törətdiyi pisliklərə görə Allah kədərlənir: «*Rəbb gördü ki, yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman onların ürəyindəki fikirlər və niyyətlər pisliyə doğru yönəlir. O, yer üzündə insanları yaratdığına peşman oldu və ürəyində kədərləndi*» (Yaradılış 6:5–6).

Hər şeyi bilən Allah, hətta şər barədə düşünəndə belə, kədərlənir. Ona görə də bağışlanma birinci növbədə Allahdan gəlməlidir. Amma

Onun ədalətinə əsasən bağışlanma müftə verilə bilməz. Allah ədalətli Hakim olduğuna görə hər bir günah cəzalandırılmalıdır. Bizim günahlarımızın bağışlanması üçün İsa Məsih bizim yerimizə Qolqotada çarmıxda öldü. Onun əzabları bizim günahlarımızdan ötrü bir ödəniş oldu. *«Çünki bu, Əhdin bağlanması və günahların bağışlanması üçün çoxları uğrunda axıdılan Mənim qanımdır»* (Matta 26:28).

Sevən Allah bilirdi ki, bizim vicdanımız təqsir və ittihamdan azad olunmalıdır. O bilirdi ki, günahlarımızın bağışlanmasına böyük ehtiyacımız var. Sevgi dolu Allah təkcə günahlarımıza görə əzab çəkmədi, həm də cəza üçün əvəz ödədi ki, günah işlədəndə biz bağışlanaq. Bizə yalnız Onun bağışlanma hədiyyəsini qəbul etmək qalır.

## Bağışlanma üçün Dua: Allahdan Sizi bağışlamasını İstəyin

Ola bilsin ki, siz əzab çəkən qəlbinizi sakitləşdirmək üçün bağışlanma duasını axtara-axtara bu səhifəyə rast gəlmisiniz, ya da sizi incidən adamı bütün gücünüzlə bağışlamağa çalışırsınız. İsa Məsihi Rəbbi və Xilaskarı kimi qəbul edən hər kəsə bağışlanma müftə verilir. Əgər biz öz günahlarımızı dərk ediriksə və Ondan bizi bağışlamasını istəyiriksə, Allah bizi bağışlayır: *«Amma günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək»* (1 Yəhya 1:9).

Əgər biz İsanı rədd ediriksə, Allahın bağışlanma hədiyyəsini də rədd edirik. Belə etməklə Allahla barışmaq istəmədiyimizi söyləyirik (1 Yəhya 1:10). Allahın bağışlanma hədiyyəsini qəbul edib-etməməkdə biz azadıq. Amma həyatımızın sonunda etdiyimiz bütün günahlar üçün cavab verməli olacağıq. Allah sizinlə barışmağı çox istəyir. *«Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak*

*olmasın, amma əbədi həyata malik olsun»* (Yəhya 3:16). Əgər siz, həqiqətən, günahlarınızın bağışlanmasını istəyirsinizsə, İsanın dedikləri barədə düşünün və Onu səmimi qəlbdən Rəbbiniz və Xilaskarınız kimi qəbul edin. Siz bağışlanacaqsınız və Allah sizin həyatınızı dəyişdirəcək.

## Bağışlanma üçün Dua: Yeni Həyatı Qəbul Edin

Bağışlanma üçün dua bizə yeni ümid və başlanğıc verir. Allah bütün günahlarımızı yuyub. *«Çünki təqsirlərinə qarşı mərhəmətli olacağam, günahlarını daha yada salmayacağam»* (İbranilərə 8:12).

Əgər siz günahkar olduğunuzu dərk edirsinizsə və İsa Məsihin günahların yeganə Xilaskarı kimi gəldiyinə inanırsınızsa, onda siz bağışlanma duasını başa düşürsünüz. Sizə sual vermək istəyirəm: bu duanı etmək istəyirsinizmi? Siz Allahın hədiyyəsini, Oğlu İsa Məsihi qəbul etmək istəyirsinizmi? Əgər istəyirsinizsə, onda Məsihə iman edin, günahlarınızdan üz döndərin və qalan ömrünüzü Rəbbə həsr edin:

> *«Ey Göylərdə olan Atam! Bilirəm ki, Sənin qanunlarını pozmuşam və günahlarım məni Səndən ayırıb. Bütün qəlbimlə qarşında tövbə edirəm. Keçmiş günahlı həyatımdan üz döndərib Sənə tərəf dönmək istəyirəm. Xahiş edirəm, məni bağışla və mənə kömək et ki, yenidən günah işlətməyim. Mən inanıram ki, Sənin Oğlun İsa Məsih günahlarım üçün ölüb və sonra ölülərdən dirilib. O, indi sağdır və duamı eşidir. Mən İsanı həyatımın Rəbbi olmağa və bu gündən etibarən ürəyimdə hökmranlıq etməyə dəvət edirəm. Xahiş edirəm, Müqəddəs Ruhunu mənə göndər ki, Sənə itaət etməkdə və bütün həyatım boyu Sənin iradənə əməl etməkdə mənə kömək etsin. İsanın adı ilə dua edirəm. Amin».*

*«Tövbə edin, hamınız İsa Məsihin adı ilə vəftiz olun. Onda günahlarınız bağışlanacaq və bəxşiş olaraq Müqəddəs Ruhu alacaqsınız» (Həvarilərin İşləri 2:38).*

Əgər siz bu gün İsanı qəbul etmək qərarına gəldinizsə, Allahın ailəsinə xoş gəlmisiniz. Müqəddəs Kitab öyrədir ki, Məsihdə inkişaf etmək üçün həyatınızı Ona həsr edib —

- Məsihin buyurduğu kimi vəftiz olun.
- Məsihə olan imanınız barədə kiməsə danışın.
- Hər gün Allahla vaxt keçirin. Bütün vaxtınızı sərf etməyə ehtiyac yoxdur. Sadəcə gündəlik Ona dua etmək və Kəlamını oxumaq adətini özünüzə aşılayın. Allahdan xahiş edin ki, imanınızı və Kəlamı başa düşmək qabiliyyətinizi artırsın.
- İsanın başqa davamçıları ilə ünsiyyət qurmağa çalışın. Suallarınıza cavab verəcək və sizi dəstəkləyəcək imanlı dostlar tapın.
- Allaha ibadət etmək üçün yerli toplantı tapın.

## Bu gün İsanın davamçısı olmaq qərarını verdinizmi?

## Siz artıq İsanın davamçısınızmı?

## Bu barədə nə düşünürsünüz?

Biz hamımız günah etdik və Allahın hökm cəzasına layiqik. Ata Allah Öz Oğlunu göndərdi ki, Ona iman edənlərin hökm cəzasını O, Öz üzərinə götürsün. İsa, Yaradan və günahsız həyat yaşamış Allahın əbədi Oğlu bizi o qədər sevir ki, günahlarımız üçün öldü, layiq olduğumuz cəzanı Özü çəkdi, dəfn olundu və Müqəddəs Kitaba əsasən ölülərdən dirildi. Əgər siz, həqiqətən, buna inanıb

ürəyinizi Ona vermisinizsə, «İsa Rəbdir» deyərək Onu Xilaskarınız kimi qəbul etmisinizsə, onda hökm cəzasından xilas olacaqsınız və əbədiyyəti Göylərdə Allah ilə birlikdə keçirəcəksiniz.

## Sizin cavabınız nə olacaq?

Bəli, bu gün mən İsanın ardınca getməyi qərara alıram.
Bəli, mən artıq İsanın davamçısıyam.
Mənim hələ suallarım var...

# MÜƏLLİFDƏN XAHİŞ

«Fövqəltəbii Aləm» kitabı mənim *The Unseen Realm: Recovering the Supernatural Worldview of the Bible* («Gözəgörünməz Aləm: Müqəddəs Kitabın Fövqəltəbii Dünyagörüşünü Bərpa Etmək») (*Lexham Press*, 2015) ətraflı elmi kitabımın qısaldılmış variantdır. *The Unseen Realm* («Gözəgörünməz Aləm») kitabını ingilis dilində *amazon.com*-da əldə etmək olar.

Ümid edirəm ki, «Fövqəltəbii Aləm» kitabı sizi ruhlandırdı. Mən yazdıqlarımı vacib hesab edən insanların səxavətli ianələri sayəsində bu kitabı pulsuz paylaya bilərəm. Əgər siz duada hiss etsəniz ki, *Miqlat* təşkilatına ianə vermək istəyirsiniz, bunu *miqlat.org* və ya *nakedbible.org* səhifəsindən edə bilərsiniz. Bütün ianələr «Fövqəltəbii Aləm» kitabının çapına xərclənəcək.

Əgər siz Kəlamdan daha çox şey öyrənmək istəyirsinizsə, bizim *drmsh.com* səhifəmizə daxil olun. Eləcə də *nakedbiblepodcast.com* səhifəsində *Naked Bible* («Açıq-aşkar Müqəddəs Kitab») podkasta abunə ola bilərsiniz. *Naked Bible* («Açıq-aşkar Müqəddəs Kitab») adı müasir adət-ənənələr, məzhəblər və başqa dini baxışların olmadığı, yalnız Kəlamın mətnini öyrətmək arzumu əks etdirir.

Siz internet səhifəmə daxil olanda görəcəksiniz ki, Müqəddəs Kitabın teologiyasını insanlara tanıtmaq üçün həm də fantastik janrda yazıram. Mənim (hal-hazırda *The Facade* («Fasad») və onun ardı olan *The Portent* («Əlamət») kitablarımı yalnız ingilis dilində *amazon.com* saytından əldə etmək olar.

# MÜNDƏRİCAT

**MİNNƏTDARLIQLAR** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

BİRİNCİ FƏSİL
**MÜQƏDDƏS KİTABA ETİBAR ETMƏK** . . . . . . . . . . . . . . . . . 7

İKİNCİ FƏSİL
**GÖZƏGÖRÜNMƏZ ALƏM: ALLAH VƏ ALLAHLAR** . . . . . . . 12

ÜÇÜNCÜ FƏSİL
**KEÇMİŞ VƏ GƏLƏCƏK PADŞAHLAR** . . . . . . . . . . . . . . . . . . 19

DÖRDÜNCÜ FƏSİL
**İLAHİ ALƏMDƏ ÜSYAN** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26

BEŞİNCİ FƏSİL
**KOSMİK COĞRAFİYA** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35

ALTINCI FƏSİL
**KƏLAM, AD VƏ MƏLƏK** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43

YEDDİNCİ FƏSİL
**DÖYÜŞ QAYDALARI** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50

SƏKKİZİNCİ FƏSİL
**MÜQƏDDƏS ƏRAZİ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57

DOQQUZUNCU FƏSİL
**MÜQƏDDƏS DÖYÜŞ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 64

ONUNCU FƏSİL
**GÖRÜNƏN YERDƏ GİZLƏDİLMİŞ** . . . . . . . . . . . . . . . . . . . . 72

ON BİRİNCİ FƏSİL
**FÖVQƏLTƏBİİ İSTƏK** . . . . . . . . . . . . . . . . . . . . . . . . . 79

ON İKİNCİ FƏSİL
**BULUDLAR ÜZƏRİNDƏ ATLI** . . . . . . . . . . . . . . . . . . . . . . 87

ON ÜÇÜNCÜ FƏSİL
**BÖYÜK DƏYİŞİKLİK** . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95

ON DÖRDÜNCÜ FƏSİL
**BU DÜNYADAN DEYİL** . . . . . . . . . . . . . . . . . . . . . . . . 102

ON BEŞİNCİ FƏSİL
**İLAHİ TƏBİƏTİN İŞTİRAKÇILARI** . . . . . . . . . . . . . . . . . . 110

ON ALTINCI FƏSİL
**MƏLƏKLƏR ÜZƏRİNDƏ HÖKMRANLIQ** . . . . . . . . . . . . . . . . . 117

**YEKUN** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 124

**BAĞIŞLANMA ÜÇÜN DUA** . . . . . . . . . . . . . . . . . . . . . . . 128

**MÜƏLLİFDƏN XAHİŞ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . 133

KITABI-KNIGI.COM

İstənilən cihaza öz dilinizdə
yükləyin və oxuyun. Bütün ailə üçün
pulsuz elektron kitablar.

